ORUCUN HÖKMLƏRİ

Ayətullahul-uzma Seyid Əli Hüseyni Xamenei

http://313news.net/

Mündəricat

Orucun mənası	**4**
Orucun növləri	**5**
Orucun vacib olma şərtləri	**7**
Oruc tutmağın əziyyətli olması	**8**
Ayın əvvəlinin sübuta yetməsi yolları	**9**
Hilalı görmək	**10**
İki ədalətli şəxsin hilalı gördüklərinə şəhadət vermələri	**15**
Hilalın göründüyünə yəqinlik hasil etmək	**16**
Ayın əvvəlinin elanında şəri hakimin hokum	**18**
Orucun niyyətinin qaydası	**19**
Orucun niyyətinin vaxtı	**20**
Müstəhəb orucların niyyətinin vaxtı	**21**
Niyyətə aid müxtəlif məsələlər	**22**
Niyyətin davam etməsi	**24**
Orucu batil edən işlər	**25**
Yeyib-içmək	**26**
Cinsi əlaqə	**29**
Sübh azanına qədər cənabətli qalmaq	**30**
Cənabət qüslünün vacib olduğunu və ya qaydasını bilməmək	**33**
İstimna	**35**
Allahın, Peyğəmbərlərin (s) və Məsumların (ə) adından yalan demək	**37**
Qatı tozu boğaza çatdırmaq	**38**
Başı bütünlüklə suya salmaq	**39**
İmalə etmək	**40**
Qusma	**41**
Orucu batil edən işlərin bir sıra hökmləri	**42**
Həkimin qadağası	**43**
Oruc tutmağın zərəri olacağından yaranan qorxu	**44**
Xüsusi xəstəlikləri olan xəstələrin orucu	**45**
Oruc halında inyeksiya (iynəvurma)	**47**
Oruc halında diş həkiminə müraciət etmək	**48**
Hamilələlik və südvermə	**49**
Heyzli qadınların orucu	**50**
Fitrə zəkatının vacib olma şərtləri	**51**
Fitrə zəkatının verildiyi qida məhsulu və onun miqdarı	**52**
Fitrə zəkatının verilmə zamanı və məkanı	**53**
Fitrə zəkatının istifadəsi	**54**
Fitr bayramı namazı	**56**
Təkcə orucun qəzasının vacib olduğu hallar	**58**
Orucun qəzasının hökmləri	**59**

Xəstənin orucunun qəzası **62**
Valideynlərin orucunun qəzası **63**
Orucun qəzasını tutmaqda səhlənkarlıq etmək və onu təxirə salmaq **65**
Əcir orucu **66**
Kəffarənin vacib olduğu hallar **68**
Kəffarəni verməyin qaydası **71**
Fidyə və təxir kəffarəsi **73**
Orucun kəffarəsinin istifadəsi **76**

Orucun mənası

1. Müqəddəs İslam şəriətində oruc – mükəlləfin(1) bütün gündüzü (fəcr(2) doğandan məğribə(3) qədər) Allahın əmrinə itaət niyyətilə yeyib-içməkdən və (bir qədər irəlidə) təfsilatı ilə deyiləcək bir sıra işlərdən çəkinməsidir.

(1) Mükəlləf –şəri vəzifəsi olan şəxsə deyilir.

(2) “Fəcr” sözünün leksik mənası “sübhün şəfəqi” deməkdir.
Birinci fəcr (yaxud “kazib fəcr”, yəni “yalançı fəcr”) və ikinci fəcr (yaxud “sadiq fəcr”, yəni “doğruçu fəcr”): Sübh azanına yaxın bir vaxtda şərq tərəfdə yuxarıya doğru qalxan bir ağlıq (ağ işıq, şəfəq, günəşin ilk şüaları) görünür və bu, birinci fəcr (“kazib fəcr”) adlanır. Bu ağlıq aradan getdikdə üfüq boyunca anbaan artan bir ağlıq görünür və bu, ikinci fəcr (“sadiq fəcr”) adlanır. (Leader.ir saytının “Fiqh terminləri” başlığı altındakı bölməyə istinadən)
“Sadiq fəcr”– sübh azanının vaxtıdır və burada “sadiq fəcr” nəzərdə tutulur (Müt.)

(3) Burada “şəri məğrib vaxtı”, yəni məğrib azanının vaxtı nəzərdə tutulur.

Orucun növləri

2. Oruc bir baxımdan 4 qisimdir:
- vacib oruc, məsələn, mübarək Ramazan ayının orucu;
- müstəhəb oruc, məsələn, Rəcəb və Şaban aylarında tutulan oruc;
- məkruh oruc, məsələn, “Aşura” günü tutulan oruc;
- haram oruc, məsələn, “Fitr bayramı” günü (Şəvval ayının 1-i) və “Qurban bayramı” günü (Zil-hiccə ayının 10-u) tutulan oruc.

Vacib oruclar

3. Vacib oruclar aşağıdakılardır:
- mübarək Ramazan ayının orucu;
- qəza orucu;
- kəffarə orucu;
- ata və ananın qəza orucu;
- nəzir, əhd və and vasitəsilə vacib olan müstəhəb oruc;
- etikaf günlərinin üçüncü günün orucu;
- təməttö həccində(1) qurbanlıq əvəzinə tutulan oruc.(*)

“Aşura” günü oruc tutmağın hökmü

4.“Aşura” günü oruc tutmaq olarmı?

Cavab: Məkruhdur.

Sükut orucu

5. Eşitmişəm ki, sükut orucu tutmaq haramdır. Amma bəziləri deyirlər ki, sükut orucu tutmağı nəzir etdikdə, halal olur. Bu söz düzgündürmü?

Cavab: Haramdır.

Zövcənin və övladın orucu

6. Haram orucların qisimləri sadalanarkən deyilir: “Əgər zövcənin oruc tutması ərin haqqına maneəçilik törədərsə, yaxud övladın oruc tutması ata-ananın əziyyət çəkməsinə bais olarsa, oruc tutmaq haramdır”. Sual budur ki, bu oruc təkcə müstəhəb oruca şamildir, yoxsa “vaxtı geniş olan vacib oruc”a(2) da şamil olur?

Cavab: Vacib oruca şamil olmur.

---

(1) Həcc 3 qismə ayrılır: təməttö, ifrad və qiran. Təməttö həcci o şəxslərə vacib olur ki, onların vətəni ilə Məkkə arasındakı məsafə 48 mildən (təxminən 90 kilometr) çoxdur. İfrad və qiran həcləri isə Məkkə sakinlərinə və ya qeydedilən məsafədən az olmaqla Məkkədən uzaqda yerləşən məntəqələrin sakinlərinə vacib olur. (Leader.ir saytının “Rəhbərin fətvaları əsasında həcc əməlləri” başlığı altındakı bölməyə istinadən)

Əgər həcc əməllərini yerinə yetirməkdə olan fərdin qurban kəsməyə maddi imkanı olmazsa və borc da ala bilməzsə, qurbanlıq yerinə on gün oruc tutmalıdır. Bu on gün orucun üç gününü həcc səfərində, qalan yeddi gününü isə öz vətənində oruc tutmalıdır.

(2) “Vaxtı geniş olan vacib oruc”a günü müəyyən edilməyən nəzir orucunu,Ramazan ayının qəza orucunu, “vaxtı müəyyən olan vacib oruc”a isə günü müəyyən edilən nəzir orucunu, Ramazan ayının orucunu misal çəkmək olar.

(*) Əgər həcc əməllərini yerinə yetirməkdə olan fərdin qurban kəsməyə maddi imkanı olmazsa və borc da ala bilməzsə, qurbanlıq yerinə on gün oruc tutmalıdır. Bu on gün orucun üç gününü həcc səfərində, qalan yeddi gününü isə öz vətənində oruc tutmalıdır.

Orucun vacib olma şərtləri

7. Aşağıdakı şərtlərə sahib olan şəxsə oruc tutmaq vacib olur:
- şəri baxımdan həddi-büluğa(1) çatıb;
- ağlı vardır;
- oruc tutmağa qüvvəsi vardır;
- bihuş halda deyildir;
- səfərdə deyildir;
- heyzli və nifaslı deyildir;
- orucun ona zərəri yoxdur;
- orucun ona böyük əziyyət və çətinliyi yoxdur.

(1) Şəri baxımdan həddi-büluğ dedikdə, şəri vəzifələrin vacib olduğu yaş dövrünün çatması nəzərdə tutulur. Uşaqların şəri büluğa çatmasının müəyyən edilməsi üçün əlamətləri vardır. Onlardan biri yaş həddidir: hicri-qəməri təqvimi ilə oğlanların on beş, qızlarınisə doqquz yaşa çatmasıdır.

Oruc tutmağın əziyyətli olması

Şəri baxımdan həddi-büluğa yeni çatan şəxsin oruc tutmağa qüvvəsinin çatmaması

8. Əgər bədəninin zəifliyinə görə şəri vəzifə yaşına çatan bir qızın oruc tutmağa qüvvəsi çatmırsa və Ramazan ayından sonra da (gələn ilin Ramazan ayına qədər) orucun qəzasını tuta bilmirsə, onun hökmü nədir?

Cavab:Ancaq bədənin zəifliyi və qüvvənin çatmaması səbəbilə orucu və onun qəzasını tuta bilməmək, orucun qəzasının mükəlləfin boynundan götürülməsinə bais olmur. Ramazan ayında tutmadığı orucların qəzası ona vacibdir.

9. Əgər şəri vəzifə yaşına yeni çatan qızlara oruc tutmaq bir qədər çətindirsə, onların hökmü nədir? Qızların şəri baxımdan həddi-büluğ yaşı qəməri ili ilə doqquz yaşın tamamlanmasıdırmı?

Cavab: Məşhur nəzərə görə, qızların şəri baxımdan həddi-büluğu qəməri ili ilə doqquz yaşın tamamlanmasıdır. Bu yaşda oruc tutmaq onlara vacib olur və bir sıra üzrlərə görə orucu tərk etmələrinə icazə verilmir. Amma əgər oruc tutmağın onlara zərəri, yaxud böyük əziyyəti olarsa, iftar etmələrinə icazə verilir.

10. Doqquz yaşlı qıza oruc tutmağın vacib olduğununəzərə alaraq, əgər o, çətin olduğuna görə orucunu iftar edərsə, orucun qəzası ona vacibdirmi, yoxsa vacib deyildir?

Cavab: Ramazan ayında iftar etdiyi orucların qəzası ona vacibdir.

11. Mən bədənimin zəifliyinə görə büluğ yaşından on iki yaşıma qədər oruc tutmamışam. İndi mənim vəzifəm nədir?

Cavab: Mübarək Ramazan ayında tutmadığınız orucların qəzasını tutmaq sizə vacibdir, çünki siz şəri vəzifə yaşına çatmışdınız. Əgər Ramazan ayında orucu bilərəkdən, ixtiyari olaraq və heç bir şəri üzr olmadan iftar etmisinizsə, sizə kəffarə də vacib olur.

12. Əgər büluğ yaşına yeni çatan bir şəxs bədəninin zəifliyinə və qüvvəsinin çatmadığına görə oruc tuta bilməyibsə, ona təkcə orucun qəzası vacib olur, yoxsa orucun qəzası ilə yanaşı kəffarəsi də vacib olur?

Cavab: Əgər oruc tutmağın ona böyük əziyyət və çətinliyi olmayıbsa və o, bilərəkdən iftar edibsə, qəzadan əlavə kəffarə də ona vacib olur. Amma əgər oruc tutub xəstələnəcəyindən qorxubsa, təkcə orucun qəzasını tutmalıdır.

Əziyyətli olduğuna görə orucu günərzində iftar etmək

13. Bir şəxs elə bir peşəyə sahibdir ki, aclıq və susuzluğa görə orucun ona böyük əziyyət və çətinliyi vardır. Nəzərə də almaq lazımdır ki, bu şəxs peşəsini dəyişə bilmir. Eləcə də, azyaşyaşlı bir yeniyetməyə oruc tutmağın böyük əziyyəti vardır. Bu şəxs və bu yeniyetmə günün əvvəlində iftar edə bilərlərmi, yoxsa onların başqa bir hökmü vardır?

Cavab: Sualda deyilənlərəəsasən, onlar böyük əziyyət və çətinliyə düçar olduqları vaxt iftar edə bilərlər. Susuzluğa gəlincə, ehtiyat-vacibə görə zəruri miqdarda iftar etməli (su içməli) və günün qalanını imsak eməlidirlər. Hər bir halda, sonradan həmin günün orucunun qəzasını tutmalıdırlar.

Ayın əvvəlinin sübuta yetməsi yolları

Ayın əvvəlinin, yəni ayın birinci günü olmasının sübuta yetməsi yolları

14. Mübarək Ramazan ayının əvvəli və axırı hilalı görməklə, yoxsa təqvim ilə sübuta yetir, baxmayaraq ki, Şaban ayı otuz gün olmamışdır?

Cavab: Mübarək Ramazan ayının əvvəli və ya axırı bu yollardan biri ilə sübuta yetir:
- mükəlləfin özünün yeni ayın hilalını görməsi;
- iki ədalətli şəxsin şəhadət verməsi;
- yəqinlik yaradan xəbərin geniş yayılması;
- otuz günün keçməsi;
- şəri hakimin hökmü.

15. Mənim yaşadığım yerdə ayın hilalını görmədən və yalnız şaban ayının əvvəlindən otuz günün keçməsini əsas götürərək cümə gününü Ramazan ayının birinci günü elan etdilər. Halbuki, Şaban ayının əvvəli də təhqiq ilə məlum deyildi. Buna görə də xahiş edirəm ki, fəzilətli qədr gecələrindən, günün dualarından, müəyyən gecə və gündüzlərin xüsusi əməllərindən bəhrələnmək xüsusunda mənim və başqalarının vəzifəsini müəyyən edəsiniz.

Cavab: Ramazan ayının hilalını görməsələr belə, Şaban ayının əvvəlindən otuz günün keçməsi ilə Ramazan ayının əvvəli olduğuna hökm edilir. Amma bu şərtlə ki, Şaban ayının əvvəli şəri yolla sübuta yetmiş olmalıdır. Əks təqdirdə, otuz günün keçməsi əsas götürülə bilməz. Mübarək qədr gecələrinə gəlincə, bu gecələr "arası kəsilməyən vahid bir varlıq"dır və əgər ayın hansı günü olduğu mükəlləfə dəqiqliyi ilə məlum olmasa, qədr gecələrinin və mübarək Ramazan ayının xüsusi vaxtlarının xüsusi dualarının fəzilətini əldə etməkdən ötrü mükəlləf ehtiyata əməl edə və həmin əməlləri təkrarlaya bilər.

Gündüz əsnasında Ramazan ayının başlandığına yəqinlik hasil etmək

16. Əgər zöhrdən qabaq həmin günün Ramazan ayının əvvəli olduğu elan edilsə, o günün orucunun hökmü nədir?

Cavab: Əgər mükəlləf orucu batil edən işləri yerinə yetirməyibsə, ehtiyat-vacibə görə oruc niyyəti edib oruc tutmalı, sonradan da o günün orucunun qəzasını tutmalıdır. Amma əgər orucu batil edən işlərdən birini yerinə yetiribsə, onun orucu batildir. Lakin (Ramazan ayının hörmətinə görə) məğrib azanına qədər orucu batil edən işlərdən çəkinməli və Ramazan ayından sonra həmin günün orucunun qəzasını tutmalıdır.

Ayın əvvəli sübuta yetmədiyi təqdirdə oruc tutmaq

17. Əgər səma buludlu olduğuna və ya başqa səbəblərə görə ayın əvvəlinin hilalını görmək mümkün olmazsa və bu səbəbdən Ramazan ayının birinci gününü və səadətli "Fitr bayramı" gününü müəyyən etmək mümkün olmazsa, eyni zamanda da Şaban ayının və ya Ramazan ayının otuz günü tamamlanmış olmazsa, Yaponiyada yaşayan bizim kimi mükəlləflərə İran üfüqünə əməl etmək və ya təqvimə əsaslanmağa icazə varmı? Bizim vəzifəmiz nədir?

Cavab: Əgər hilalın görünməsi, hətta üfüqü eyni olan qonşu şəhərlərin üfüqündə hilalın görünməsi vasitəsilə, yaxud iki ədalətli şəxsin şahidliyi vasitəsilə, yaxud da şəri hakimin hökmü vasitəsilə ayın əvvəli sübuta yetməzsə, ayın əvvəli sübuta yetənədək ehtiyat etmək gərəkdir.

"Fitr bayramı" günü (Şəvval ayının birinci günü) olduğu barədə mərcəyi-təqlidlər arasında fikirayrılığı

18. Əgər "Fitr bayramı" günü olduğu barədə mərcəyi-təqlidlər arasında fikirayrılığı yaranarsa, mükəlləfin vəzifəsi nədir? Hər bir müqəllid(1) öz mərcəyi-təqlidinin nəzərinə müraciət etməlidirmi?

Cavab: Ayın əvvəlinin sübuta yetməsi zəminində müctəhidə təqlid edilmir. Əgər müqəllid mərcəyi-təqlidin sözündən və nəzərini elan etməsindən ayın göründüyünə yəqinlik hasil edərsə, orucunu iftar etməlidir. Yox əgər

şəkki olarsa, həmin günü oruc tutmalıdır.

(1) Müqəllid - lazımi şərtlərə sahib olan müctəhidə təqlid edən şəxsə deyilir.

Hilalı görmək

14. Mübarək Ramazan ayının əvvəli və axırı hilalı görməklə, yoxsa təqvim ilə sübuta yetir, baxmayaraq ki, Şaban ayı otuz gün olmamışdır?

Cavab: Mübarək Ramazan ayının əvvəli və ya axırı bu yollardan biri ilə sübuta yetir:
- mükəlləfin özünün yeni ayın hilalını görməsi;
- iki ədalətli şəxsin şəhadət verməsi;
- yəqinlik yaradan xəbərin geniş yayılması;
- otuz günün keçməsi;
- şəri hakimin hökmü.

15. Mənim yaşadığım yerdə ayın hilalını görmədən və yalnız şaban ayının əvvəlindən otuz günün keçməsini əsas götürərək cümə gününü Ramazan ayının birinci günü elan etdilər. Halbuki, Şaban ayının əvvəli də təhqiq ilə məlum deyildi. Buna görə də xahiş edirəm ki, fəzilətli qədr gecələrindən, günün dualarından, müəyyən gecə və gündüzlərin xüsusi əməllərindən bəhrələnmək xüsusunda mənim və başqalarının vəzifəsini müəyyən edəsiniz.

Cavab: Ramazan ayının hilalını görməsələr belə, Şaban ayının əvvəlindən otuz günün keçməsi ilə Ramazan ayının əvvəli olduğuna hökm edilir. Amma bu şərtlə ki, Şaban ayının əvvəli şəri yolla sübuta yetmiş olmalıdır. Əks təqdirdə, otuz günün keçməsi əsas götürülə bilməz. Mübarək qədr gecələrinə gəlincə, bu gecələr "arası kəsilməyən vahid bir varlıq"dır və əgər ayın hansı günü olduğu mükəlləfə dəqiqliyi ilə məlum olmasa, qədr gecələrinin və mübarək Ramazan ayının xüsusi vaxtlarının xüsusi dualarının fəzilətini əldə etməkdən ötrü mükəlləf ehtiyata əməl edə və həmin əməlləri təkrarlaya bilər.

Gündüz əsnasında Ramazan ayının başlandığına yəqinlik hasil etmək

16. Əgər zöhrdən qabaq həmin günün Ramazan ayının əvvəli olduğu elan edilsə, o günün orucunun hökmü nədir?

Cavab: Əgər mükəlləf orucu batil edən işləri yerinə yetirməyibsə, ehtiyat-vacibə görə oruc niyyəti edib oruc tutmalı, sonradan da o günün orucunun qəzasını tutmalıdır. Amma əgər orucu batil edən işlərdən birini yerinə yetiribsə, onun orucu batildir. Lakin (Ramazan ayının hörmətinə görə) məğrib azanına qədər orucu batil edən işlərdən çəkinməli və Ramazan ayından sonra həmin günün orucunun qəzasını tutmalıdır.

Ayın əvvəli sübuta yetmədiyi təqdirdə oruc tutmaq

17. Əgər səma buludlu olduğuna və ya başqa səbəblərə görə ayın əvvəlinin hilalını görmək mümkün olmazsa və bu səbəbdən Ramazan ayının birinci gününü və səadətli "Fitr bayramı" gününü müəyyən etmək mümkün olmazsa, eyni zamanda da Şaban ayının və ya Ramazan ayının otuz günü tamamlanmış olmazsa, Yaponiyada yaşayan bizim kimi mükəlləflərə İran üfüqünə əməl etmək və ya təqvimə əsaslanmağa icazə varmı? Bizim vəzifəmiz nədir?

Cavab: Əgər hilalın görünməsi, hətta üfüqü eyni olan qonşu şəhərlərin üfüqündə hilalın görünməsi vasitəsilə, yaxud iki ədalətli şəxsin şahidliyi vasitəsilə, yaxud da şəri hakimin hökmü vasitəsilə ayın əvvəli sübuta yetməzsə, ayın əvvəli sübuta yetənədək ehtiyat etmək gərəkdir.

"Fitr bayramı" günü (Şəvval ayının birinci günü) olduğu barədə mərcəyi-təqlidlər arasında fikirayrılığı

18. Əgər "Fitr bayramı" günü olduğu barədə mərcəyi-təqlidlər arasında fikirayrılığı yaranarsa, mükəlləfin vəzifəsi nədir? Hər bir müqəllid(1) öz mərcəyi-təqlidinin nəzərinə müraciət etməlidirmi?

Cavab: Ayın əvvəlinin sübuta yetməsi zəminində müctəhidə təqlid edilmir. Əgər müqəllid mərcəyi-təqlidin sözündən və nəzərini

elan etməsindən ayın göründüyünə yəqinlik hasil edərsə, orucunu iftar etməlidir. Yox əgər şəkki olarsa, həmin günü oruc tutmalıdır.

Yeni ayın doğduğuna yəqinlik hasil etmək

19. Əgər yeni ayın doğduğuna və görünməsinin mümkün olduğuna yəqinlik yaranarsa, həmin vaxt ayı hələ görməsələr belə, bu yəqinliyə əsaslanmaq olarmı?

Cavab: Əgər yeni ayın doğduğuna və görünməsinin mümkün olduğuna yəqinlik yaranarsa, yeni ayın başlandığına yəqinlik yaranır və ayın əvvəlinə aid məsələlər bu günə aid olur, baxmayaraq ki, mükəlləf hilalı hələ görməmişdir.

Yeni aya daxil olmağın meyarı

20. Yeni aya daxil olmağın meyarı nədir? Meyar ayın "təhtəş-şüa"dan(2) xaric olmasıdırmı, yoxsa "məhaq"dan(3) xaric olmasıdır? Yaxud heç bir vasitə və cihazdan istifadə etmədən adi gözlə ayı görmək şərtdir, yoxsa ayın görünməsinin mümkünlüyü şərt götürülür?

Cavab: Meyar –hətta hansısa bir vasitə və cihazdan istifadə edilsə belə – ayın "təhtəş-şüa"dan xaric olması və görünməsinin mümkünlüyüdür.

şüa"dan xaric olması və görünməsinin mümkünlüyüdür

21. Əgər ayın doğduğuna yəqinliyimiz olsa, amma görünməsinin mümkün olduğuna yəqinliyimiz olmasa, hökm nədir?

Cavab: Kifayət etmir.

Ayı görmək

22. Hər ayın əvvəlində ayın hilalını görmək kifayi-vacibdir(4), yoxsa ehtiyati-vacibdir?

Cavab: Ayın hilalını görmək öz-özlüyündə şəri vacib əməl deyildir.

Ayı görməyin zamanı

23. Bildiyiniz kimi, ayın axırında və ya əvvəlində hilal aşağıdakı vəziyyətlərdən birində olur:
a) hilal – günəş qürub etməmişdən qabaq qürub edir;
b) hilal– günəşlə eyni vaxtda qürub edir;
c) hilal– günəşdən sonra qürub edir.
Xahiş edirəm deyəsiniz, ayın əvvəlini müəyyən etmək üçün yuxarıdakı vəziyyətlərdən hansı biri əsas götürülür?

Cavab: Hər üç vəziyyətdə, yeni qəməri ayın başlanmasının sübutu üçün "hilalın göründüyü gecədən hilalı görmək" kifayət edir.

24. İranda yeni ay göründükdən sonra iki-üç gün ərzində bəzi ölkələrdə (məsələn, İsveçdə) günəş qürub etdikdən sonra Şəvval ayının hilalını görmək mümkün olmur, çünki bu regionlarda ay günəşdən qabaq qürub edir. Əgər bu regionlarda günəş qürub etməmişdən qabaq hilalı görmək mümkün olsa, bu, Şəvval ayının hilalının görünməsinin sübuta yetməsi üçün kifayət edirmi, yoxsa kifayət etmir?

Cavab: Yeni qəməri ayın başlanmasının sübutu üçün hilalın göründüyü gecədən günəşin qürubundan öncə hilalı görməyin mümkün olduğuna yəqinlik hasil etmək kifayət edir.

Üfüqün eyni olması və bunun meyarı

25. Hilalın göründüyünə hökm verməkdə üfüqün eyni olması şərtdirmi, yoxsa şərt deyildir?

Cavab: Bəli, şərtdir.

26. Üfüqün eyni olması nə deməkdir və üfüqü eyni olan regionlar hansı regionlardır?

Cavab: Üfüqün eyni olması dedikdə, hilalı görməyin mümkün olub-olmaması baxımından bir regionun başqa bir regionla eyni olması nəzərdə tutulur.

Üfüqü eyni olan şəhərlərdə yeni ayın hilalının görünməsinin sübuta yetməsi

27. Əgər mübarək Ramazan ayının hilalı bir şəhərdə görünərsə, üfüqü eyni olan və ya aralarında iki saat fərq olan başqa şəhərlərdə də ayın əvvəli olduğu sübuta yetirmi, yoxsa sübuta yetmir?

Cavab: Əgər hilalı görməyin mümkün olması baxımından iki şəhərin həmişə eyni olduğu dəqiqləşərsə, üfüqü eyni olan və ya aralarında iki saat fərq olan başqa şəhərlərüçün də kifayət edir. Qürub vaxtının fərqli olması meyar götürülmür.

Başqa regionların üfüqünə əsaslanmaq

28. Əgər Tehranda və Xorasanda ayın iyirmi doqquzuncu günü bayram olarsa, Buşəhr kimi şəhərlərinsakinləri də iftar edə bilərlərmi? Nəzərə almaq lazımdır ki, Tehran və Xorasanın üfüqü Buşəhrin üfüqü ilə eyni deyildir.

Cavab: Ümumiyyətlə, əgər iki şəhərin üfüqü arasında elə bir fərq olsa ki, onların birində hilal göründükdə digərində hilalın görünmə imkanı mövcud deyildir, bu təqdirdə bir şəhərdə hilalın görünməsi, onun görünmə ehtimalının yəqinliklə mövcud olmadığı digər şəhərlər üçün kifayət etmir.

Şərqdə yerləşən şəhərlərdə hilalın görünməsi

29. Əgər İngiltərədə ay görünsə, onun qərbində yerləşən ölkələrin əhalisi üçün ayın göründüyü sübuta yetirmi?

Cavab: Əgər bir şəhərdə ayın görünməsi başqa bir şəhərdə ayın görünməsi və ya görünməsinin mümkün olması ilə həmişə eyni olarsa, bu şəhərlərin birində ayın görünməsi digəri üçün də kifayət edir. Amma coğrafi enliklər (paralellər və ya saat qurşaqları) arasındakı böyük fərq nəticəsində şərqdə yerləşən şəhərdə ayın görünməsi qərbdə yerləşən şəhərdə ayın görünməsinin mümkün olması ilə həmişə eyni olmaya bilər.

30. Əgər ay şərqdə yerləşən ölkələrdə görünərsə, ayın görünməsi qərbdə yerləşən ölkələr üçün öz-özünə sübuta yetirmi, yoxsa sübuta yetmir? Meyar nə götürülür?

Cavab: Baxmayaraq ki, şərqdə yerləşən ölkələrdə ayın görünməsi qərbdə yerləşən ölkələrdə ayın görünməsinin mümkün olması ilə əsasən eyni olur, lakin bəzən coğrafi enliklər arasındakı böyük fərqi nəzərə alaraq, bu, həmişə eyni olmaya bilər. Ümumi meyar, hilalın görünməsinin mümkün olması baxımından iki şəhərin eyni olmasıdır.

Hilalın görünməsi baxımından regionların eyni coğrafi enlikdə (paraleldə) yerləşməsi

31. Kanadanın şimalı İngiltərə ilə eyni coğrafi enlikdə yerləşir. Kanadının şimalı ilə İngiltərənin üfüqü eynidirmi?

Cavab: Eyni coğrafi enlikdə yerləşmək üfüqün eyni olması üçün kifayət etmir. Meyar – bir şəhərdə ayın görünməsinin başqa bir şəhərdə ayın görünməsinin mümkün olması ilə eyni olmasıdır.

Gecənin bir hissəsində iki ölkənin müştərək olması

32. Əgər mükəlləfin ölkəsi olmayan bir ölkədə ayın doğduğuna və görünməsinin mümkün olduğuna yəqinlik yaranarsa, bu təqdirdə əgər həmin ölkə gecənin bir hissəsində mükəlləfin ölkəsi ilə müştərək olarsa, həmin ölkədə ayın görünməsinə əsaslanmaq olarmı?

Cavab: Gecənin bir hissəsindəiki ölkənin müştərək olması hökmün müştərək olması üçün kifayət etmir.

Hilalın görünməsinin meyarı

33. Yeni ayı hansısa bir vasitə və cihazla görməyin hökmü nədir? Xüsusi durbinlərdən istifadə etməklə, işığın əksini və kompyuterdə qeydə alınan məlumatları nəzərdən keçirməklə ayın hilalının şəklini görmək ayın əvvəlinin sübuta yetməsi üçün kifayət edirmi?

Cavab: Hilalı hansısa bir vasitə ilə görməklə adi gözlə görmək arasında bir fərq yoxdur və etibarlı sayılır. Meyar, "görmək" ünvanınınsaxlanmasıdır. Deməli, gözlə görmək, eynəklə görmək, teleskopla görmək – bunların hamısı eyni bir hökmü daşıyır. İşığın əksinin kompyuterdə qeydə alınmasına gəlincə, "görmək" ünvanının burada özünü doğrultduğu məlum olmadığı üçün məhəlli-işkaldır(5).

(1) Müqəllid - lazımi şərtlərə sahib olan müctəhidə təqlid edən şəxsə deyilir.
(2) Günəş şüaları ilə işıqlanmış zona.
(3) Qəməri ayın axırı, yəni axırıncı günü (ay görünməyən gecələr).
(4) "Kifayi-vacib" əməli hər bir mükəlləf yerinə yetirməlidir. Amma əgər bəzi mükəlləflər kifayət həddə onu yerinə yetirsələr, həmin vacib əməl digər mükəlləflərin boynundan götürülür. Məsələn, Allah yolunda cihad. Əgər kifayət sayda mükəlləf cihadda iştirak edərsə, digər mükəllərin boynundan götürülür. (Leader.ir saytına istinadən)
(5) "Məhəlli-işkal" fiqh terminidir. İzahı budur ki, müctəhid müəyyən bir məsələ barədə hökm verə bilmir və müqəllid bu məsələdə sonrakı rütbədə olan bir müctəhidə müraciət edə bilər. (Leader.ir saytına istinadən)

İki ədalətli şəxsin hilalı gördüklərinə şəhadət vermələri

İki ədalətli şəxsin hilalı gördüklərinə şəhadət vermələri

34. Əgər bir neçə ədalətli şəxs şəhadət versələr ki, iki ədalətli şəxs ayı görmüşdür, Ramazan və ya Şəvval ayının əvvəli sübuta yetirmi?

Cavab: Xeyr, sübuta yetmir. İki ədalətli şəxsin özü ayı gördüklərinə şəhadət verməlidirlər. Əgər ayın görünməsi vasitə ilə nəql edilərsə, kifayət etmir. Əlbəttə, əgər həmin bir neçə ədalətli şəxsin sözündən ayın göründüyünə yəqinlik yaranarsa, bu təqdirdə ayın göründüyü sübuta yetir.

Hilalın görünməsi barədə iki bəyyinənin(1) ziddiyyəti

35. Əgər bir şəhərin alimləri arasında hilalın görünüb-görünmədiyi barədə fikirayrılığı yaranarsa, eyni zamanda onların ədalətinə və öz dəlillərində diqqətli olmalarına mükəlləfin yəqinliyi olarsa, mükəlləfin vacib vəzifəsi nədir?

Cavab: Əgər iki bəyyinənin ziddiyyəti “inkar” və “təsdiq” şəklində olarsa, yəni alimlərdən biri hilalın göründüyünü və digəri görünmədiyini söyləyərsə, bu fikirayrılığı “iki bəyyinənin ziddiyyəti”nə və hər ikisinin qüvvədən düşməsinə bais olur. Mükəlləfin vəzifəsi, hər iki nəzəri kənara qoymaq və iftar edib, yoxsa oruc tutmaq barəsində əslin tələbinəuyğun əməl etməkdir.

Amma əgər bir şəhərin alimləri arasındakı fikirayrılığı hilalın göründüyü və ya hilalın göründüyünə yəqinliyin olmaması barədə olarsa, yəni əgər alimlərdən bəziləri hilalın göründüyünü və bəziləri hilalın müşahidə edilmədiyini söyləyərsə, bu təqdirdə əgər hilalın göründüyünü söyləyən alimlər ədalətlidirlərsə, onların sözü mükəlləflər üçün şəri dəlildir və bu nəzərə əməl etməlidirlər.

(1) “Bəyyinə” fiqhdə işlənən termindir və “bir məsələni sübuta yetirən dəlil” mənasını bildirir.

Hilalın göründüyünə yəqinlik hasil etmək

Radio və televiziyadan hilalın görünməsinin elan edilməsi

36. Əgər Şəvval ayının hilalı bir şəhərdə müşahidə edilməsə, amma televiziya və radioda yeni ayın başlandığı xəbər verilsə, bu kifayət edirmi, yoxsa daha artıq araşdırma aparmaq vacibdir?

Cavab: Əgər televiziya və radioda verilən xəbər yeni ayın başlandığına yəqinlik yaradarsa və ya bu xəbər yeni ayın başlandığına dair vəliyyi-fəqihin verdiyi hökmü ehtiva edərsə, bu, kifayət edir və araşdırma aparmağa ehtiyac yoxdur.

Başqalarının sözü əsasında hilalın göründüyünə güman yaranması

37. Əgər bir dəstə insanın sözündən sabah “Fitr bayramı” olduğuna dair bizdə güman yaransa, oruc tuta bilərikmi?

Cavab: Mükəlləf sabah “Fitr bayramı” və Şəvval ayının biri olduğuna yəqin etməyənədək orucunu iftar edə bilməz.

Astronomik hesablamaların doğruluğuna yəqinliyin olması

38. Əgər yeni ayın doğması və (heç bir vasitə və cihazdan istifadə etmədən) adi gözlə görünməsinin mümkün olması barədə astronomik hesablamaların doğruluğuna mükəlləfin özündə yəqinlik yaranarsa, Ramazan ayının əvvəlinin və ya “Fitr bayramı”nın sübuta yetməsi üçün bu yəqinliyə əsaslanmaq olarmı? Xüsusilə də, əgər bu sözü bu sahənin mütəxəssisləri desələr?

Cavab: Yalnız astronomik hesablamaların doğruluğuna yəqin etmək əsas götürülə bilməz. Amma əgər görünməyə qabil olan hilalın mövcud olduğuna yəqinlik yaranarsa, mükəlləf bu yəqinliyinə etina etməlidir.

Qeyri-islami dövlət tərəfindən hilalın görünməsinin elan edilməsi

39. Əgər hilalın görünməsinin bir dövlət tərəfindən elan edilməsinə icazə varsa və bu elan hilalın görünməsinin sübuta yetməsində başqa ölkələr üçün elmi meyarı təşkil edirsə, bu dövlətin İslami dövlət olması şərtdirmi? Yoxsa bu hökumət zalım bir hökumət olsa belə, bu elana müvafiq olaraq əməl etmək mümkündür?

Cavab: Bu xüsusda meyar – müəyyən bir regionda hilalın göründüyünə yəqinliyin hasil olmasıdır.Hansı ki, bu regionda hilalın göründüyünə yəqinliyin hasil olması mükəlləf üçün yetərli hesab olunur.

Hilalın görünməsi məsələsində əhli-sünnənin nəzərinə əməl etmək

40. Zil-hiccə ayının 10-cu gününün (“Qurban bayramı”nın) müəyyən edilməsində Səudiyyə Ərəbistanı dövlətinin elanına müvafiq olaraq əməl etmək vacibdirmi? Yoxsa bu məsələdə fərqli nəzərə sahib olmaq olar?

Cavab:Hacılar üçün əhli-sünnə qazisinə hilalın görünməsinin sübuta yetməsi və hilalın göründüyünə dair hökmünə müvafiq olaraq əməl etmələri kifayət edir.

Hilalın sonrakı gecələrdəki xüsusiyyətləri əsasında ayın əvvəlinin müəyyən edilməsi

41. Hilalın kiçik və nazik olması, birinci gecənin hilalının xüsusiyyətlərinə sahib olması əvvəlki gecənin ayın birinci gecəsi deyil, əvvəlki ayın otuzuncu gecəsi olduğuna dəlildirmi? Əgər bir şəxs üçün bayram olduğu sübuta yetərsə və bu yolla əvvəlki günün bayram olmadığına yəqinlik hasil edərsə, o, Ramazan ayının otuzuncu gününün orucunun qəzasını tutmalıdırmı?

Cavab: Sırf hilalın kiçik və aşağıda olması, yaxud böyük və yuxarıda olması, yaxud da enli və ya nazik olması gecənin birinci və ya ikinci gecə olmasına şəri dəlil deyildir. Amma əgər mükəlləf bu xüsusiyyətlərdən hansısa bir məsələyə yəqinlik hasil edərsə, bu xüsusda öz yəqinliyinə müvafiq əməl etməlidir.

42. Ayın bədirləndiyi gecəyə (on dördüncü gecə) istinad edilməsi və ayın əvvəlini hesablamaq üçün bunun mötəbər bir dəlil hesab edilməsinə icazə verilirmi? Beləcə, “şəkk günü”nün vəziyyəti də məlum olar. Məsələn, məlum olar ki,

Ramazan ayının otuzuncu günüdür və Ramazan ayının gündüzünə aid olan hökmlər bu günə də aid olar. Yaxud da bəyyinə əsasında bu günü oruc tutmayan şəxsə orucun qəzasını tutmağın vacib olduğuna hökm verilər və digər tərəfdən “istishab” dəlili ilə Ramazan ayının olduğunu qəbul edib, oruc tutan şəxsin boynuna heç bir vəzifə gəlməz.

Cavab: Deyilən məsələ sualda bəyan olunanlara şəri dəlil deyildir. Amma əgər bu, mükəlləfdə hansısa bir məsələyə yəqinlik yaradarsa, bu yəqinliyə müvafiq əməl etməsi vacibdir.

Ayın əvvəlinin elanında şəri hakimin hökmü

Şəri hakimin hökmü

43. “Müctəhid hilalın göründüyü barədə icrası hamıya vacib olan hökm verməlidir” dedikdə, nə nəzərdə tutulur? “Şəri hakim” ünvanı kimlərə şamil olur?

Cavab: Müctəhidin hökm verməsi, ayın əvvəli olduğu barədə öz nəzərini izhar etməsidir və ayın əvvəli olmasının sadəcə onun üçün sübuta yetməsi “hökm” deyildir. “Şəri hakim” dedikdə, lazımi şərtlərə sahib olan müctəhid və ilk növbədə “vəliyyi-fəqih” nəzərdə tutulur.

Hilalın görünməsinin sübuta yetməsi xüsusunda vəliyyi-fəqihə tabe olmaq

44. Əgər müsəlmanların vəliyyi-əmri sabahkı günün “Fitr bayramı” günü olduğuna hökm verərsə və radio və televiziyada hilalın bir neçə şəhərdə göründüyü elan edilərsə, ölkənin bütün bölgələrində bayram olduğu sübuta yetirmi? Yoxsa bu, təkcə ayın göründüyü şəhərlər və bu şəhərlərlə üfüqü eyni olan şəhərlər üçün sübuta yetir?

Cavab: Əgər şəri hakimin hökmü bütün ölkəyə şamil olarsa, onun hökmü şəri olaraq bütün şəhərlər üçün etibarlıdır.

45. Bildiyiniz kimi, hörmətli fəqihlərin əksəriyyəti öz risalələrində Şəvval ayının əvvəlinin sübutu üçün beş yol qeyd etmişlər və bunlar arasında “ayın əvvəlinin şəri hakim üçün sübuta yetməsi” yer almamışdır? Bunu nəzərə alaraq, möminlərin əksəriyyəti sırf mərcəyi-təqlidlər üçün ayın əvvəlinin sübuta yetməsilə öz oruclarını necə iftar edirlər?

Cavab: Şəri hakim hilalın göründüyünə hökm verməyənədəkayın görünməsinin onun üçün sübuta yetməsi başqalarının ona tabe olmasında kifayət etmir. Əlbəttə, əgər hilalın görünməsinin sübuta yetməsinə yəqin edərlərsə, kifayət edir.

Hilalın göründüyünü şəri-hakimə xəbər vermək

46. Əgər bir nəfər ayın hilalını görsə və bilsə ki, hilalı görmək hansısa bir səbəbə görə şəri hakimə mümkün olmayacaqdır, hilalı gördüyünü şəri hakimə xəbər vermək onun vəzifəsidirmi?

Cavab: Bunu xəbər vermək ona vacib deyildir. Əlbəttə, əgər bu işi tərk etmək
fəsada yol açarsa, bunu xəbər verməlidir.

Şəri hakim ilə müqəllidin yaşadıqları bölgələrin üfüqü arasında fərqin olması

47. Əgər mükəlləflərin yaşadıqları bölgənin üfüqü ilə müctəhidin yaşadığı bölgənin üfüqü arasında böyük fərq varsa, ayın əvvəlinin olması barədə şəri hakimin verdiyi hökmə onlar əməl etməlidirlərmi?

Cavab: Əgər müctəhidin yaşadığı bölgədə hilalın görünməsi ilə mükəlləflərin yaşadıqları bölgələrdə hilalın görünməsinin mümkünlüyü həmişə üst-üstə düşməzsə, şəri hakimin hökmü o bölgəyə aid olmur

Orucun niyyətinin qaydası

48. Bütün başqa ibadətlər kimi orucda da niyyət olmalıdır. Yəni insanın yeyib-içməkdən və orucu batil edən digər işlərdən çəkinməsi Allahın əmrinə itaət niyyətilə olmalıdır. İnsanın belə bir niyyətdə olması kifayətdir və bunu dilə gətirmək lazım deyildir.

Hər gün və ya bütün ay üçün oruc niyyəti etmək

49. Ramazan ayında hər gün üçün oruc niyyəti etmək lazımdır, yoxsa ayın əvvəlində bir dəfə oruc niyyəti etmək kifayət edir?

Cavab: Əgər mükəlləf Ramazan ayının birinci gecəsi bir ay oruc tutacağını niyyət etsə, kifayətdir. Amma yaxşı olar ki (ehtiyat-müstəhəbə görə), Ramazan ayının hər gecəsində sabahkı günün orucu üçün də niyyət etsin.

Niyyət vasitəsilə orucun vacibliyi

50. Anam bütün ayı oruc tutmağı niyyət etmişdi, amma yeddi gündən sonra xəstələndi. İndi onun vəzifəsi nədir?

Cavab: Niyyət, onun üzərinə bir vəzifə gətirmir. Beləliklə, sualda deyilənlərə əsasən, oruc ona vacib deyildir.

Orucda sabit niyyətin kifayət etməsi

51. Bir şəxs gecə oruc niyyəti edir və həmin niyyət ilə sübh azanından sonraya qədər yatır. Oyandıqda bir stəkan su içdikdən sonra gecə oruc niyyəti etdiyini xatırlayır. Bu təqdirdə onun orucu düzgündürmü?

Cavab: Orucu batil edən işləri səhvən yerinə yetirmək, orucun düzgünlüyünə xələl gətirmir və əgər əvvəlki niyyət (sabit şəkildə) qalmış olarsa, kifayət edir.

Orucun niyyətinin vaxtı

Vacib orucların niyyətinin vaxtı

52. Vacib orucların niyyətinin vaxtı, adətən, nə vaxtdır?

Cavab: Ramazan ayının orucunun və vaxtı müəyyən olan nəzir orucunun niyyətinin vaxtı gecənin əvvəlindən sübh azanına qədərdir. Vaxtı müəyyən olmayan orucların (qəza orucu, vaxtı müəyyən olmayan nəzir orucu kimi) niyyətinin vaxtı gecənin əvvəlindən sabahkı günün zöhr azanına qədərdir.

Müstəhəb orucların niyyətinin vaxtı

53. Mükəlləf gün ərzində hər vaxt müstəhəb oruc tutmaq qərarına gələrsə, oruc niyyəti edə bilər və orucu düzgündür. Bu şərtlə ki, oruc niyyəti etdiyi anadək orucu batil edən işlərdən heç birini yerinə yetirməmiş olmalıdır.

Oruc niyyətini təxirə salmaq

54. Oruc – fəcrin əvvəlindən (sübh azanından) etibarən başlandığına görə, oruc niyyəti də bu andan sonraya qalmamalıdır. Yaxşı olar ki, fəcr çatmamışdan qabaq mükəlləf oruc niyyəti etsin.

57. Əgər bir şəxs Ramazan ayının orucundan başqa bir vacib oruc (məsələn, kəffarə orucu və ya qəza orucu) üçün zöhr azanına yaxın bir vaxtadək niyyət etməyibdirsə, bu təqdirdə əgər həmin vaxtadək orucu batil edən işləri yerinə yetirməyibsə, oruc niyyəti edə bilər və orucu düzgündür.

58. Əgər bir şəxs isticari orucun(1) niyyətini bilərəkdən və ya səhvən zöhr azanından öncəyə qədər təxirə salsa, həmin günün orucu – orucu batil edən işləri yerinə yetirmədiyi təqdirdə – düzgündürmü?

Cavab: İsticar məsələsində icarə ünvanında görülən iş icarə əsasında və həmçinin möminlər arasındakı adi qaydalar əsasında yerinə yetirilməlidir. Əks təqdirdə düzgün deyldir və icarə məbləği müstəcirin haqqı deyildir.

(1) Razılaşma əsasında, müəyyən məbləğ ödənilməklə mərhumun qəza orucunun tutulması.

Müstəhəb orucların niyyətinin vaxtı

Mükəlləfin boynunda qəza orucu olduğu halda müstəhəb orucu tutmasının hökmü

59. Boynunda Ramazan ayının orucunun qəzası olan şəxs müstəhəb oruc tuta bilməz. Əgər belə bir şəxs qəza orucunun olduğunu unudub müstəhəb oruc tutsa, bu təqdirdə əgər gün ərzində bunu xatırlayarsa, onun müstəhəb orucu batildir. Amma əgər zöhrdən qabaq bunu xatırlayarsa, Ramazan ayının orucunun qəzası niyyətini edə bilər və orucu düzgündür.

60. Bir şəxsin boynunda vacib oruc vardır və o, bu orucu tutmaq niyyətindədir. Amma hansısa bir səbəbə görə bu orucu tuta bilmir. Məsələn, günəş çıxdıqdan sonra səfərə çıxır və zöhrdən sonra qayıdır. Yolda da orucu batil edən işlərdən heç birini yerinə yetirmir. Amma vacib orucun niyyətinin vaxtı artıq ötmüşdür. Həmin gün isə oruc tutmağın müstəhəb olduğu günlərdən biridir. Bu şəxs müstəhəb oruc niyyətini edə bilərmi, yoxsa edə bilməz?

Cavab: Əgər bu şəxsin boynunda Ramazan ayının orucunun qəzası varsa, vacib orucun niyyətinin vaxtı ötmüş olsa belə, onun müstəhəb oruc niyyətini etməsi düzgün deyildir.

Müstəhəb orucun qəza orucun yerinə hesab olunması

61. Bir şəxs qəza orucunun hesabını bilmir və qəza orucunun olması ehtimalı ilə yanaşı müstəhəb oruc tutur. Əgər bu şəxs qəza orucunun olmadığını qəbul edərsə, onun tutduğu müstəhəb oruc qəza orucunun yerinə hesab olunurmu?

Cavab: Müstəhəb oruc niyyəti ilə tutduğu oruclar onun boynunda olan qəza orucların yerinə hesab olunmur.

62. Əgər ata vəfat etsə və onun boynunda qəza orucu olsa, böyük oğul müstəhəb oruc tuta bilərmi?

Cavab: Maneəsi yoxdur.

Müstəhəb oruca başqa niyyətləri əlavə etmək

63. Savab əldə etmək üçün oruc niyyəti etdim və eyni vaxtda bir neçə kiloqram arıqlamağı qərara aldım. Bu qərarım orucu daha rəğbətlə tutmağa bais oldu. Mənim niyyətim düzgün və xalis idimi, yoxsa Allaha xatir deyildi?

Cavab: Əgər sizin əsas niyyətiniz oruc tutmaq olubdursa və sonrakı qərarınız əsas niyyətdə yer almayıbdırsa, bunun maneəsi yoxdur. Əks təqdirdə, oruc batildir. Həmçinin əgər bu niyyətlərdən hər biri tərkibə daxil olan bir niyyət olarsa, oruc batildir.

Niyyətə aid müxtəlif məsələlər

Sübh azanına qədər yatıb qalmaq

64. Əgər bir şəxs gecənin əvvəlində sabah oruc tutacağını niyyət etsə və sonra yatıb sübh azanından sonraya qədər oyanmasa, yaxud bir işlə məşğul olub sübhün çatdığından xəbərsiz olsa və sübhdən sonra sübhün çatdığını başa düşsə, onun orucu düzgündür.

65. Gecə oruc tutmağı niyyət etdim, amma səhər çağı oyanmadım. Günəş çıxana yaxın yuxudan oyandım. Mənim orucum düzgündürmü?

Cavab: Oruc düzgündür.

Müxtəlif orucları bir yerdə niyyət etmək

66. Əgər mənim boynumda vacib nəzir orucu və mübarək Ramazan ayının orucunun qəzası varsa, Rəsulallahın (s) mövlud günündə orucu tutmaq istəsəm, orucun düzgünlüyü üçün niyyəti müəyyən etmək lazımdırmı?

Cavab: Əgər sizin boynunuzda qəza orucu, kəffarə orucu, nəzir orucu və bu kimi müxtəlif oruclar varsa, niyyətdə hansı orucu tutmaq istədiyinizi müəyyən etməyiniz vacibdir. Boynunda mübarək Ramazan ayının orucunun qəzası olan şəxsin müstəhəb oruc tutması düzgün deyildir.

Xəstənin Ramazan ayının gündüzündə sağalması

67. Ramazan ayının gündüzündə sağalan xəstənin oruc niyyəti necə olacaqdır?

Cavab: Əgər xəstə şəxs Ramazan ayının gündüzündə sağalarsa, oruc niyyəti etməsi və həmin günü oruc tutması vacib deyldir. Amma əgər o, zöhrdən qabaq sağalarsa və orucu batil edən bir işi yerinə yetirməmiş olarsa, ehtiyat-müstəhəbə görə oruc niyyəti etməli və oruc tutmalıdır. Ramazan ayından sonra isə həmin günün orucunun qəzasını tutmalıdır.

“Şəkk günü”ndə niyyət etmək

68. Əgər mükəlləf bu günün Şaban ayının axırı, yoxsa Ramazan ayının əvvəli olduğuna şəkk etsə, hansı niyyət ilə oruc tutmalıdır?

Cavab: Əgər mükəlləf bu günün Şaban ayının axırı, yoxsa Ramazan ayının əvvəli olduğuna şəkk etsə, oruc tutması vacib deyildir. Əgər o, oruc tutmaq istəsə, Ramazan ayının orucunun niyyətini edə bilməz. Şaban ayının axırının müstəhəb orucunun, yaxud qəza orucunun, yaxud da bu kimi orucların niyyətini edib oruc tuta bilər. Əgər sonradan həmin günün Ramazan ayından olduğu məlum olarsa, tutduğu oruc Ramazan ayının orucu hesab olunacaqdır və onun qəzasını tutmaq lazım deyldir. Əgər mükəlləf gün əsnasında Ramazan ayının olduğunu başa düşərsə, həmin andan etibarən Ramazan ayının orucunun niyyətini etməlidir.

“Ma fiz-zimmə” orucu

69. Əgər bir şəxs boynunda qəza orucunun olduğunun bilmirsə, “ma fiz-zimmə” orucu tuta bilərmi? Yəni belə niyyət edə bilərmi ki, əgər qəza orucum varsa, qəza orucu hesab olunsun, yox əgər qəza orucum yoxdursa, müstəhəb oruc hesab olunsun?

Cavab: Bəli, bu niyyət ilə oruc tuta bilər.

70. Mən təxminən bir ay bu niyyətlə oruc tutdum ki, əgər boynumda qəza orucum varsa, qəza orucu hesab olunsun və əgər boynumda oruc yoxdursa, sırf “qürbətən iləllah” hesab olunsun. Əgər boynumda qəza oruclarım varsa, tutduğum bu bir ay oruc qəza orucu hesab olunurmı?

Cavab: Əgər oruc tutduğunuz vaxt şəri baxımdan boynunuza düşən vəzifə – istər qəza orucu, istərsə də müstəhəb

oruc – niyyəti ilə oruc tutmusunuzsa və boynunuzda qəza orucu olubsa, qəza orucu hesab olunacaqdır.

İsticari orucu tutduqdan sonra niyyəti dəyişdirmək

71. Əgər “mucir”(1) isticari orucda(2) razılaşdırılmış məbləği ödəməkdən boyun qaçırarsa, “müstəcir”(3) tutduğu orucu və ya qıldığı namazı başqa şəxsə həvalə edə bilərmi? Yəni tutduğu orucların və ya qıldığı namazların başqa bir şəxsin qəzaları hesab olunmasını niyyət edə bilərmi? Ümumiyyətlə, orucu kimin niyyətilə tutduğunu “müstəcir” əvvəlcədən müəyyən etməlidir, yoxsa namazı qılıb və ya orucu tutub qurtardıqdan sonra şəxsi müəyyən edə bilər?

Cavab: Niyyət əvvəlcədən müəyyən edilməlidir. Bir şəxsin niyyətilə yerinə yetirilən əməl başqasına həvalə edilə bilməz. Sualda deyilənlərə əsasən, “mənub ənh”in(4) boynundan şəri borcu götürülmüşdür və “mucir” öz borcunu ödəməlidir.

(1) İcarə verən şəxs
(2) İsticari oruc - bir şəxsin (bu şəxs “müstəcir” adlanır) müəyyən məbləğ qarşılığında mərhumun qəza orucunu tutmasıdır.
(3) İcarə alan şəxs
(4) “Mənub ənh” o şəxsə deyilir ki, hansısa bir əməl onun əvəzinə yerinə yetirilir.

Niyyətin davam etməsi

Gün əsnasında oruc niyyətindən dönmək

72. Mən Ramazan ayının gündüzündə şeytanın vəsvəsələrinə uyub orucumu batil etmək qərarına gəldim, amma orucu batil edən bir işi yerinə yetirməmişdən qabaq qərarımdan döndüm. Mənim orucumun hökmü nədir? Əgər Ramazan ayının orucundan başqa bir orucda bu məsələ qarşıya çıxarsa, orucun hökmü nədir?

Cavab: Əgər bir şəxs Ramazan ayının orucunda günərzində oruc tutmaq niyyətindən dönərsə, belə ki, artıq orucu davam edirmək niyyətində olmazsa, bu şəxsin orucu batildir və yenidən oruc tutmaq qərarına gəlməsinin bir faydası yoxdur. Əlbəttə, o, məğrib azanına qədər orucu batil edən işlərdən çəkinməlidir. Amma əgər tərəddüd edərsə, belə ki, hələ orucunu batil etmək qərarına gəlməyibdirsə, yaxud orucu batil edən bir işi yerinə yetirməyi qərara alsa da, hələ bu işi yerinə yetirməyibdirsə, bu iki halda onun orucunun düzgünlüyü məhəlli-işkaldır. Ehtiyat-vacibə görə o, orucunu başa çatdırmalı və sonradan həmin günün orucunun qəzasını tutmalıdır. Vaxtı müəyyən olan hər bir vacib oruc (məsələn, vaxtı müəyyən edilən nəzir orucu) eyni hökmü daşıyır.

73. Mən tutduğum müstəhəb orucu və ya vaxtı müəyyən olmayan vacib orucu batil etmək qərarına gəldim, amma orucu batil edən bir işi yerinə yetirməmişdən qabaq bu qərarımdan döndüm. Mənim orucumun hökmü nədir?

Cavab: Müstəhəb oruclarda, həmçinin vaxtı müəyyən olmayan vacib oruclarda əgər oruc tutan şəxs orucunu pozmaq qərarına gələrsə, amma orucu batil edən bir iş yerinə yetirməzsə və sonra zöhrdən qabaq (müstəhəb oruclarda qürubdan qabaq) yenidən oruc niyyəti edərsə, onun orucu düzgündür.

Orucu batil edən işlər

Orucu batil edən işlər

74. Doqquz iş orucu batil edir:

1- Yeyib-içmək; 2- Cinsi əlaqədə olmaq; 3- Mənin(1) çölə çıxmasına bais olan bir iş görmək (istimna etmək(2)); 4- Allahın, Peyğəmbərin (s) və İmamların (ə) adından yalan demək; 5- Boğaza qatı toz çatdırmaq; 6- Başı bütünlüklə suya salmaq; 7- Sübh azanına qədər cənabətli, heyzli və ya nifaslı qalmaq; 8- Maye şəklində olan şeylərlə imalə etmək; 9- Bilərəkdən qusma.

İrəlidə gələn məsələlərdə bu doqquz işin hökmləri bəyan ediləcəkdir.(Dördüncü, beşinci və altıncı bəndlərdə qeyd edilən işlər ehtiyat-vacibə görə orucu batil edir.)

(1) Sperma

(2) Masturbasiya

Yeyib-içmək

Yeyib-içməyin meyarı

75. Əgər oruc tutmuş şəxs bilərəkdən bir şey yesə və ya içsə, onun orucu batil olur: istər onun yediyi və ya içdiyi şey yeyilən və içilən adi bir şey olsun, istər kağız, parça və bu kimi yeyilməyən bir şey olsun, istərsə də az və ya çox olsun, məsələn, çox kiçik bir damla su içsin və ya çörəyin kiçik qırıntısını yesin.

Yarışda iştirak etmək səbəbilə orucu yemək

76. Futbol oyununda iştirak edən oyunçu çox aclıq və susuzluq çəkdiyinə görə orucunu yeyə bilərmi?

Cavab:Sualda deyilənlər orucu iftar etmək üçün səbəb hesab olunmur.

Susuzluq və aclıq səbəbilə orucu iftar etmək

77. Əgər Ramazan ayında oruc tutan şəxs bir gün sahur yemək üçün oyana bilməsə və buna görə də qüruba qədər orucunu davam etdirə bilməsə, belə ki, gün əsnasında onun üçün bir hadisə baş versə və o da orucunu iftar etsə, bu şəxsə orucun kəffarəsi vacib olurmu?

Cavab: Əgər bu şəxs orucunu o həddə qədər davam etdirsə ki, susuzluq və aclıq səbəbilə oruc onun üçün böyük əziyyətəçevrilsə və buna görə də orucunu iftar etsə, təkcə orucun qəzası ona vacib olur və kəffarə ona vacib olmur.

Sübh azanından sonra sahur(1) yemək

78. Əgər Ramazan ayında sahuryemək üçün oyansaq və yemək yesək, amma sonradan başa düşsək ki, yemək yediyimiz vaxt azan artıq verilmişdi, orucumuz qəbuldurmu, yoxsa həmin günün orucunun qəzasını tutmalıyıq?

Cavab: Əgər sübh olub-olmadığını araşdırsalar və hələ sübh olmadığına yəqin edib yemək yesələr, amma sonradan yemək yedikləri vaxt sübh olduğunu başa düşsələr, oruc düzgündür və qəzası yoxdur.

79. Nəzərə alsaq ki, hal-hazırda gündəlik işləri planlaşdırmaq üçün saatdan istifadə edilir və hündür binalara görə adətən şəhərlərdə fəcrin doğduğunu görmək mümkün deyildir, bir şəxs öz saatına etibar edərək saata baxır və saat dördü göstərdiyi üçün sahur yeyir. Sonradan məlum olur ki, saatın batareyası qurtarmışdır və əslində, o,sahur yediyi vaxt saat beşə on beş dəqiqə işləyirmiş. Bu şəxsin orucu düzgündürmü? Həmçinin əgər bir şəxs saatı səhv gördüyü üçün – saat beş olduğu halda dörd olaraq gördüyü üçün – sahur yeysə və sonradan səhvini başa düşsə,yəni fəcr doğduqdan sonra sahur yediyini başa düşsə, onun orucu düzgündürmü?

Cavab:Hər iki halda əgər şəxs saata etibar edərək gecə olduğuna əmin olsa, amma sonradan bunun əksi məlum olsa, mübarək Ramazan ayında onun orucu düzgündür.

80. Əgər bir şəxs yemək yediyi vaxt sübh olduğunu başa düşsə, nə etməlidir?

Cavab: Ağzındakı tikəni çölə çıxarmalıdır. Əgər bilərəkdən tikəni udsa, orucu batildir.

Oruc halında mədədən ağıza gələn maddələrin hökmü

81. Bəzən insanın ağzı turş olur, yəni mədəsindən ağzınadadı turş olan maddələr gəlir. Əgər oruc tutmuş şəxsin ağzı turşlanarsa və o, bu maddəni səhvən və ya bilərəkdən udarsa, onun orucunun hökmü nədir?

Cavab: Əgər bu maddə ağız boşluğuna gəldikdən sonra oruc tutmuş şəxs onu bilərəkdən və ixtiyarı olaraq udsa, orucu batildir. Amma əgər səhvən udsa, orucu batil olmur.

Baş və sinədən gələn bəlğəmioruc halında udmaq

82. Zökəm xəstəliyinə tutulduğum üçün başımdan və boğazımdan ağzıma gələn bəlğəmi çölə tüpürmək əvəzinə uddum. Görəsən, mənim orucum düzgündürmü, yoxsa düzgün deyildir? Mübarək Ramazan ayının bəzi günlərində

qohumlardan birinin evində qonaq qalmışdım. Bir tərəfdən zökəm xəstəliyinə tutulduğum, digər tərəfdən də xəcalət çəkdiyim üçün vacib qüsl əvəzinə torpaqla təyəmmüm etdim və zöhrə qədər qüsl etmədim. Bu iş bir neçə gün təkrarlandı. Həmin günlərdə mənim orucum düzgündürmü?

Cavab: Baş və sinədən gələn bəlğəmi udmaq oruca xələl gətirmir. Amma əgər bəlğəm ağız boşluğuna gələrsə, ehtiyat-vacibə görə onu udmaqdan çəkinmək lazımdır. Oruc tutmaq istədiyiniz gün fəcr doğmamışdan qabaq cənabət qüslünü yerinə yetirməməyiniz və qüsl əvəzinə təyəmmüm etməyinizə gəlincə, əgər bu işinizin şəri üzrü olsa, yaxud vaxtın darlığına görə təyəmmüm etsəniz, orucun batil olmasına səbəb olmur və təyəmmüm ilə sizin tutduğunuz oruc düzgündür. Əks təqdirdə, həmin günlərdə sizin tutduğunuz oruc batildir.

Dişlərin arasında qalan yemək qırıntısını udmaq

83. Ramazan ayında oruc tutduğum bir gün dişlərimi fırçalamamışdım. Dişlərimin arasında qalan yemək qırıntılarını bilərəkdən udmasam da, bunlar öz-özünə boğazıma getdi. Həmin günün orucunun qəzasını tutmaq mənə vacib olurmu?

Cavab: Əgər dişlərinizin arasında yemək qırıntılarının qaldığına və ya bunların boğazınıza getdiyinə yəqinliyiniz yoxdursa, bu yemək qırıntılarının boğazınıza getməsi də bilərəkdən və ixtiyari olmayıbdırsa, orucun qəzasını tutmaq sizə vacib deyildir.

Dişlərin arasını təmizləmək

84. Əgər bir şəxs sabahısı gün oruc tutmaq niyyətindədirsə, yemək yedikdən sonra dişlərinin arasını təmizləməsinin hökmü nədir?

Cavab: Oruc tutmaq niyyətində olan şəxsin yemək yedikdən sonra dişlərinin arasını təmizləməsi vacib deyildir.Hətta əgər o,ehtimal versə ki, dişlərinin arasını təmizləməməkdişlərin arasında qalan yemək qırıntılarının boğazına gedəcəyinə bais olacaqdır,yenə də dişlərinin arasını təmizləməsi vacib deyildir. Bu təqdirdə, əgər dişlərin arasında qalan yemək qırıntıları səhvən boğazına gedərsə, onun orucu batil olmur. Amma əgər onun yəqinliyi olsa ki, dişlərinin arasını təmizləməmək dişlərin arasında qalan yemək qırıntılarının boğazına getməsinə bais olacaqdır, dişlərinin arasını təmizləməsi vacibdir. Bu təqdirdə, əgər o, dişlərinin arasını təmizləməzsə və yemək qırıntıları boğazına getsə (ehtiyat-vacibə görə) orucu batil olur.

Dişləri diş məcunu ilə fırçalamaq

85. Oruc halında diş məcunu ilə dişləri fırçalamağın maneəsi varmı?

Cavab: Maneəsi yoxdur. Amma diş məcunu və su ilə qarışmış ağız suyununboğaza getməsinin qarşısı alınmalıdır.

Diş sapından istifadə etmək

86. Oruc halında diş sapından istifadə etməyin hökmü nədir? Çünki diş sapının tərkibində florayd və nanə ekstraktı vardır.

Cavab: Əgər oruc tutmuş şəxs ağız suyunu udmazsa, maneəsi yoxdur.

Saqqız çeynəmək və buxur(2) sormaq

87. Oruc tutmuş şəxsin saqqız çeynəməsi və buxur sormasının hökmü nədir?

Cavab: Əgər (saqqız çeynədikdə) boğazına heç nə getməzsə, maneəsi yoxdur. Amma buxur sormaq orucu batil edir.

Başqa bir şəxsin israrı ilə orucu iftar etmək

88. Əgər mən oruc tutsam və anam məni yeyib-içməyə vadar etsə, orucum batil olurmu?

Cavab: Yeyib-içmək orucu batil edir, baxmayaraq ki, bunu bir başqasının istəyi və israrı ilə etmisən.

Məcburiyyət altında orucu batil edən işləri yerinə yetirmək

89. Əgər oruc tutmuş şəxsin ağzına zorla bir şey qoysalar və ya onun başını zorla suya salsalar, orucu batil olurmu? Əgər oruc tutmuş şəxsi orucunu batil etməyə vadar etsələr – məsələn, ona desələr ki, əgər orucunu iftar etməsən, özünə və ya malına ziyan yetirəcəyik, o da ziyanı dəf etməkdən ötrü yemək yesə – orucu düzgündürmü?

Cavab: Əgər oruc tutmuş şəxsin boğazından qeyri-ixtiyari olaraq bir şey keçsə və ya başı zorla suya salınsa, orucu batil olmur. Amma əgər başqası tərəfindən məcbur edildiyinə görə onun özü orucu batil edən bir işi yerinə yetirsə, orucu batil olur.

Orucu batil edən işi səhvən yerinə yetirmək

90. Əgər bir şəxs oruc tutduğunu unudub bir şey yesə, oruc tutduğunu ona xatırlatmaq vacibdirmi?

Cavab: Xeyr, oruc tutduğunu ona xatırlatmaq vacib deyildir.

Oruc tutmuş pilot və stüardessanın su içməsinə zərurət yaranması

91. Təyyarə yüksək hündürlükdə uçduğuna,uzun məsafə qət etdiyinə və uçuş təxminən iki saat yarım-üç saat davam etdiyinə görə pilot və stüardessa öz normal vəziyyətlərini saxlamaqdan ötrü hər iyirmi dəqiqədən bir su içməlidirlər. Belə olduğu təqdirdə, mübarək Ramazan ayında orucun qəzası və kəffarəsi onlara vacib olurmu?

Cavab:Əgər orucun onlara zərəri olarsa, su içərək iftar etmələrinə icazə verilir. Sonradan orucun qəzasını tutmalıdırlar, amma kəffarə onlara vacib olmur.

Oruc halında su ilə ağızı yaxalamaq

92. Əgər oruc tutmuş şəxs susuzluğunu aradan aparmaqdan ötrü ağzını su ilə yaxalayıb, sonra suyu çölə töksə, belə ki, suyun bir damlası belə boğazından keçməsə, bunun hökmü nədir?

Cavab: Sualda deyilənlərə əsasən, bunun maneəsi yoxdur.

93. Ramazan ayında oruc tutmuş şəxs ağzını su ilə yaxaladıqdan sonra – istər dəstəmaz üçün, istərsə də başqa məqsədlə – ağzının suyunu üç dəfə çölə tüpürməsi vacibdirmi?

Cavab: Belə bir iş vacib deyildir. Vacib olan, suyu ağızdan xaric etməkdir. Əgər suyun ağzından xaric olduğuna yəqinliyi olsa, başqa bir iş ona vacib olmur.

94. Oruc tutmuş şəxsin ağzını yaxalamasının hökmü nədir?

Cavab: Əgər ağzını yaxalayarkən su boğazından keçərsə, orucu batil olur.

Oruc halında dili ağızdan çıxarmaq

95. Ağız suyunu ağızdan çıxarmaq və yenidən ağıza qaytarıb udmaq orucu batil edir. Dili çölə çıxarmaq da eyni hökmü daşıyırmı? Əgər bir şəxs hansısa bir səbəbə görə dilini çölə çıxararsa, orucunun batil olmasına bais olurmu?

Cavab: Sırf bu iş orucun düzgünlüyünə xələl gətirmir.

Oruc halında ağıza şəkər tozunun daxil olduğunu hiss etmək

96. Əgər Ramazan ayında qənd və şəkər tozu fabrikinə getdikdə ağzımıza şəkər tozu daxil olduğunu hiss etsək, orucumuz batildirmi?

Cavab: Ağıza şəkər tozunun daxil olmasını hiss etmək, hətta ağıza şəkər tozu daxil olsa belə onu udmamaq, orucun düzgünlüyünə xələl gətirmir.

(1) Obaşdanlıq – sübh azanından qabaq yemək
(2) Yandırıldıqda ətir saçan qətran

Cinsi əlaqə

Oruc tutmuş şəxsin cinsi əlaqədə olması

97. Oruc tuta bilməyən kişi oruc tutmuş qadını ilə cinsi əlaqədə ola bilərmi?

Cavab: Xeyr, icazə verilmir.

Oruc tutmuş kişinin öz qadını ilə mazaqlaşması

98. Əgər Ramazan ayının gündüzündə bir kişi öz qadını ilə mazaqlaşsa, orucuna xələl gələrmi?

Cavab: Əgər məninin xaric olmasına bais olmazsa, oruca xələl gətirmir.

Oruc tutmuş ər və arvadın cinsi əlaqədə olmaları

99. Əgər Ramazan ayında bir kişi öz qadını ilə cinsi əlaqədə olsa və qadın da cinsi əlaqəyə razı olsa, onların hökmü nədir?

Cavab: Onların hər ikisi orucu bilərəkdən iftar etmişdir və orucun qəzasından əlavə, kəffarəsi də hər ikisinə vacibdir.

Oruc tutduğunu unudub cinsi əlaqədə olan şəxs

100. Əgər bir şəxs oruc tutduğunu unudub cinsi əlaqədə olsa, orucuna xələl gəlirmi?

Cavab: Əgər bir şəxs oruc tutduğunu unudaraq cinsi əlaqədə olsa, orucu batil olmur. Amma oruc olduğu yadına düşən an cinsi əlaqədən ayrılmalıdır. Əks təqdirdə, orucu batildir.

Sübh azanına qədər cənabətli qalmaq

101. Ramazan ayının gecəsində boynuna cənabət qüslü gələn şəxs sübh azanı olmamış qüsl etməlidir. Əgər cənabətli şəxs sübh azanına qədər bilərəkdən qüsl etməzsə, orucu batildir. Bu hökm, Ramazan ayının orucunun qəzasına – hətta bilərəkdən olmasa da – aiddir.

102. Əgər Ramazan ayının gecəsində bir şəxsin boynuna cənabət qüslü gəlsə və sübh azanına qədər bilmədən qüsl etməsə – məsələn, yuxuda ikən boynuna cənabət qüslü gəlsə və sübh azanından sonra yuxudan oyansa – onun orucu düzgündür.

103. Əgər oyaq ikən bir şəxsin boynuna cənabət qüslü gəlsə, yaxud yuxuda ikən boynuna cənabət qüslü gəldikdən sonra oyansa və bilsə ki, əgər yatsa, qüsl etmək üçün sübh azanından qabaq oyana bilməyəcəkdir, qüsl etməmiş yatmasına icazə verilmir. Əgər yatsa və sübh azanından qabaq qüsl etməsə, orucu batildir. Amma əgər sübh azanından qabaq oyanacağını ehtimal versə və qüsl etmək niyyətində olsa, lakin yuxudan oyanmasa, orucu düzgündür. Amma əgər yenidən yatsa və sübh azanına qədər oyanmasa, həmin günün orucunun qəzasını tutmalıdır.

104. Əgər Ramazan ayının gecəsində boynunda qüslü olan bir şəxs vaxtın darlığına, yaxud suyun ziyanlı olmasına, yaxud da bu kimi başqa səbələrə görə qüsl edə bilməzsə, qüsl əvəzinə təyəmmüm etməlidir.

105. Əgər oruc tutmuş şəxsin boynuna yuxuda ikən cənabət qüslü gəlsə, orucu batil olmur.

106. Əgər Ramazan ayında və ya başqa günlərdə oruc tutmuş şəxsin boynuna yuxuda ikən cənabət qüslü gəlsə, oyandıqdan sonra dərhal qüsl etməsi vacib deyildir.

107. Heyzdən və ya nifasdan paklanan və qüsl etməli olan qadın əgər Ramazan ayında sübh azanına qədər qüsl etməzsə, orucu batildir.

108. Əgər oruc tutmuş qadın heyz və ya nifas qanı görsə, orucu batil olur.

Qüsl etməyinmümkün olmadığı halda Ramazan ayının gecəsində şəxsin özünü cənabətli etməsi

109. İxtiyarında su olmadığına görə, yaxud vaxtın darlığından başqa bir sıra üzrlərə görə cənabət qüslü edə bilməyən bir şəxsin mübarək Ramazan ayının gecələrində halal yol ilə özünü cənabətli etməsinə icazə verilirmi?

Cavab: Əgər onun vəzifəsi təyəmmüm etməkdirsə və özünü cənabətli etdikdən sonra təyəmmüm etmək üçün kifayət qədər vaxt olarsa, bu işi görməsinə icazə verilir.

Qüslü bilərəkdən təxirə salıb, vaxtın darlığına görə təyəmmüm etmək

110. Əgər bir şəxs sübh azanından qabaq möhtəlim vəziyyətdə(1) yuxudan oyansa, sübh azanına yaxın bir vaxta qədər qüslü təxirə salıb qüsl əvəzinə təyəmmüm edə bilərmi?

Cavab: Əgər o, qüslü təxirə salsa və vaxt daralsa, günah işlətmişdir. Bu təqdirdə, sübh azanından qabaq təyəmmüm etməlidir və orucu düzgündür.

111. Əgər Ramazan ayında cənabətli şəxs bilərəkdən qüsl etməsə və vaxt daralsa, buna görə də təyəmmüm ilə

sübhə daxil olsa, onun orucunun hökmü nədir?
Cavab: Orucu düzgündür. Əlbəttə, sualda deyilənlərə əsasən, günah işlətmişdir.

Sübh azanına qədər cənabət qüslü etməyi unutmaq
112. Əgər oruc tutan şəxs Ramazan ayının orucunda və ya başqa oruclarda cənabət qüslü etməyi unudarsa və gündüz ərzində qüsl etməli olduğu yadına düşərsə, orucunun hökmü nədir?
Cavab: Əgər Ramazan ayında oruc tutan şəxs gecədən sübh azanına qədər cənabət qüslü etməyi unudarsa və cənabətli halda sübhə daxil olarsa, orucu batildir. Əhvətə görə,(2) Ramazan ayının orucunun qəzası da eyni hökmü daşıyır. Amma başqa oruclarda sözügedən səbəbə görə oruc batil olmur.

Özünün möhtəlimolduğunu sübh azanından qabaqbaşa düşməməsi
113. Əgər bir şəxs mübarək Ramazan ayında sübh azanından qabaq yuxudan oyansa və möhtəlim olduğunu başa düşməyib yenidən yatsa və sübh azanı əsnasında yuxudan oyanıb sübh azanından qabaq möhtəlim olduğunu başa düşsə, onun orucunun hökmü nədir?
Cavab: Əgər o, möhtəlim olduğunu sübh azanından qabaq başa düşməzsə, orucu düzgündür.

Ramazan ayının gecəsində şəxsin möhtəlim olduğuna şəkk etməsi
114. Əgər Ramazan ayının gecəsində sübh azanından qabaq mükəlləf möhtəlim olub-olmadığına şəkk etsə, amma öz şəkkinə etina etməyib yenidən yatsa və sübh azanından sonra oyanıb sübh azanından qabaq möhtəlim olduğunu başa düşsə, orucunun hökmü nədir?
Cavab: Əgər o, birinci dəfə yuxudan oyandıqda özündə ehtilamdan bir əsər-əlamət görməzsə, möhtəlim olduğunu yalnız ehtimal versə və onun üçün bir əlamət üzə çıxmazsa, beləcə, sübh azanından sonra yuxudan oyanarsa, onun orucu düzgündür. Baxmayaraq ki, onun sübh azanından qabaq möhtəlim olduğu sonradan məlum olmuşdur.

Sübh azanına qədər cənabətli qaldıqda oruc tutmağın hökmü
115. Əgər bir şəxs bəzi çətinliklərə görə sübh azanına qədər cənabətli qalsa, həmin gün oruc tutmasına icazə verilirmi?
Cavab: Ramazan ayının orucu və onun qəzasından qeyri oruclarda bunun maneəsi yoxdur. Amma Ramazan ayının orucuda bunun geniş izahı vardır. Əgər mükəlləf qüsl etməkdə üzrlüdürsə, təyəmmüm etmək ona vacibdir. Əgər təyəmmüm etməzsə, orucu düzgün deyildir.

116. Cənabətli şəxs sübh azanından sonra cənabət qüslü edib qəza və ya müstəhəb oruc tuta bilərmi?
Cavab: Əgər sübh azanına qədər bilərəkdən cənabətli qalarsa, Ramazan ayının orucu və Ramazan ayının orucunun qəzası düzgün deyildir. Amma əqvaya görə,(3) digər oruclar, xüsusilə də müstəhəb oruclar düzgündür.

Cənabətli şəxsin sübh azanına qədər yatıb qalması
117. Əgər Ramazan ayının gecəsində mükəlləf sübh azanından qabaq yuxudan oyansa və möhtəlim olduğunu görsə, sonra qüsl etmək üçün oyanacağını ümid edib sübh azanından qabaq yenidən yatsa və sübh azanından sonraya qədər yatıb qalsa, oyandıqdan sonra da qüslünü zöhr azanına qədər təxirə salsa və zöhr azanından sonra qüsl edib zöhr və əsr namazlarını qılsa, həmin günün orucunun hökmü nədir?
Cavab: Sualda deyilənlərə əsasən, “birinci yuxu” olduğuna görə orucu düzgündür. Amma əgər o, yenidən yatıb sübhə qədər yuxudan oyanmazsa, həmin günün orucunun qəzasını tutmalıdır.

118. Ötən il Ramazan ayının səhərində (sübhə yaxın vaxtda) cənabət qüslü mənə vacib oldu. Oyandıqda öz-özlüyümdə fikirləşdim ki, vaxt daralana qədər gözləyəcəyəm və vaxt daraldıqda qüsl əvəzinə təyəmmüm edəcəyəm. Amma yuxuya getdim və oyana bilmədim. Mənim vəzifəm nədir?
Cavab: Baxmayaraq ki, vaxtın darlığı səbəbilə üzərinizə düşən vəzifəyə əməl etmək niyyətində olmusunuz, lakin həmin günün orucunun qəzası sizə vacibdir. Bəli, əgər sizin vəzifəniz təyəmmüm olmuş olsaydı və sübh azanından qabaq təyəmmüm edəcəyinizi qərara almağınıza baxmayaraq yatıb yuxuya qalsaydınız, “birinci yuxu” olduğuna görə oruc düzgün olardı.

Vacib qüsl edərkən azan vaxtının çatması

119. Əgər cənabətli şəxs sübh azanına yaxın yuxudan oyansa və qüsl etməklə məşğul olsa, amma qüslü tamamlamamışdan qabaq azan deyilsə, onun orucunun hökmü nədir?

Cavab: Əgər qüsl etmək üçün vaxt olduğunu yəqin edərək və ya ehtimal verərək qüsl etməklə məşğul olsa, kifayət edir və orucu düzgündür.

120. Əgər sübh azanından qabaq qüsl etməyə başlasam, amma qüsl əsnasında sübh azanının vaxtı çatsa (məsələn, baş və boyunu, yaxud bədənin sağ tərəfini yuyarkən sübh azanı olsa), orucum düzgündürmü?

Cavab: Əgər qüsl üçün vaxt olduğuna yəqinliyiniz olsa, orucunuz düzgündür.

Xəcalət ucbatından qüslü yerinə yetirməmək və cənabətli qalmaq

121. Biz soyuq iqlimi olan məntəqədə yaşayırıq və yaşadığımız yerdə də nə hamam, nə də hamamlanmaq üçün bir məkan vardır. Mübarək Ramazan ayında cənabətli vəziyyətdə yuxudan oyandıqda camaatın gözü qarşısında gənclərin tuluq suyu ilə və ya hovuzda qüsl etməsinin eyib sayıldığını, digər tərəfdən də gecə yarısı suyun soyuq olduğunu nəzərə alaraq, sabahısı günün orucu xüsusunda bizim vəzifəmiz nədir? Təyəmmüm etməyimizə icazə verilirmi? Əgər qüsl etməsək, sabahısı günün orucunu iftar etməyin hökmü nədir?

Cavab: Qüsl etməyin çətin olması və ya gecə yarısı gənclərin qüsl etməsinin eyib sayılması şəri üzr hesab olunmur. Qüsl etmək böyük əziyyət hesab olunmayanadək, həmçinin mükəlləfə zərəri olmayanadək, mümkün olan hər bir şəkildə qüsl etmək vacibdir. Amma əgər qüsl etməyin əziyyət və zərəri olarsa, mükəlləf sübh azanından qabaq təyəmmüm etməlidir. Əgər sübh azanından qabaq cənabət qüslü əvəzinə təyəmmüm edərsə, orucu düzgündür. Əks təqdirdə, orucu batildir. Amma gün ərzində imsak etməsi(4) vacibdir.

122. Bir şəxs Ramazan ayında gecənibir evdə qonaq qalır və gecə yarısı möhtəlim olur. Qonaq olduğu və özü ilə paltar götürmədiyi üçün orucdan qaçmaq məqsədilə sübh azanından sonra səfərə çıxmağı qərara alır. Buna görə də sübh azanından sonra heç nə yeyib-içmədən səfər etmək məqsədilə yola düşür. Sual budur ki, bu şəxsin səfər etməyi qərara alması onun boynundan kəffarənin götürülməsinə bais olurmu, yoxsa bais olmur?

Cavab: Əgər o, cənabətli vəziyyətdə yuxudan oyanarsa və cənabətli olduğuna yəqinliyi olarsa, lakin sübh azanından qabaq qüsl və ya təyəmmüm etməzsə, gecə yarısında sübh olan kimi səfərə çıxacağını qərara alması və ya gündüz vaxtı səfərə çıxması kəffarənin onun boynundan götürülməsi üçün kifayət etmir.

123. Mübarək Ramazan ayının bəzi günlərində qohumlardan birinin evində qalırdım. Zökəm xəstəliyinə tutulduğum, həmçinin xəcalət çəkdiyim üçün vacib qüsl əvəzinə torpaqla təyəmmüm etmək məcburiyyətində qaldım və zöhrə yaxın bir vaxta qədər qüsl etmədim. Bu iş bir neçə gün təkrarlandı. Həmin günlərdə mənim orucum düzgündürmü, yoxsa düzgün deyildir?

Cavab: Oruc tutmaq istədiyiniz gün sübh azanından qabaq cənabət qüslünü tərk etməyiniz və qüsl əvəzinə təyəmmüm etməyiniz əgər şəribir üzrə və ya vaxtın darlığına görə olarsa, orucun batil olmasına bais olmur və təyəmmüm ilə tutduğunuz oruc düzgündür. Əks təqdirdə, həmin günlərdə orucunuz batildir.

(1) Yuxuda cənabətli olmaq

(2) Ehtiyata müvafiq

(3) Fətva deməkdir.

(4) Orucu batil edən işlərdən çəkinməsi

Cənabət qüslünün vacib olduğunu və ya qaydasını bilməmək

Qüslün vacib olduğunu və ya qaydasını bilməyən şəxsin orucu

124. Əgər şəri vəzifə yaşına çatmış bir şəxs (yəni mükəlləf) qüsl etməyin vacib olduğunu və qüslün qaydasını bilməyibsə və şəri vəzifə yaşından təxminən on il keçdikdən sonra təqlid məsələsini, eləcə də qüsl etməyin vacib olduğunu başa düşübsə, onun hökmü nədir? Onun keçmiş namazlar və orucların qəzası xüsusunda vəzifəsi nədir?

Cavab:Cənabətli vəziyyətdə qıldığı namazların qəzası ona vacibdir. Həmçinin əgər cənabətli olduğunu bilibsə, amma oruc tutmaq üçün cənabətli şəxsə qüsl etməyin vacib olduğunu bilməyibsə, orucların qəzası da ona vacibdir.

125. Əgər bir şəxs cənabətli vəziyyətdə bir neçə gün oruc tutubsa və cənabətdən paklanmağın orucun düzgünlüyü şərti olduğunu bilməyibsə, cənabətli vəziyyətdə tutduğu orucların kəffarəsi ona vacibdirmi, yoxsa təkcə orucun qəzası kifayət edir?

Cavab: Sualda deyilənlərə əsasən, orucun qəzası kifayət edir.

126. Bir gənc cahillik edib on dörd yaşından istimna edirmiş və bu səbəblə ondan məni xaric olurmuş. Amma məninin xaric olmasının cənabətə bais olduğunu və namaz və oruc üçün qüsl etməli olduğunu bilməyibmiş. Onun vəzifəsi nədir? Ondan məni xaric olduğuna görə istimna etdiyi vaxtların qüslü ona vacibdirmi? O vaxtdan indiyədək cənabətli vəziyyətdə qıldığı namazlar və tutduğu oruclar batildirmi və onların qəzası vacibdirmi?

Cavab: Əgər indiyədək qüsl etməyibdirsə,ondan neçə dəfə məni xaric olmasından asılı olmayaraq, bir cənabət qüslü etməsi kifayət edir. Cənabətli vəziyyətdə qıldığını yəqinliklə bildiyi bütün namazların qəzasını qılmalıdır. Əgər bu işi Ramazan ayının gecələrində edibsə və bu işin cənabətə bais olduğunu bilməyibsə, onun oruclarının qəzası yoxdur və tutduğu oruclar düzgündür. Amma əgər məninin xaric olduğunu və məninin xaric olmasının cənabətə bais olduğunu bilibsə, qüsl etmək ona vacibdir və cənabətli vəziyyətdə tutduğu bütün orucların qəzasını tutmalıdır.

127. Cinsi əlaqədə olma (cima) büluğun nişanələrindən hesab olunurmu və cinsi əlaqədə olmaq şəri vəzifələrin vacib olmasına səbəb olurmu? Əgər bir şəxs bunu bilməyibsə və bu işin üstündən bir neçə il otübsə, cənabət qüslü ona vacib olurmu? Əgər paklığın şərt olduğu əməlləri – məsələn, namaz və oruc kimi əməlləri – cənabət qüslü etmədən yerinə yetiribsə, həmin əməllər batildirmi və qəzası vacibdirmi?

Cavab:Məni xaric olmadan təkcə cima (cinsi əlaqədə olma) büluğun nişanələrindən deyildir.Amma cinsi əlaqədə olma cənabətə bais olur və həddi-büluğ yaşına (şəri vəzifə yaşına) çatdıqda həmin şəxsin qüsl etməsi vacibdir. Əgər bir şəxsdə büluğun nişanələrindən biri görünməzsə, şəri baxımdan büluğa çatdığına hökm verilmir və şəri vəzifələr onun üzərinə düşmür. Əgər bir şəxs uşaqlıqda cima səbəbilə cənabətli olubsa və büluğ yaşına çatdıqdan sonra cənabət qüslü etmədən namaz qılıb və oruc tutubsa, namazlarını yenidən qılması vacibdir. Amma əgər cənabətli olduğunu bilməyibsə, orucların qəzası vacib deyildir.

Batil qüsl ilə oruc tutmaq

128. Mən cənabət qüslünü bu qaydada yerinə yetirmişəm: əvvəlcə bədənimin sağ tərəfini, sonra baş və boynumu, daha sonra bədənimin sol tərəfini yumuşam. Bu mövzuda sual etmək və araşdırma aparmaqda da səhlənkarlıq etmişəm. Mənin namaz və oruclarımın hökmü nədir?

Cavab: Sualda deyilən qaydada edilən qüsl batildir və mükəlləfin boynunda olan qüslü aradan qaldırmır. Buna görə də belə bir qüsl ilə qılınan namazlar batildir və onların qəzasını qılmaq vacibdir. Amma oruca gəlincə, dediyiniz qaydada etdiyiniz qüslün düzgün olduğuna əmin olduğunuz və bilərəkdən cənabətli qalmadığınız üçün tutduğunuz oruclar düzgündür.

129. Bir şəxs şəri hökmü bilmədiyinə görə bir müddət qüsldə tərtibə riayət etməmişdir. Onun namazının və

orucunun hökmü nədir?

Cavab: Əgər onun etdiyi qüsl şəri baxımdan batil sayılırsa, boynunda qüsl olduğu vəziyyətdə qıldığı namazların qəzasını qılması vacibdir. Amma oruca gəlincə, əgər həmin vaxtlar qüslünün düzgün olduğunu bilibsə, tutduğu oruclar düzgündür.

130. Təxminən iki il öncə "Bir neçə mərcəyi-təqlidin fətvaları" məcmuəsinə müraciət etmişdim və qüsldə bədənin sağ və sol tərəflərinin yuyulmasında tərtibə riayət etmək barəsində Ayətullah Xameneinin fətvası bu məcmuədə belə idi ki, ehtiyat-vacibə görə bu tərtibə riayət olunmalıdır. Mən də bu ehtiyatdan dönüb, sözügedən tərtibi ehtiyat-müstəhəb hesab edən mərcəyi-təqlidin fətvasına müraciət etdim. İndi bilmişəm ki, Ayətullah Xamenei sözügedən tərtibə riaəyət etməyin vacibliyinə fətva veribmiş. Bu iki il ərzində qıldığım namazlar və tutduğum oruclara görə mənim üzərimə düşən vəzifə nədir?

Cavab: Qıldığınız namazlar və tutduğunuz oruclar düzgündür.

Etdiyi cənabət qüsllərindən birinin batil qüsl olduğuna yəqin edən mükəlləfin orucunun hökmü

131. Əgər bir şəxs mübarək Ramazan ayında üç dəfə cənabət qüslü etsə, məsələn, ayın iyirmisi, iyirmi beşi və iyirmi yeddisi cənabət qüslü etsə, amma sonradan həmin qüsllərdən birinin batil olduğuna yəqin etsə, onun qıldığı namazlar və tutduğu orucların hökmü nədir?

Cavab: Tutduğu oruclar düzgündür. Amma ehtiyata görə, həmin müddətdə qıldığı namazlardan o namazların qəzasımükəlləfə vacibdir ki, boynunda bir vəzifə qalmadığına yəqin etsin.

Napak su ilə qüsl edən şəxsin tutduğu orucların hökmü

132. Əgər bir şəxs mübarək Ramazan ayında napak su ilə qüsl etsə və bir həftədən sonra qüsl üçün istifadə etdiyi suyun napak olduğunu başa düşsə, onun bu müddət ərzində qıldığı namazlar və tutduğu orucların hökmü nədir?

Cavab: Namazları batildir və qəzasını qılmaq vacibdir. Amma tutduğu oruclar düzgündür.

Oruc halında məninin xaric olduğuna ehtimal verən cənabətli şəxsin şəri vəzifəsi

133. Bir şəxsin belə bir xəstəliyi vardır ki, müəyyən müddət ərzində idrar damlaları dayanmadan ondan xaric olur. Yəni o, idrar etdikdən sonra bir saat və ya daha artıq bir müddət ərzində ondan idrar damlaları xaric olur. Ramazan ayının bəzi gecələrində o, cənabətli olur və bəzən sübh azanından bir saat əvvəl yuxudan oyansa da, sübh azanından sonra məninin idrar damlaları ilə ondan xaric olduğunu ehtimal verir. Orucu xüsusunda onun vəzifəsi nədir? Oruc vaxtına təharətli daxil olmaq üçün onun vəzifəsi nədir?

Cavab: Əgər sübh azanından qabaq cənabət qüslü etsə və ya qüsl əvəzinə təyəmmüm etsə, orucu düzgündür. Baxmayaraq ki, sübh azanından sonra ondan qeyri-ixtiyari olaraq məni xaric olur.

İstimna

134. Əgər oruc tutan şəxs ondan məni xaric olmasına bais olan bir işi bilərəkdən edərsə, orucu batil olar.

Oruc halında istimna etməyin kəffarəsi

135. Əgər oruc tutan şəxs istimnanın orucu batil etdiyini bilsə, amma bilərəkdən bu işi etsə, ona “cəm kəffarə”(1) vacib olurmu?

Cavab: Əgər bilərəkdən istimna etsə və ondan məni xaric olsa, ona cəm kəffarə vacib olmur. Amma ehtiyat-müstəhəbə görə cəm kəffarə versin.

İstimnaya adət etmək və orucun hökmü

136. Bir şəxs illərdir istər Ramazan ayında, istərsə də qeyri-vaxtlarda istimna etmiş və buna adət etmişdir. Onun namaz və oruclarının hökmü nədir?

Cavab: İstimna birmənalı olaraq haramdır. Əgər istimna edərkən məni xaric olarsa, cənabətə səbəb olur. Əgər bu iş oruc halında Ramazan ayının gündüzündə görülərsə, haramla bilərəkdən iftar etmək hökmündədir. Əgər namaz və orucu cənabətli halda və qüsl və təyəmmüm etmədən yerinə yetiribsə, namaz və orucu batildir, onların qəzasını yerinə yetirmək vacibdir.

Oruc tutmuş şəxsin ehtirası oyadan səhnəyə baxmaqla cənabətli olması

137. Ramazan ayında oruc tutmuş bir şəxs ehtirası oyadan bir səhnəyə baxmış və cənabətli olmuşdur. Buna görə onun orucu batil olurmu?

Cavab: Əgər həmin səhnəyə baxmaqda onun məqsədi özündən məni xaric etmək olubsa, yaxud həmin səhnəyə baxdıqda cənabətli olacağını bilibsə, yaxud da belə səhnələrə baxdıqda, adətən, cənabətli olubdursa, amma buna baxmayaraq bilərəkdən belə səhnələrə baxıb cənabətli olubsa, bilərəkdən cənabətli olmaq hökmündədir. Yəni həm orucun qəzası, həm də kəffarəsi onun boynuna gəlir.

Oruc tutmuş şəxsin naməhrəmlə söhbət etmək nəticəsində cənabətli olması

138. Mübarək Ramazan ayında istimnaya səbəb olacaq bir iş görmədən, yalnız telefonda naməhrəm bir qadınla danışarkən məndə yaranan halət nəticəsində məni mayesinin məndən xaric olduğunu hiss etdim. Bu qadınla danışmaqda məqsədimin ləzzət almaq olmadığını nəzərə alaraq, mənim orucum batildirmi? Əgər batildirsə, orucun kəffarəsi də mənə vacib olurmu, yoxsa vacib olmur?

Cavab: Əgər naməhrəm qadınla söhbət etdikdə sizdən, adətən, məni xaric olmursa və məni sizdən qeyri-iradi olaraq xaric olubsa, orucun batil olmasına
bais olmur və buna görə sizə heç nə (nə orucun qəzası, nə də kəffarəsi) vacib olmur.

Oruc halında möhtəlim olmaq

139. Gündüz vaxtı möhtəlim olmaq (yuxuda ikən məninin xaric olması) orucu batil etmir. Əgər oruc tutmuş şəxs gündüz vaxtı yatdıqda möhtəlim olacağını bilərsə, yuxusunun qarşısını almasına lüzum yoxdur.

140. Əgər oruc tutmuş şəxs məni ondan xaric olduğu bir halda yuxudan oyanarsa, bunun qarşısını alması vacib deyildir.

141. Əgər Ramazan ayında oruc tutmuş şəxs sübh namazından və ya zöhr namazından sonra yatsa və yuxuda qeyri-

iradi olaraq möhtəlim olsa, vəzifəsi nədir? Onun orucu batildirmi?
Cavab: Orucu düzgündür.

Möhtəlim olmuş şəxsin sübh azanından sonra yuxudan oyanması
142. Əgər bir şəxs sübh azanından qabaq və ya sonra yuxuda cənabətli olsa və sübh azanından sonra yuxudan oyansa, hansı vaxtadək qüsl etməlidir?
Cavab: Sualda deyilənlərə əsasən, yuxuda cənabətli olması həmin günün orucuna xələl gətirmir. Amma namaz qılmaq üçün qüsl etməlidir və namaz vaxtına qədər qüslü təxirə sala bilər.

Ramazan ayında sübh azanından sonra möhtəlim olmaq
143. Əgər Ramazan ayında sübh azanından sonra möhtəlim olsam, nə etməliyəm?
Cavab: Oruc düzgündür və zöhr namazı üçün qüsl etməlisiniz.

(1) Yəni bütün kəffarələr – həm 60 gün oruc tutmaq, həm də 60 fəqiri yedirtmək.

Allahın, Peyğəmbərlərin (s) və Məsumların (ə) adından yalan demək

144. Allahın, Peyğəmbərlərin (s)və Məsumların (ə) adından yalan demək ehtiyata görə orucun batil olmasına bais olur. Hətta yalan danışan şəxs sonradan tövbə edib yalan danışdığını etiraf etsə belə, orucu batildir.

Xanım Fatimeyi-Zəhranın (s.ə) adından yalan demək

145. Xanım Fatimeyi-Zəhranın (s.ə) adından yalan demək orucu batil edirmi?
Cavab: Bəli, ehtiyat-vacibə görə orucu batil edir.

“Kisa” hədisini Xanım Fatimeyi-Zəhraya (s.ə) nisbət vermək

146. Xanım Fatimeyi-Zəhradan (s.ə) nəql olunan “Kisa” hədisi mötəbər hədisdirmi? Oruc halında bu hədisi Xanım Fatimeyi-Zəhraya (s.ə) nisbət vermək olarmı?
Cavab: Əgər “Kisa” hədisini nəql edən kitablara istinadən bu hədisi nəql edərək Xanıma (s.ə) nisbət versəniz, maneəsi yoxdur.

Duanın düzgünlüyünə şəkk edərək Ramazan ayında onu oxumaq

147. Hədis mənbələrində “Ramazan ayının hər gününün duası” nəql olunmuşdur. Əgər bir şəxs bu duaların düzgünlüyünə (yəni Məsumlardan (ə) nəql olunub-olunmadığına) şəkk edərsə, onları oxumasının hökmü nədir?
Cavab: Əgər bu dualar onların Məsumlardan (ə) nəql olunduğu və şəriət sahibi tərəfindən bəyənilən əməl olduğu ümidilə oxunarsa, maneəsi yoxdur.

Qatı tozu boğaza çatdırmaq

Oruc tutmuş şəxs qatı tozu – məsələn, torpaqlı yeri süpürərkən qalxan tozu – ehtiyat-vacibə görə udmamalıdır. Həmçinin siqaret tüstüsü və digər tütün məhsullarının tüstüsü ehtiyat-vacibə görə orucu batil edir.

Oruc tutmuş şəxsin toz udması

148. Mən metal mədənində işləyirəm. Hər gün – istər Ramazan ayında, istərsə də başqa aylarda – mədənin daxilində işləmək məcburiyyətindəyəm. İş alətlərindən istifadə edərkən ağzıma toz girir. Mənim vəzifəm nədir? Bu vəziyyətdə mənim orucum düzgündürmü?

Cavab: Oruc tutmuş şəxsin qatı toz udması ehtiyat-vacibə görə orucu batil edir və buna görə də qatı tozu udmaqdan qorunmaq lazımdır. Amma tozun ağız və ya buruna daxil olması və boğaza çatmaması orucu batil etmir.

Siqaret aludəçilərinin orucu

149. Mən siqaret aludəçisiyəm və mübarək Ramazan ayında tünd xasiyyətli olmamağa çalışsam da, bacarmıram. Buna görə ailə üzvlərimi çox incidirəm. Özüm də bu çətin vəziyyətimdən əziyyət çəkirəm. Mənim vəzifəm nədir?

Cavab: Mübarək Ramazan ayının orucu sizə vacibdir və ehtiyat-vacibə görə oruc halında siqaret çəkə bilməzsiniz. Həmçinin heç bir səbəb olmadan

başqaları ilə sərt davrana bilməzsiniz.

150. Siqaret aludəçisi olan və gün ərzində mütləq bir neçə siqaret çəkməli olan şəxs oruc tuta bilərmi və onun orucu düzgündürmü?

Cavab: Ehtiyat-vacibə görə oruc tutmuş şəxs hər növ tütün məhsullarının tüstüsündən qorunmalıdır və məcbur qalmaq orucun vacibliyini aradan qaldırmır.

Tütün məhsullarından və narkotik maddələrdən istifadə etmək

151. Oruc halında siqaret kimi tütün məhsullarından istifadə etməyin hökmü nədir?

Cavab: Ehtiyat-vacibə görə oruc tutmuş şəxs hər növ tütün məhsullarının tüstüsündən, həmçinin burun yolu ilə çəkilən və ya dilin altına qoymaqla sovrulan narkotik maddələrin istifadəsindən çəkinməlidir.

Oruc halında burunotundan istifadə etmək

152. Tütün və başqa otların qarışığından hazırlanan burunotunu bir neçə dəqiqəliyə dilin altına qoymaq və sonra çıxarıb atmaq orucu batil edirmi, yoxsa batil etmir?

Cavab: Ehtiyat-vacibə görə oruc tutmuş şəxs hər növ tütün məhsullarının tüstüsündən, həmçinin burun yolu ilə çəkilən və ya dilin altına qoymaqla sovrulan narkotik maddələrin istifadəsindən çəkinməlidir.

Başı bütünlüklə suya salmaq

153. Əgər oruc tutmuş şəxs bilərəkdən başını bütünlüklə suya salarsa, ehtiyat-vacibə görə orucu batil olar və həmin günün orucunun qəzasını tutmalıdır.

154. Başı bütünlüklə suya saldıqda, istər bədən suyun daxilində olsun, istərsə də bədən suyun daxilində olmasın və təkcə baş suyun daxilində olsun, əvvəlki məsələdə deyilən hökm dəyişmir.

155. Əgər oruc tutmuş şəxs başının yarısını suya daxil etsə və sonra sudan çıxarıb o biri yarısını suya daxil etsə, orucu batil olmur.

156. Əgər başın hamısı suya daxil olmuş olsa, amma saçın müəyyən bir hissəsi sudan çöldə olsa, oruc batil olur.

157. Əgər oruc tutmuş şəxs başının bütünlüklə suya daxil olub-olmadığına şəkk etsə, orucu düzgündür.

158. Əgər oruc tutmuş şəxs qeyri-ixtiyari suya düşsə və başı bütünlüklə suya daxil olsa, orucu batil olmur. Amma başını sudan dərhal çıxarmalıdır. Həmçinin əgər oruc olduğunu unutsa və başını bütünlüklə suya daxil etsə, orucu batil olmur. Amma oruc olduğunu xatırladıqda, başını sudan dərhal çıxarmalıdır.

Başı “muzaf su”ya(1) salmaq

159. Başı muzaf suya salmaq orucu batil edirmi?

Cavab: Başı muzaf suya salmaq orucu batil etmir, amma gülab (qızılgül suyu) istisnadır. Ehtiyat-vacibə görə oruc tutmuş şəxs başını gülaba salmamalıdır.

Dalğıc geyimində suya daxil olmaq

160. Əgər bir şəxs xüsusi bir geyimdə (məsələn, dalğıc geyimində) suya daxil olsa və bədəni əsla islanmasa, orucunun hökmü nədir?

Cavab: Əgər geyim onun başına yapışarsa, orucunun düzgünlüyü məhəlli-işkaldır və ehtiyat-vacibə görə orucun qəzasını tutmalıdır.

Başa su tökmək

161. Əgər oruc tutmuş şəxsin damağından çoxlu qan axsa, orucu batil olurmu? O, qab ilə başına su tökə bilərmi?

Cavab: Əgər damaqdan axan qanı udmazsa, oruc batil olmur. Həmçinin qab ilə başa su tökmək orucun düzgünlüyünə xələl gətirmir.

Oruc tutduğunu unudan şəxsin irtimasi qüsl etməsi

162. Əgər oruc tutmuş şəxs cənabətli olduğunu zöhr azanından qabaq bir vaxtadək başa düşməzsə və başa düşdükdən sonra irtimasi qüsl edərsə, orucu batil olurmu? Əgər qüsl etdikdən sonra oruc halında irtimasi qüsl etdiyini başa düşərsə, orucun qəzası vacib olurmu?

Cavab: Əgər o, oruc olduğunu unudaraq irtimasi qüsl edibsə, qüslü və orucu düzgündür. Orucun qəzası ona vacib olmur.

(1) Muzaf su, “su” deyə adlanmayan və “su” kəlməsinin söz birləşməsi tərkibində istifadə edildiyi sulara deyilir. Məsələn, “meyvə suyu”, “duzlu su”, “gül suyu”.

İmalə etmək

163. Maye şeylərlə imalə etmək* – məcbur olsa və müalicə üçün olsa belə – orucu batil edir.

Qadınların müalicəvi şamlardan istifadə etməsi

164. Bəzi qadın xəstəliklərinin müalicəsi üçün istifadə edilən xüsusi dərmanlar (yağ tərkibli müalicəvi şamlar) vardır və bu dərmanlar bədənin daxilinə qoyulur. Bunlardan istifadə etmək orucun batil olmasına bais olurmu?

Cavab: Bu dərmanlardan istifadə etmək oruca xələl gətirmir.

165. Mən ailəli bir qadınam. Ramazan ayında hamilə idim və oruc tutmaq mənə çətin idi. Məsləhətə görə, mübarək Ramazan ayının əksər günlərində müalicəvi şamlardan istifadə etdim. Bu günlərin orucunun qəzasını tutmalıyammı, yoxsa orucun qəzasını tutmaq lazım deyildir?

Cavab: Əgər müalicəvi şam (maye şəklində deyil) bərk formada olubsa, maneəsi yoxdur və orucun qəzası vacib olmur.

* Ğait yolu ilə bədənə xüsusi alətlə maye dərman yeritmək.

Qusma

166. Əgər oruc tutmuş şəxs bilərəkdən qussa – hətta əgər xəstəliyə və ya başqa bir səbəbə görə qusma məcburiyyətində olsa – orucu batil olar. Amma əgər səhvən və ya qeyri-ixtiyari qussa, maneəsi yoxdur.

167. Əgər oruc tutmuş şəxs gəyirdikdə ağzına bir şey gəlsə, onu çölə çıxarmalıdır. Əgər onu qeyri-ixtiyari udsa, orucu düzgündür.

Ürək bulanması zamanı qusma

168. Əgər oruc tutmuş şəxs ürəyi bulandığına görə qussa, orucunun hökmü nədir?

Cavab: Əgər qeyri-ixtiyari qussa, maneəsi yoxdur. Amma əgər ixtiyari olaraq qussa, orucu batildir.

Orucu batil edən işlərin bir sıra hökmləri

169. Mükəlləf orucu batil edən işləri (yeyib-içmək və s.) bilərəkdən və ixtiyari olaraq gördüyü vaxt orucu batil olur. Amma əgər bilərəkdən və ixtiyari olmazsa – məsələn, ayağı sürüşüb suya batarsa, yaxud oruc olduğunu unudub yemək yeyərsə, yaxud onun boğazına zorla nə isə tökərlərsə – orucu batil olmur.

170. Əgər oruc tutmuş şəxsi yemək yeməyə məcbur etsələr – məsələn, ona desələr ki, əgər yemək yeməsən, canına və ya malına ziyan yetirəcəyik – və o da ziyanın qarşısını almaqdan ötrü özü yemək yesə, orucu batil olar.

171. Əgər oruc tutmuş şəxs orucu batil edən işlərdən birini səhvən görsə və sonra orucunun batil olduğunu düşünüb bu işlərdən birini bilərəkdən görsə, orucu batil olar.

Oruc halında ətirdən istifadə etmək

172. Ramazan ayında oruc tutmuş şəxsin ətirdən istifadə etməsinin hökmü nədir?
Cavab: Oruc tutmuş şəxsin ətirdən istifadə etməsi müstəhəbdir. Amma ətirli bitkiləri iyləməsi məkruhdur.

Həkimin qadağası

Həkimin oruc tutmağı qadağan etməsinin meyarı

173. Əgər həkim bir şəxsə oruc tutmağı qadağan etsə, bəzi həkimlərin şəri məsələləri bilmədiklərini nəzərə alaraq, həkimin sözünə əməl etmək vacibdirmi?

Cavab: Əgər həkimin sözündən mükəlləfdə orucun ona zərəri olduğuna yəqinlik yaransa, yaxud həkimin sözündən və ya başqa bir məntiqi əsasla mükəlləfdə orucun ona zərəri olacağından qorxu yaransa, oruc tutmaq ona vacib deyildir, hətta oruc tutmasına icazə verilmir.

Etibarlı olmayan həkimin qadağası

174. Şəri məsələlərə əhəmiyyət verməyən bəzi həkimlər orucun zərəri olacağını əsas götürüb xəstələrə oruc tutmağı qadağan edirlər. Belə həkimlərin sözü höccət (möhkəm və qaneedici dəlil) sayılırmı, yoxsa höccət sayılmır?

Cavab: Əgər həkim etibarlı şəxs olmazsa, habelə onun dedikləri də yəqinlik yaradan sözlər olmazsa və zərər qorxusu yaratmazsa, onun sözünün etibarı yoxdur. Əks təqdirdə isə mükəlləf oruc tutmamalıdır.

Həkim qadağasına rəğmən oruc tutmaq

175. Göz həkimi oruc tutmağı mənə qadağan etmiş və demişdi ki, gözümün xəstəliyinə görə əsla oruc tuta bilmərəm. Amma mən həkimin sözünə etina etməyib oruc tutdum və buna görə də Ramazan ayında xəstəliyimlə əlaqədar çətinliklərlə üzləşdim. Bəzi günlərdə əsr vaxtı gözümdə ağrılar yaranır və mən iki yol arasında qalıram ki, görəsən, orucumu açım, yoxsa qüruba qədər dözüb orucumu açmayım? Sualım budur ki, ümumiyyətlə, oruc tutmaq mənə vacibdirmi? Oruc tutduğum bəzi günlərdə orucu qüruba qədər davam etdirməyə gücümün çatıb-çatmayacağını bimədikdə, orucumu davam etdirməliyəmmi? Mən necə niyyət etməliyəm?

Cavab: Əgər dindar və etibarlı bir həkimin sözündən oruc tutmağın gözünüzə zərərli olduğunu yəqin etsəniz və ya sizdə zərər qorxusu yaransa, oruc tutmaq sizə vacib deyildir, hətta sizə oruc tutmaq olmaz. Zərər qorxusu olduğu təqdirdə, oruc niyyəti etmək düzgün deyildir. Zərər qorxusu olmazsa, oruc niyyəti etməyin maneəsi yoxdur. Amma orucun düzgün olması, oruc tutmağın həqiqətən sizə zərəri olmayacağına bağlıdır.

176. Ötən il mütəxəssis bir həkim mənim böyrəyimi əməliyyat etdi. O, ömrümün axırınadək oruc tutmağı mənə qadağan etdi. Amma hal-hazırda mən özümdə heç bir ağrı və çətinlik hiss etmirəm, hətta normal şəkildə yemək yeyir və su içirəm. Özümdə xəstəliyin heç bir fəsadını hiss etmirəm. Mənim vəzifəm nədir?

Cavab: Əgər oruc tutmağın zərəri olacağından sizdə bir qorxu yaranmırsa və oruc tutmamağa şəri bir dəliliniz də yoxdursa, Ramazan ayının orucunu tutmağınız vacibdir.

Həkimin göstərişi ilə oruc tutmamaq və sonradan orucun zərəri olmadığının üzə çıxması

177. Əgər həkim xəstəyə orucun ona zərəri olduğunu desə və xəstə də oruc tutmasa, amma bir neçə ildən sonra xəstə orucun ona zərəri olmadığını və həkimin səhv diaqnoz qoyduğunu başa düşsə, xəstəyə orucun qəzası və kəffarəsi vacib olurmu?

Cavab: Əgər mütəxəssis və etibarlı bir həkimin sözünə və ya başqa bir mənqiti əsasa görə xəstədə oruc tutmağın ona zərəri olacağına qorxu yaransa və buna görə oruc tutmasa, təkcə orucun qəzası ona vacib olur.

Oruc tutmağın zərəri olacağından yaranan qorxu

Oruc tutmağın zərəri olacağını müəyyən etməyin meyarı

178. Anam ağır xəstədir və atam da bədəninin qüvvətsizliyindən əziyyət çəkir. Buna baxmayaraq, onların hər ikisi oruc tutur və bəzən orucun onların xəstəliklərini ağırlaşdırdığı aydın görünür. Mən indiyədək onları qane edə bilməmişəm ki, heç olmasa, xəstəlikləri ağırlaşdıqda oruc tutmasınlar. Xahiş edirəm ki, onların oruclarının hökmünü mənə açıqlayasınız.

Cavab: Xəstəliyin yaranması və ağırlaşmasına orucun təsir göstərdiyini, həmçinin oruc tutmağa bədənin qüvvəsinin çatmadığını oruc tutan şəxsin özü müəyyən etməlidir. Əgər o, orucun ona zərəri olduğunu bilsə və ya onda zərər qorxusu yaransa, eyni halda oruc tutmaq istəsə, oruc tutmaq ona haramdır.

Zərər qorxusuna görə orucu iftar etmək

179. Əgər bir şəxs tutarlı bir səbəbə görə əlli faiz ehtimal versə ki, oruc ona vacib deyildir və buna görə oruc tutmasa, lakin sonradan orucun ona vacib olduğu məlum olsa, orucun qəzası və kəffarəsi xüsusunda hökmü nədir?

Cavab: Əgər mübarək Ramazan ayının orucunu sadəcə orucun vacib olmaması ehtimalı ilə iftar etsə, sualda deyilənləri nəzərə alaraq, orucun qəzasından əlavə kəffarəsi də ona vacib olur. Amma əgər o, zərər qorxusuna görə iftar etsə və bu qorxunun da məntiqi əsası olsa, orucun kəffarəsi vacib olmur, təkcə qəzası vacib olur.

Xüsusi xəstəlikləri olan xəstələrin orucu

Böyrək xəstələrinin orucu

180. Böyrəyimdə daş əmələ gəldiyinə görə mütəxəssis həkim mənə oruc tutmamağı məsləhət görmüşdür. Amma orucumu iftar etməyə ürəyim gəlmir. Bir və ya üç dəfə bir stəkan su içməklə üzrümün aradan qalxdığını nəzərə alaraq, su içərək orucumu davam etdirə bilərəmmi?

Cavab: Əgər böyrək xəstəliyinin qarşısını almaqdan ötrü gün ərzində su və ya başqa mayelər içməlisinizsə, oruc tutmaq sizə vacib deyildir, hətta oruc tutmağınıza icazə verilmir. Su içdikdə isə oruc batil olur.

Diabet xəstələrinin orucu

181. Şəkər xəstəliyi olan şəxslər hər gün bir və ya iki dəfə insulin iynəsi vurmaq məcburiyyətindədirlər. Onların yeməkləri də gecikməməlidir, çünki bu, qanda şəkərin aşağı düşməsinə və nəticədə, qıcolma vəhuşdan getməyə bais olur. Buna görə də bəzən həkimlər onlara gün ərzində dörd dəfə yemək yeməyi məsləhət görürlər. Xahiş edirəm ki, bu xəstələrin orucu barəsində öz nəzərinizi bəyan edəsiniz.

Cavab: Əgər diabet xəstələri sübh azanından məğrib azanına qədər yeyib-içməməyin onlara zərəri olacağını bilsələr və ya zərəri olacağından qorxsalar, oruc tutmaq onlara vacib deyildir. Hətta oruc tutmalarına icazə verilmir.

Oruc halında həb udmaq

182. Oruc halında təzyiq həbi udmağa icazə verilirmi, yoxsa icazə verilmir?

Cavab: Əgər Ramazan ayında təzyiq həbi udmaq zəruri olarsa, onu udmağın maneəsi yoxdur. Amma həb udduqda, oruc batil olur.

183. Əgər mən və bəzi insanlar bu əqidədə olsaq ki, müalicə məqsədilə həb udmağa yeyib-içmək ünvanı aid olmur, bu əqidəyə müvafiq əməl etməyə icazə verilirmi və oruca xələl gəlirmi?

Cavab: Həb udmaq orucu batil edir.

Ramazan ayında davamlı olaraq dərman qəbul etmək məcbiriyyətində olmaq

184. Əgər bir şəxs xəstədirsə və həkimin göstərişi əsasında gün ərzində üç dəfə həb udmalıdırsa, oruc tuta bilərmi?

Cavab: Oruc tuta biməz.

Süni nəfəs alma

185. Aparat vasitəsilə süni nəfəs alma orucu batil edirmi?

Cavab: Aparat vasitəsilə süni nəfəs alma orucu batil etmir.

Təngnəfəsliyə görə aerozol qablaşdırmada olan dərmandan istifadə etmək

186. Şiddətli təngnəfəsliyi olan xəstələr aerozol qablaşdırmada olan dərmandan istifadə edirlər. Belə ki, bu dərmanı ağıza sıxdıqda maye şəklində olan dərman qaz tozu şəklində ağız yolu ilə xəstənin ağ ciyərlərinə daxil olur və təngnəfəsliyi aradan qaldırır. Bəzən xəstə gün ərzində bu dərmandan bir neçə dəfə istifadə etmək məcburiyyətində olur. Bu dərmandan istifadə edərək oruc tutmaq olarmı? Nəzərə almaq lazımdır ki, bu dərmandan istifadə etmədən oruc tumaq qeyri-mümkün və ya çox çətin olur.

Cavab: Əgər bu vasitə sırf tənəffüs yollarını açmaqdan ötrü istifadə edilirsə, orucu batil etmir.

187. Mən ağ ciyər xəstəsiyəm və mütəmadi olaraq dərmandan istifadə edirəm. Xüsusilə də, xəstəliyim şiddətləndiyi vaxt hökmən dərman qəbul etməliyəm. Mənim qəbul etdiyim dərman aerozol qablaşdırmadadır və təngnəfəsliyim şiddətləndikdə süni tənəffüs aparatından da istifadə edirəm. Mən oruc halında dərmandan istifadə edə bilərəmmi?

Cavab: Əgər bu vasitə sırf tənəffüs yollarını açmaqdan ötrü istifadə edilirsə, orucu batil etmir.

Oruc halında inyeksiya (iynəvurma)

Peyvənd vurdurmaq

188. Oruc halında hepatit peyvəndini vurdurmağın hökmü nədir?

Cavab: Əgər dəri altına vurularsa, maneəsi yoxdur.

Dəri altına iynə vurdurmaq və damara sistem köçürmək

189. Mübarək Ramazan ayında oruc tutmuş şəxsin iynə vurdurması barəsində nəzəriniz nədir?

Cavab: Ehtiyat-vacibə görə oruc tutmuş şəxs dəri altına vurulan qüvvətləndirici və qidalandırıcı iynələrdən, damara vurulan hər növ iynədən və damara köçürülən hər növ sistemdən istifadə etməməlidir. Amma dəri altına vurulan müalicəvi iynələrdən, həmçinin bədənin hansısa bir nahiyəsini hissiz etmək üçün istifadə edilən iynələrdən istifadə etməyin maneəsi yoxdur.

190. Ramazan ayında sistem köçürməyin hökmü nədir?

Cavab: Ehtiyat-vacibə görə istər qidalandırıcı və qüvvətləndirici, istərsə də müalicəvi və bu kimi başqa təsirləri olan sistemlərdən istifadə etməməlidir.

Qan köçürmə

191. Mən talassemiya xəstəsiyəm və mütəmadi olaraq mənə qan köçürülür. Bu vəziyyətdə mən orucumu tutmuşam. Mənim orucum düzgündürmü, yoxsa onun qəzasını tutmalıyam?

Cavab: Qan köçürmə ehtiyat-vacibə görə orucun batil olmasına səbəb olur.

Oruc halında bədəndən qan xaric olması

192. Ramazan ayında bədəndən qan xaric etmək orucu batil edirmi?

Cavab: Orucu batil etmir. Amma əgər bədəndən qanın xaric olması – həcəmət ilə və ya başqa yolla – oruc tutmuş şəxsin bədəninin zəifliyinə bais olarsa, bu işi görmək məkruhdur.

Oruc halında diş həkiminə müraciət etmək

Oruc tutmuş şəxsin dişlərini bərpa etməsi və ya çəkdirməsi

193. Dişi çəkdirmək, dişin sinirini çıxartdırmaq, dişin dibini hissiz etməkdən örtü müxtəlif vasitələrdən istifadə etmək, dişi bərpa etdirmək orucu batil edirmi?

Cavab: Əgər boğazdan heç nə keçməzsə, oruc düzgündür.

Oruc tutmuş şəxsin ağzından qan gəlməsi

194. Əgər oruc tutmuş şəxsin ağzından qan gəlsə, orucu batil olurmu?

Cavab: Bu səbəbə görə batil olmur. Amma qanın boğaza çatmasının qarşısını almaq vacibdir.

Damaqdan və dişdən gələn qan

195. Əgər mübarək Ramazan ayında oruc tutmuş şəxsin ağzından və damağından qan gəlsə, ağzının içini paklamalıdırmı?

Cavab: Bu qanı uda bilməz və əgər oruc halında bilrəkdən udsa, haram ilə iftar etmək hökmünü daşıyır. Ağızın içini yumaq isə lazım deyildir.

Oruc tutmuş şəxsin damaqdan gələn qanı udduğuna şəkk etməsi

196. Çox vaxt damağımdan gələn qan ağzımın suyuna qarışır və bəzən mən ağzımın suyunu udduqda onun qanla qarışıb-qarışmadığını bilmirəm. Bu halda mənim orucumun hökmü nədir?

Cavab: Əgər damaqdan gələn qan ağızın suyuna qarışıb yox olarsa, ağız suyu pak hesab olunur və onu udmağın maneəsi yoxdur, orucu da batil etmir. Həmçinin ağız suyunun qanla qarışıb-qarışmadığına şəkk etdikdə, onu udmağın maneəsi yoxdur və orucun düzgünlüyünə xələl gətirmir.

Diş qoruyucusundan istifadə etmək

197. Dişlər üçün hərəkətli olan (ağıza salıb çıxarıla bilən) qoruyucu vasitədən oruc halında istifadə etməyin hökmü nədir?

Cavab: Maneəsi yoxdur.

Zərər qorxusu olduğu bir halda hamilə qadının və süd

Hamilə qadının oruc tutması

198. Əgər hamilə qadın orucun bətnindəki uşağa zərəri olub-olmadığını bilmirsə, oruc tutmaq ona vacibdirmi?

Cavab: Əgər orucun bətnindəki uşağa zərəri olacağından qorxsa və onun qorxusunun məntiqi əsası olsa, iftar etmək ona vacibdir. Əks təqdirdə, oruc tutması vacibdir.

verən qadının oruc tutması

199. Bir qadın iki il ardıcıl olaraq Ramazan ayında hamilə olmuşdur və həmin illərdə oruc tuta bilməmişdir. Amma hal-hazırda oruc tutmaq iqtidarındadır. Onun hökmü nədir? Ona "cəm kəffarə" vacib olur, yoxsa təkcə orucun qəzasını tutmalıdır? Orucun qəzasını təxirə salmasının hökmü nədir?

Cavab: Əgər şəri üzrə görə Ramazan ayının orucunu tutmayıbdırsa, təkcə orucun qəzası ona vacibdir. Əgər o, orucun bətnindəki körpəsinə və ya uşağına zərəri olacağından qorxubsa və bu üzrə görə orucunu yeyibsə, orucun qəzasından əlavə hər gün üçün bir müdd təam(1) fidyə ünvanında ödəməlidir. Əgər Ramazan ayından sonra orucun qəzasını gələn ilin Ramazan ayınadək heç bir şəri üzr olmadan təxirə salsa, başqa bir fidyə də ona vacib olur. Yəni hər gün üçün bir müdd təam fəqirə(2) verməlidir. Əgər onun üzrü orucun ona zərəri olacağından olan qorxusu olarsa, zərər qorxusunun olduğu başqa halların hökmünü daşıyır. Bu qorxu gələn ilin Ramazan ayına qədər davam etdiyi təqdirdə orucun qəzası onun boynundan götürülür və təkcə fidyə (bir müdd təam vermək) ona vacibdir.

200. Əgər Ramazan ayında orucun hamilə qadının və ya süd verən qadının özünə zərəri olsa və bu vəziyyət gələn ilin Ramazan ayına qədər davam etsə, bu qadın xəstə hökmündədirmi? Orucun qəzası onun boynundan götürülürmü və fidyə vermək kifayət edirmi?

Cavab: Xəstə hökmündədir.

---

(1) "Bir müdd təam"ın kiloqramla ölçüsü barədə fikirayırılığı vardır: 750 qram və ya 900 qram olduğu söylənilir. "Təam" dedikdə isə, düyü, un, buğda, xurma, kişmiş və bu kimi məhsullar nəzərdə tutulur. (Leader.ir saytına istinadən)
(2) Fəqir, yəni ehtiyacı olan şəxs: Belə ki, bu şəxs il ərzində özünün və ailəsinin xərclərini ödəyə bilmir və bu xərcləri ödəyəcək qazancı əldə etmək iqtidarında da deyildir.

Heyzli qadınların orucu

Oruc halında heyzli olmaq

201. Əgər mübarək Ramazan ayında məğrib azanına iki saat və ya daha az vaxt qaldıqda qadın heyz olarsa, orucu batil olurmu?

Cavab: Orucu batil olur.

202. Əgər qadın günü müəyyən olan nəzir orucunu tutduğu halda heyz olarsa, vəzifəsi nədir?

Cavab: Heyz olmaqla – hətta günün bir hissəsində olsa belə – onun orucu batil olur. Heyzdən paklandıqdan sonra həmin günün orucunun qəzası ona vacibdir.

203. Altmış gün kəffarə orucu tutmaq istəyən qadın əgər oruc tutduğu günlərdə heyz olarsa və ya bu kimi vəziyyətlə qarşılaşarsa, nə etməlidir?

Cavab: Heyz günləri tamamlandıqdan sonra orucun qalan günlərini tuta bilər və əvvəldən başlamaq lazım deyildir.

Sübh azanından qabaq heyzdən paklanmaq

204. Əgər heyzli qadın Ramazan ayında sübh azanından qabaq heyzdən paklanarsa, onun vəzifəsi nədir?

Cavab: Əgər qüsl etmək üçün vaxt varsa, qüsl etməlidir. Əgər vaxt dardırsa, təyəmmüm etməlidir və orucu düzgündür. Əgər o, bilərəkdən qüsl və ya təyəmmüm etməzsə, orucu batildir və kəffarə də verməlidir.

Ramazan ayında qadınıngün əsnasında heyzdən paklandığını bilməsi

205. Əgər qadın heyzdən paklandığına əmin olmadığı üçün Ramazan ayının sübh azanından qabaq qüsl etməsə və gün ərzində paklanmış olduğunu başa düşsə, həmin gün onun vəzifəsi imsak etməkdirmi?

Cavab: Sualda deyilənlərə əsasən, əgər o, orucu batil edən bir iş görməyibdirsə, oruc niyyəti etsin və ehtiyat-vacibə görə həmin günün orucunun qəzasını da tutsun. Amma orucu batil edən işlərdən birini gördüyü təqdirdə, həmin günün kəffarəsi ona vacib deyildir.

Fitrə zəkatının vacib olma şərtləri

Qonağın fitrə zəkatı

225. Təkcə Fitr bayramı gecəsi mükəlləfin evinə gələn qonağın fitrəsinin hökmü nədir?
Cavab: Onun fitrəsi ev sahibinin öhdəsinə deyildir.

226. Əgər Fitr bayramı gecəsi insanın evinə qonaq gəlsə və o, sübh vaxtı bayram olduğunu başa düşsə, qonaqların fitrəsi ev sahibinə vacibdirmi?
Cavab: Hilalın göründüyündən xəbərsiz olmaq, fitrənin verilməsinin hökmündə təsir qoymur. Əvvəldə qeyd olundu ki, bir gecəlik qonağın fitrəsi onun öz öhdəsinədir.

227. Əgər qonaq öz fitrəsini versə, ev sahibinin öhdəsindən götürülürmü?
Cavab: Qonaq ev sahibinin çörək yeyəni sayıldığı təqdirdə əgər o, ev sahibinin icazəsi ilə və onun tərəfindən öz fitrəsini versə, ev sahibinin öhdəsindən götürülür.

Fəqirin fitrə zəkatı

228. Maddi imkanı olmayan şəxsin fitrə zəkatı verməsi vacibdirmi?
Cavab: Əgər fəqir olsa, fitrə zəkatı vermək ona vacib deyildir. Əgər bu şəxsdə üç kiloqram buğda və ya bu kimi qida məhsulu varsa, yaxud da bu məhsulların qiyməti qədər pulu varsa, onu fitrə zəkatı ünvanında verməsi müstəhəbdir. Əgər himayəsində yaşayan şəxslər varsa, bu şəxs həmin məhsulu və ya pulu fitrə ünvanında ailə üzvlərinin əlində dolandıra bilər və yaxşı olar ki, axırıncı şəxs onu özlərindən olmayan bir fərdə versin.

Dolanışıq xərclərini təmin edən qadının fitrə zəkatı

229. Əgər ərin ehtiyacı olduğu üçün qadın dolanışıq xərclərinin təmin olunmasında kömək edərsə, onların fitrə zəkatını kim verməlidir?
Cavab: Əgər qadın kişinin çörək yeyəni hesab olunarsa, ər imkanı olduğu təqdirdə özünün və həyat yoldaşının fitrə zəkatını verməlidir. Əgər qadın ərinin və başqasının çörək yeyəni olmasa, qadının özü fitrə zəkatını verməlidir.

Naşizə qadının(1) fitrə zəkatı

230. Ərinin cinsi istəklərinə cavab verməyən qadının fitrə zəkatı ərin öhdəsindən götürülürmü?
Cavab: Xeyr, ər onun fitrə zəkatını verməlidir. Ancaq əgər qadın başqasının çörək yeyəni olarsa, onun fitrə zəkatı ərin öhdəsindən götürülər.

Ərin fitrə zəkatı verməməsi, zövcənin və övladın vəzifəsi

231. Əgər ata fitrə zəkatı verməsə, onun zövcəsi və övladının vəzifəsi nədir?
Cavab: Onların bir vəzifəsi yoxdur və fitrə zəkatı vermələri lazım deyildir.

(1) Ərin haqlarına riayət etməyən qadın

Fitrə zəkatının verildiyi qida məhsulu və onun miqdarı

Fitrə zəkatının verildiyi qida məhsulu

232. Fitrə zəkatı adətən istifadə edilən və məlum qida məhsulu ilə verilməlidir, yoxsa şəri qida məhsulu ilə verilməlidir?

Cavab: Əgər buğda, arpa, xurma, düyü və bu kimi qida məhsulu ilə verilsə, kifayət edir və əksər hallarda istifadə edilən qida məhsulunda inhisarlaşmır.

Fitrə zəkatının miqdarı

233. Fitrənin miqdarı nə qədərdir?

Cavab: Mükəlləf özü üçün və onun çörək yeyəni sayılan fərdlərin hər biri üçün camaatın yediyi qida məhsullarından (məsələn, buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı və s.) üç kiloqram və ya onlardan birinin pulunu müstəhəqə (fitrə zəkatı verilən şəxs) verməlidir.

Fitrə zəkatının verilmə zamanı və məkanı

Fitrəni kənara qoymağın zamanı

234. Fitrəni kənara qoymağın və onu ödəməyin vaxtı nə zamandır?

Cavab: Şəvval ayının hilalının göründüyü sübuta yetdikdən sonra mükəlləf fitrə zəkatını kənara qoya bilər. Əgər o, bayram namazı qılırsa, ehtiyat-vacibə görə fitrə zəkatını namazdan qabaq verməli və ya kənara qoymalıdır. Əgər bayram namazı qılmırsa, Fitr bayramı gününün zöhrünə qədər təxirə sala bilər.

Fitrəni kənara qoymaq və ondan istifadə etmək

235. Əgər mükəlləf fitrəni kənara qoysa, onu istifadə edib sonra onun yerinə başqa mal qoya bilərmi?

Cavab: Xeyr, kənara qoyduğu malı fitrə olaraq verməlidir.

Fitrə zəkatını Ramazan ayından qabaq vermək

236. Fitrəni Ramazan ayından qabaq fəqirə vermək olarmı?

Cavab: Xeyr, kifayət etmir. Amma fəqirə borc verib, Fitr bayramı günü verdiyi borcu fitrə ünvanında hesablaya bilər.

Fitrə zəkatını başqa şəhərə göndərmək

237. Fitrə zəkatını başqa şəhərə göndərə bilərikmi?

Cavab: Əgər mükəlləfin yaşadığı yerdə və şəhərdə müstəhəq tapılmasa, fitrəni başqa şəhərə apara bilər.

Fitrə zəkatını bayramdan qabaq vermək

238. Əgər başqa bir ölkədə müstəhəq və daha ehtiyaclı fərdlər olsa, bu fərdlərə çatdırılması üçün fitrə zəkatını bayramdan bir neçə gün qabaq vermək olarmı? Əgər bu işi telefon danışığı vasitəsilə bir şəxsə tapşırsam və ölkəyə qayıtdıqdan sonra müstəhəqlərə verdiyi məbləği ona versəm, bunun hökmü nədir?

Cavab: Sizin tərəfinizdən fitrə zəkatını ödəməsi üçün özünüzə vəkil təyin etməyinizin maneəsi yoxdur. Vəkil təyin etmənin yuxarıda deyilən qaydada (yəni istər telefonda zəngləşərək, istərsə də başqa bir yol ilə) olması fərq etmir. Amma fitrə zəkatının öz vaxtında verilməsi vacibdir.

Fitrə zəkatını verməyi unutmaq

239. Fitrə zəkatını verməyi unutmuşam. Bunun hökmü nədir?

Cavab: Əgər fitrə zəkatı verməmisinizsə, fitrə sizin öhdənizdən götürülmür. Əda və ya qəza niyyəti etmədən onu ayırmağınız və verməyiniz vacibdir.

Fitrə zəkatının istifadəsi

Fitrə zəkatının verilmə qaydası

240. Fitrə zəkatını dindar olmayan fəqir ailəyə vermək olarmı?

Cavab: Fitrə zəkatında fitrə alanın ədalətli şəxs olması lazım deyildir. Amma aşkarda böyük günahları işlədən şəxsə ehtiyat-vacibə görə fitrə zəkatı verilməməlidir.

Nəfəqəsi vacib olan şəxsə(1) fitrə zəkatı vermək

241. Ata ehtiyacı olan tələbə övladına fitrə zəkatı verə bilərmi?

Cavab: Əgər övladlar fəqir olsalar, ata və ana onların vacib xərclərini ödəməlidirlər. Fitrə zəkatından bir şeyi dolanışıq xərcləri üçün onlara vermək olmaz. Amma borclarını ödəmələri üçün və ya təmin edilməsi ataya vacib olmayan ehtiyaclar üçün fitrə zəkatını onlara verməyin maneəsi yoxdur.

Fitrənin yığılması və fəqirlər arasında bərabər bölünməsi

242.Biz fəqirlərə və yetimlərə yardım edən xeyriyyə müəssisəsi olaraq bayram namazından sonra kəndin cami məscidində fitrə zəkatını yığırıq. Bildiyiniz kimi, hər "sa"nın(2) (payın) qiyməti müxtəlifdir. Biz əlimizə çatan məbləği toplayıb, fəqirlər arasında bərabər şəkildə bölüşdürə bilərikmi? Məsələn, bir fəqirə iyirmi "sa" yarım(3) (yaxud yarımdan az və ya çox) verə bilərikmi?

Cavab: Ehtiyat-vacibə görə fəqirə bir "sa"dan və ya onun qiymətindən az miqdar verilməməlidir(4) . Hətta fitrəyə müstəhəq olanların hamısına fitrənin miqdarı çatmasa belə, fəqirə qeyd edilən miqdardan az verilməməlidir. Fitrə zəkatından hər fəqirə bir neçə "sa", hətta illik dolanışıq xərci qədər verilməsinə icazə verilir. Ehtiyat-vacibə görə fəqirə bir illik xərcindən artıq verilməsin və o da bundan artıq götürməsin.

Fitrə zəkatını qohumlara vermək

243. Fitrə zəkatını hədiyyə ünvanında abırlı və müstəhəq qohumlara vermək olarmı?

Cavab: Hədiyyə ünvanında verilə bilər və bunun fitrə zəkatı olduğunu ona demək lazım deyildir. Amma niyyətdə fitrə zəkatı olduğunu tutmaq lazımdır.

244. Fitrə zəkatını qardaşa vermək olarmı?

Cavab: Əgər fəqir olsa, olar. Ümumiyyətlə, fitrə zəkatını qohumlara, qonşulara, borca görə vətənini tərk edənlərə, fəqihlərə, alimlərə və üstünlükləri olan başqa şəxlərə vermək müstəhəbdir.

Fitrə zəkatını mədəni işlərə xərcləmək

245. Fitrə zəkatını dini maarifin yayılmasına səbəb olan mədəni və dini işlərə xərcləmək olarmı?

Cavab: Fitrə zəkatını dini maarifin yayılması yolunda xərcləməyin maneəsi yoxdur. Amma ehtiyata görə fitrə zəkatı fəqirə verilməlidir.

Seyidlərin fitrəsi

246. Mənim həyat yoldaşım seyidədir. Onun fitrəsinin mənim öhdəmdə olduğunu və mənim də seyid olmadığımı nəzərə alaraq, həmçinin seyidlərin fitrəsinin ayrıca alındığını nəzərə alaraq, mən həyat yoldaşımın fitrəsini seyidlərin fitrəsi üçün nəzərdə tutulan yerə verməliyəmmi?

Cavab: Fitrənin verilməsində meyar "əyal" (fitrəsi verilən) deyil, "muil"dir (fitrəni verən şəxsdir). Buna görə də siz fitrənizi seyidə verə bilməzsiniz, baxmayaraq ki, həyat yoldaşınız seyidədir.

Fitrə zəkatının fəqir seyidlərə verilməsi

247. Fitrəni fəqir seyidlərə vermək olarmı?

Cavab: Seyid olmayanlar seyidlərə fitrə verə bilməzlər.

Fitrə zəkatını ehtiyacı olan xəstənin müalicəsinə xərcləmək
248. Əgər bir şəxsin maddi imkanı yaxşı deyilsə və azyaşlı qızının böyük xərc tələb edən xəstəliyinin müalicəsi üçün pula ehtiyacı varsa, ona fitrə zəkatı vermək olarmı? Əgər sonradan onun fitrə zəkatına müstəhəq olmadığı məlum olsa, bunun hökmü nədir?
Cavab: Əgər o, fəqirdirsə, ona fitrə zəkatını vermək vacib deyildir və siz fitrə zəkatınızı ona verə bilərsiniz. Əgər onun fəqir olmadığını sonradan başa düşsəniz, bu təqdirdə, əgər sizin ona verdiyiniz mal aradan getməyibdirsə, onu geri alıb müstəhəqə verə bilərsiniz. Əgər geri ala bilməsəniz, öz malınızdan fitrə verməlisiniz.

(1) Yəni bu şəxsin (məsələn, həyat yoldaşının, övladın) lazımi dolanışıq xərclərini ödəmək mükəlləfə vacibdir.

(2) Çəkisi üç kiloqram olan bir ölçü

(3) Yəni 20.5 “sa”

(4) Sualda deyilənlərə cavab olaraq, bir fəqirə iyirmi sa və ya iyirmi bir sa – illik dolanışıq xərcindən cox olmamaq şərtilə – verməyin maneəsi yoxdur və düzgündür. Amma iyirmi və yarım sa verməyin, ehtiyata görə maneəsi vardır və bu, iyirmi sa olaraq hesablanır.

Fitr bayramı namazı

Qeyb dövründə(1) bayram namazı

249. Sizin nəzərinizə görə, Fitr və Qurban bayramlarının namazı və cümə namazı vaciblərin hansı qismindəndir?

Cavab: Hazırkı əsrdə Fitr və Qurban bayramlarının namazı vacib deyildir, müstəhəbdir. Amma cümə namazı təxyiri-vacibdir.

Vəliyyi-fəqih tərəfindən təyin edilməyən fərdin imamlığı ilə bayram namazının qılınması

250. Hazırkı dövrdə və vəliyyi-fəqihin imkanlarının geniş olduğu bir dövrdə Fitr və Qurban bayramlarının namazı vəliyyi-fəqihin imamlığı ilə və vəliyyi-fəqih tərəfindən bu namazların qılınmasına icazəsi olan nümayəndələrinin imamlığı ilə qılınmalıdırmı, yoxsa məscidlərin və başqa məkanların imam-camaatları da bayram namazlarına imamlıq edə bilərlər?

Cavab: Vəliyyi-fəqih tərəfindən təyin edilməyən fərdlərin “qəsdi-vurud” ilə deyil, “qəsdi-rəca” ilə bayram namazına imamlıq etmələrinin maneəsi yoxdur. Əlbəttə, yaxşı olar ki, vəliyyi-fəqih tərəfindən təyin edilən fərdlərdən qeyriləri bayram namazına imamlıq etməsinlər.

Məscidlərin imam-camaatının imamlığı ilə bayram namazının qılınması

251. Keçmişdə, adətən, hər məscidin imam-camaatı öz məscidində bayram namazını qılardı. Hazırkı dövrdə məscidlərin imam-camaatının imamlığı ilə Fitr və Qurban bayramı namazının qılınmasına icazə verilirmi?

Cavab: Hazırkı dövrdə vəliyyi-fəqihin nümayəndələrinin – bayram namazını qılmalarına vəliyyi-fəqih tərəfindən icazələri olan və həmçinin vəliyyi-fəqih tərəfindən təyin edilən imam-cümələrin bayram namazını camaat namazı şəklində qılmalarına icazə verilir. Amma əhvət budur ki, onlardan qeyriləri bayram namazını fərdi şəkildə qılsınlar və bayram namazını qəsdi-vurud ilə deyil, qəsdi-rəca ilə camaat namazı şəklində qılmalarının maneəsi yoxdur. Bəli, əgər məsləhət – şəhərdə bir bayram namazının qılınmasını tələb etsə, yaxşı olar ki, vəliyyi-fəqih tərəfindən təyin edilən imam-cümədən qeyrisi bayram namazına imamlıq etməsin.

Fitr bayramı namazından qabaq iqamə demək

252. Fitr bayramı namazının iqaməsi varmı?

Cavab: İqaməsi yoxdur.

253. Əgər imam-camaat Fitr bayramı namazı üçün iqamə desə, onun və başqa namaz qılanların namazının hökmü nədir?

Cavab: İmam-camaatın və məmumların bayram namazının düzgünlüyünə xələl gətirmir.

Cümə və ya bayram namazının ikinci rəkətinə çatmaq

254. Əgər bir şəxs Fitr və ya Qurban bayramı namazının, yaxud cümə namazının ikinci rəkətinə çatsa, vəzifəsi nədir?

Cavab: Namazın qalanını özü qılsın.

Bayram namazının qunutlarını azaldıb-artırmaq

255. Bayram namazının qunutlarını azaldıb-artırmaq, bu namazın batil olmasına səbəb olurmu?

Cavab: Əgər azaldıb-artırmaq dedikdə, qunutları qısaldıb-uzatmaq (qunutların duasını qısa və ya geniş oxumaq) nəzərdə tutulursa, bu iş namazın batil olmasına səbəb olmur. Amma əgər azaldıb-artırmaq dedikdə, qunutların sayını azaldıb-artırmaq nəzərdə tutulursa, bayram namazı fiqh kitablarında qeyd edilən şəkildə qılınmalıdır.

Bayram namazının qunutunda şəkk etmək

256. Əgər bir şəxs mübarək Fitr və Qurban bayramı namazlarının qunutlarının sayında şəkk etsə, belə ki, beş qunut, yoxsa dörd qunut tutduğuna şəkk etsə, namazının hökmü nədir?

Cavab: Əgər onun (qunutun) yeri keçməmişdirsə, sayın azını əsas götürməlidir.

Vəhdəti qorumaqdan ötrü bayram namazını təxirə salmaq

257. Vəhdəti qorumaqdan ötrü bayram namazını sonrakı günə təxirə salmaq olarmı? Xüsusilə də, bəzi hədislər bayram namazını bayramın ikinci və üçüncü günü qılmağın icazəli olduğuna dəlalət edir.

Cavab: Hər bir halda, qəsdi-rəca ilə bayram namazını sonrakı gün qılmağın maneəsi yoxdur.

Fitr bayramı namazının qəzası

258. Fitr bayramı namazının qəzası varmı?

Cavab: Qəzası yoxdur.

(1) Yəni, İmam Zamanın (ə.f) qeybi dövründə

Təkcə orucun qəzasının vacib olduğu hallar

259. Mübarək Ramazan ayında niyyət etmədən və ya riya edərək oruc tutan, amma eyni halda orucu batil edən işlərdən heç birini görməyən şəxsə həmin günün orucunun qəzası vacibdir, kəffarə isə vacib deyildir.

260. Ramazan ayında cənabət qüslünü unudan və cənabətli vəziyyətdə bir və ya bir neçə gün oruc tutan şəxsə həmin günlərin orucunun qəzası vacibdir.

261. Əgər bir şəxs Ramazan ayında sübh namazının vaxtı olub-olmadığını araşdırmadan orucu batil edən işlərdən birini etsə və sonra məlum olsa ki, həmin vaxt artıq sübh namazının vaxtı daxil olmuşdur, həmin günün orucunun qəzasını tutmalıdır. Amma əgər araşdırma aparsa və sübhün daxil olmadığını bilib bir şey yesə, sonra məlum olsa ki, həmin vaxt artıq sübh namazının vaxtı daxil olmuşdur, həmin günün orucunun qəzası ona vacib deyildir.

262. Əgər bir şəxs Ramazan ayında havanın qaraldığını görüb məğrib vaxtı olduğuna əmin olsa və ya şəri baxımdan etibarlı bir şəxs məğrib vaxtı olduğunu söyləsə və bu şəxs də iftar etsə, sonradan həmin vaxt hələ məğrib olmadığı məlum olsa, o, həmin günün orucunun qəzasını tutmalıdır.

263. Əgər bir şəxs buludlu havada məğrib namazının vaxtı olduğunu güman edib iftar etsə, sonradan həmin vaxt hələ məğrib olmadığı məlum olsa, həmin günün orucunun qəzası ona vacib deyildir.

264. Mükəlləf Ramazan ayında sübh namazının vaxtı olduğuna əmin olmayanadək orucu batil edən işləri görə bilər. Amma əgər sonradan həmin vaxt artıq sübh olduğu məlum olsa, bunun hökmü əvvəlki məsələdə* açıqlandı.

265. Mükəlləf Ramazan ayında məğrib namazının vaxtı olduğuna əmin olmayanadək iftar edə bilməz. Əgər o, məğrib olduğuna əmin olub iftar etsə, sonradan isə həmin vaxt hələ məğrib olmadığı məlum olsa, bunun hökmü əvvəlki məsələlərdə** açıqlandı.

* 261-ci məsələdə

** 262 və 263-cü məsələlərdə

266. Əgər oruc tutmuş şəxs vacib namaz üçün dəstəmaz alarkən ağızına bir qədər su alıb ağızını yaxalasa və su qeyri-ixtiyari olaraq onun boğazından keçsə, orucu düzgündür və orucun qəzası ona vacib deyildir. Amma vacib namazın dəstəmazından qeyri hallarda, ehtiyat-vacibə görə orucun qəzasını tutmalıdır.

Orucun qəzasının hökmləri

267. Bir və ya bir neçə gün huşsuz halda olan şəxs vacib orucu tuta bilməsə, həmin günlərin orucunun qəzası yoxdur.

268. Məst olduğu üçün oruc niyyəti etməyən şəxs bütün günü imsak etsə də, tutmadığı orucun qəzası ona vacibdir.

269. Əgər bir şəxs oruc niyyətini etdikdən sonra məst olsa və bütün günü və ya günün bir hissəsini məst vəziyyətdə keçirsə – xüsusilə də, ağılın getməsinə bais olan şiddətli məstlik vəziyyətinə düşsə – ehtiyata görə həmin günün orucunun qəzasını tutmalıdır. Bu məsələ və əvvəlki məsələdə məstedici maddənin istifadəsinin ona haram olması, yaxud xəstəliyə görə və ya məsələni bilmədiyinə görə bu maddənin ona halal olması arasında fərq yoxdur.

270. Heyz və ya nifas halında olan qadın oruc tutmadığı günlərin qəzasını Ramazan ayından sonra tutmalıdır.

271. Əgər bir şəxs Ramazan ayında şəri üzrü olduğuna görə bir neçə gün oruc tutmasa və oruc tutmadığı günlərin sayını dəqiq bilməsə, ehtimal verdiyi günləri əsas götürüb, bu günlərin orucunun qəzasını tuta bilər. Məsələn, əgər bir nəfər Ramazan ayının iyirmi beşi,yoxsa iyirmi altısı səfərə çıxdığını, nəticədə, altı və ya beş gün qəza orucu tutacağını bilməsə, beş gün qəza orucu tuta bilər. Amma əgər şəri üzrünün hansı gündən etibarən başlandığını bilsə, məsələn, Ramazan ayının beşi səfərə çıxdığını bilsə, lakin səfərdən ayın onuncu, yoxsa on birinci gecəsi qayıtdığını, nəticədə, oruc tutmadığı günlərin sayının beş, yoxsa altı gün olduğunu bilməsə, bu halda ehtiyata görə, sayca çox olan günləri əsas götürüb, bu günlərin orucunun qəzasını tutmalıdır.

272. Əgər bir nəfərin boynunda bir neçə Ramazan ayının orucunun qəzası varsa, onlardan hansını birinci tutarsa, maneəsi yoxdur. Amma əgər axırıncı Ramazan ayının qəzasının vaxtı daralarsa, məsələn, axırıncı Ramazan ayından beş gün qəza orucu varsa və qarşıdakı Ramazan ayına da beş gün qalıbsa, ehtiyata görə axırıncı Ramazan ayının orucunun qəzasını tutmalıdır.

273. Ramazan ayının orucunun qəzasını tutan şəxs, orucun qəzası üçün vaxt dar olmadığı təqdirdə, zöhrdən qabaq orucunu batil edə bilər. Amma əgər vaxt dar olsa, yəni qarşıdakı Ramazan ayına qəza orucunun günlərinin sayı qədər gün qalsa, ehtiyata görə o, orucunu zöhrdən qabaq da batil etməməlidir.

274. Əgər xəstəlik səbəbilə Ramazan ayının orucunu tutmayan şəxsin xəstəliyi gələn ilin Ramazan ayına qədər davam edərsə, ötən ilin Ramazan ayının orucu onun boynundan götürülür və o, hər gün üçün bir müdd təam verməlidir.

275. Əgər səfər səbəbilə Ramazan ayının orucunu tutmayan şəxs gələn ilin Ramazan ayına qədər səfərdə olarsa, ötən ilin Ramazan ayının orucu onun boynundan götürülmür və sonradan onu tutmalıdır. Ehtiyat-müstəhəbə görə kəffarə də (hər günün orucu üçün bir müdd təam) verməlidir.

276. Əgər bir şəxs Ramazan ayında müəyyən bir üzrə görə oruc tutmasa və Ramazan ayından sonra üzrü aradan qalxsa, amma o, gələn ilin Ramazan ayına qədər orucun qəzasını tutmasa, orucunun qəzasını tutmalı və hər gün üçün bir müdd təam verməlidir.

277. Əgər bir şəxs Ramazan ayının orucunun qəzasını bir neçə il təxirə salsa, orucun qəzasını tutmalı və təxirə görə birinci ildə kəffarə (bir müdd təam) verməlidir. Sonrakı illərdə isə kəffarə ona vacib olmur.

278. Hər gün üçün bir müdd təam verməli olan şəxs bir neçə günün kəffarəsini bir fəqirə verə bilər.

279. Əgər ata və ehtiyat-vacibə görə ana səfərdən qeyri bir şəri üzrü olduğuna görə orucunu tuta bilməsə və orucun qəzasını tuta bildiyi halda qəzasını da tutmasa, onlar vəfat etdikdən sonra böyük oğula vacibdir ki, özü və ya əcir tutduğu şəxs həmin orucun qəzasını tutsun. Amma səfər səbəbilə tuta bilmədikləri oruca gəlincə, hətta onlar orucun qəzasını tutmaq fürsəti və imkanı əldə edə bilməsələr belə, onların orucunun qəzasını tutmaq böyük oğula vacibdir.

280. Əgər ata və ana heç bir şəri üzrləri olmadan, bilərəkdən oruc tutmayıblarsa, ehtiyata görə böyük oğul onların oruclarının qəzasını ya şəxsən özü tutmalı, ya da bu iş üçün bir nəfəri əcir tutmalıdır.

Mükəlləfin boynunda qəza orucu olduğu halda müstəhəb və nəzir orucu tutması
281. Boynunda vacib orucu olan şəxs müstəhəb oruc tuta bilərmi?
Cavab: Boynunda Ramazan ayının qəza orucu olan şəxs müstəhəb oruc tuta bilməz.

282. Boynunda Ramazan ayının orucunun qəzası olan şəxs oruc nəzir edə bilərmi?
Cavab: Əgər məqsədi qəza orucundan sonra nəzir orucunu tutmaq olarsa, nəziri düzgündür.

Səfər səbəbilə tutulmayan orucların qəzası
283. Ramazan ayında dini vəzifəni yerinə yetirmək məqsədilə səfər etdiyim üçün on səkkiz gün oruc tutmamışam. Mənim vəzifəm nədir? Bu orucların qəzası mənə vacibdirmi?
Cavab: Ramazan ayında səfər səbəbilə tutmadığınız orucların qəzası sizə vacibdir.

Şəri məsələni bilməmək səbəbilə orucu batil etmək
284. Şəri məsələni bilməmək səbəbilə orucunu bilərəkdən iftar edən şəxs barəsində sizin nəzəriniz nədir? Ona təkcə orucun qəzası vacibdir, yoxsa kəffarə də verməlidir?
Cavab: Əgər mükəlləf şəri məsələni bilmədiyinə görə orucu batil edən bir iş görsə – məsələn, dərman içməyin orucu batil etdiyini bilməsə və Ramazan ayının gündüzündə dərman içsə – orucu batil olur və onun qəzasını tutmalıdır. Amma kəffarə ona vacib deyildir.

Qəza orucu günlərinin sayını bilməmək
285. Əgər bir şəxs oruc tutmadığı və namaz qılmadığı günlərin sayını bilmirsə, vəzifəsi nədir? Həmçinin orucunu şəri bir üzrə görə iftar etdiyini, yoxsa bilərəkdən yediyini bilməyən şəxsin hökmü nədir?
Cavab: Qəza etdiyini yəqinliklə bildiyi namaz və orucların qəzasını yerinə yetirməklə kifayətlənməsinə icazə verilir. Orucunu bilərəkdən iftar etdiyinə şəkk etdiyi təqdirdə, kəffarə vacib deyildir.

Qəza orucunu tutub-tutmamaqda şəkk etmək
286. Əgər mən boynumda olan qəza oruclarını tutub-tutmadığıma şəkk etsəm, vəzifəm nədir?
Cavab: Əgər boynunuzda qəza orucunun olduğuna ilk əvvəldə yəqinliyiniz var idisə, vəzifənizi yerinə yetirdiyinizə əmin olana qədər qəza orucu tutmağınız vacibdir.

Qəza oruclarını tutmaq iqtidarında olmamaq
287. Bəzi insanlar kommunistlərin sapdırıcı təbliğatları nəticəsində illərcə namaz və başqa vacib əməlləri tərk etmişlər. Onlar İmam Xomeyninin (r.ə) keçmiş Sovet İttifaqı başçılarına ünvanladığı tarixi ismarıcından sonra öz səhvlərini başa düşmüş və tövbə edərək Allaha tərəf qayıtmışlar. İndi isə o dövrdə qılmadıqları namazlar və tutmadıqları orucların qəzasını yerinə yetirmək iqtidarında deyildirlər. Onların vəzifəsi nədir?
Cavab: Onlara vacibdir ki, qılmadıqları namaz və tutmadıqları orucların qəzasını bacardıqları qədər özləri yerinə yetirsinlər, yerinə yetirə bilmədiklərini isə vəsiyyət etsinlər.

Büluğun nişanələrini bilməmək səbəbilə oruc tutmamaq
288. Mən təxminən altı aydır ki, şəri vəzifə yaşına çatmışam. Bu yaşa çatmamışdan bir neçə həftə öncə elə

düşünürdüm ki, hicri-qəməri təqvimi ilə on beş yaşın tamamlanması büluğun yeganə nişanəsidir. Amma təzəlikcə oğlanların büluğunun nişanələrini bəyan edən bir kitab oxumuşam. Orada büluğun başqa nişanələri qeyd edilmişdir və məndə də həmin nişanələr mövcuddur. Amma bu nişanələrin məndə nə vaxt yarandığını bilmirəm. İndi mənim boynumda namaz və orucun qəzası vardırmı, yoxsa yoxdur? Qeyd etməliyəm ki, mən bəzi vaxtlar namaz qılmış və ötən ilin Ramazan ayını bütünlüklə oruc tutmuşam. Bu xüsusda mənim vəzifəm nədir?
Cavab: Büluğ və şəri vəzifə yaşına çatdığınız bir halda qılmadığınız və tutmadığınızı yəqinliklə bildiyiniz bütün namaz və orucların qəzasını yerinə yetirməyiniz vacibdir.

289. Mən on dörd yaşımdan qabaq möhtəlim olmağa başlamışam və möhtəlim olmağın büluğun nişanələrindən olduğunu bilməmişəm. Buna görə də on beş yaşına qədər oruc tutmamışam. Təkcə orucun qəzasını tutmağım kifayət edirmi, yoxsa kəffarəsi də vardır?
Cavab: Orucun qəzası vacibdir.

Xəstənin orucunun qəzası

Bu ilin Ramazan ayından gələn ilin Ramazan ayına qədər xəstəliyin davam etməsi
290. Mən tibbi eynəkdən istifadə edirəm və hal-hazırda da gözlərim çox zəif görür. Həkimə müraciət etdiyim vaxt o mənə dedi ki, əgər gözlərimin qüvvətlənməsi üçün səy göstərməsəm, daha da zəifləyəcəkdir. Beləliklə, əgər Ramazan ayının orucunu tutmamaqda üzrlüyəmsə, mənim vəzifəm nədir?
Cavab: Əgər oruc tutmağın sizin gözlərinizə zərəri varsa, oruc tutmağınız vacib deyildir, əksinə, iftar etməyiniz vacibdir. Əgər sizin xəstəliyiniz gələn ilin Ramazan ayına qədər davam etsə, orucun qəzası da sizə vacib deyildir. Amma hər gün üçün bir müdd təam fəqirə verməyiniz vacibdir.

Xəstəliyin bir neçə il davam etməsi və orucların qəzası
291. Anam təxminən on üç il xəstə olmuşdur və buna görə də oruc tuta bilməmişdir. Mən dəqiqliklə bilirəm ki, anam dərman içmək məcburiyyətində olduğu üçün oruclarını tutmamışdır. Xahiş edirəm bizi məlumatlandırasınız ki, orucların qəzası ona vacibdirmi?
Cavab: Əgər o, xəstəliyinə görə oruc tuta bilməmişdirsə, orucun qəzası yoxdur.

Alzeymer(1) xəstəliyinə tutulan şəxsin ibadətlərinin qəzası
292. Dünyasını dəyişmiş alzeymer xəstəsinə namaz və oruc vacib olubmu? Bu barədə bizim vəzifəmiz nədir?
Cavab: Əgər onun xəstəliyi “dəli” adı verilə bilən bir həddə çatmayıbsa, namaz və oruc ona vacib olubdur. Onun (bu xəstəliyə tutulduğu müddətdə) qılmadığı namaz və tutmadığı oruclarının qəzası böyük oğulun öhdəsinədir. Əlbəttə, əgər bu şəxs namaz və oruclarının qəzası barəsində vəsiyyət edibsə və etdiyi vəsiyyət malının üçdə birindən artıq deyilsə, bu təqdirdə onun namazlarını qıldırmaq və oruclarını tutdurmaq üçün bir şəxsi əcir tuta bilərsiniz.

(1) Alzeymer – yaş irəlilədikcə yaddaşsızlıqla, beyində pozğunluqla ortaya çıxan, gündəlik həyatın tələblərini ödəyə bilməmək kimi problemlərə gətirib çıxaran və xalq arasında “ağlını itirmək” kimi tanınan bir xəstəlikdir.

Valideynlərin orucunun qəzası

Ata və ananın orucunun qəzası
293. Əgər mərhumun böyük övladı qız və ikinci övladı oğlan olarsa, ata və ananın namaz və oruclarının qəzası bu oğula vacibdirmi?
Cavab: Ata və ananın namaz və orucunun qəzasının vacib olma meyarı, mərhumun oğlan övladları arasında – əgər bir neçə oğlan övladı varsa – böyük oğul olmaqdır. Sualda deyilənlərə əsasən, atanın namaz və orucunun qəzası atanın ikinci övladı olan bu oğula vacibdir. Həmçinin ananın namaz və orucunun qəzası da ehtiyat-vacibə görə ona vacibdir.

Atanın bilərəkdən tutmadığı orucların qəzası
294. Əgər ata əlli ilə qədər ibadətlərini bilərəkdən yerinə yetirməyibsə, onun bütün namaz və oruclarının qəzası böyük oğula vacibdirmi?
Cavab: Bu təqdirdə də, ehtiyata görə onların qəzasını yerinə yetirməlidir.

Beyin qan sızması səbəbilə atanın tutmadığı orucların qəzası
295. Atamın beyninə qan sızmış və iki il müddətində xəstə yatmışdır. Beyninə qan sızdığına görə atam yaxşı və pisi ayırd etmək qüdrətinə malik deyildi. Yəni düşünmək qabiliyyətini itirmişdi. Bu iki il ərzində namazlarını qılmamış və oruclarını tutmamışdır. Ailənin böyük oğulu olduğum üçün atamın namaz və orucunun qəzası mənə vacibdirmi? Əlbəttə, bilirəm ki, əgər onun bu xəstəlikləri olmasaydı, namaz və oruclarının qəzası mənə vacib idi. Xahiş edirəm ki, bu məsələ barədə məni məlumatlandırasınız.
Cavab: Əgər ağlında yaranan zəiflik “dəli” adı verilə bilən bir həddə çatmamışdırsa və namaz vaxtlarının hamısında huşsuz vəziyyətdə olmamışdırsa, onun qılmadığı namaz və tutmadığı orucların qəzası sizə vacibdir. Əks təqdirdə, sizin öhdənizə heç nə düşmür.

Böyük oğulun özünün və atasının qəza orucu
296. Əgər böyük oğulun öhdəsində həm özünün, həm də atasının qəza namazı və orucu olsa, hansını birinci yerinə yetirməlidir?
Cavab: Belə olduğu halda ixtiyar sahibidir və hansını birinci yerinə yetirməyə başlasa, düzgündür.

Böyük oğulun vəfat etməsi
297. Əgər böyük oğul – istər büluğ yaşına çatmış, istərsə də çatmamış olsun – atadan qabaq vəfat etsə, atanın qəza namazları digər övladların öhdəsindən götürülürmü?
Cavab: Atanın qəza namazı və orucu ata vəfat etdiyi vaxt həyatda olan böyük oğula vacibdir. Baxmayaraq ki, bu oğul ailədə birinci övlad və ya birinci oğul deyildir.

298. Öhdəsində atasının qəza namazı olan böyük oğul əgər vəfat etsə, onları yerinə yetirmək böyük oğulun varisinin öhdəsinə düşürmü, yoxsa atanın sonrakı oğluna (böyük oğulun qardaşına) ötürülür?
Cavab: Öhdəsində atasının qəza namazı və orucu olan böyük oğul ata vəfat etdikdən sonra vəfat edərsə, bu ibadətlər böyük oğulun oğluna və ya qardaşına vacib olmur.

Atanın qəza orucunun günlərinin sayında şəkk etmək
299. Atamın bir neçə il qəza orucu var idi və mən onun bu orucları tutub-tutmadığını bilmirəm. Atam bu barədə vəsiyyət də etməmişdir. Ailənin böyük oğlunun vəzifəsi nədir?
Cavab: Əgər böyük oğul atasının qəza orucunun olduğunu dəqiq bilirsə, onu yerinə yetirməlidir.

300. Mən ailənin böyük oğuluyam. Atamın qəza namazlarını qılmaq və oruclarını tutmaqdan ötrü atam həyatda ikən ondan bu barədə soruşmaq mənə vacibdirmi? Yoxsa qəza namazları və oruclarının qədərini mənə deməsi ona vacibdir? Əgər atam bu barədə məni məlumatlandırmasa, mənim vəzifəm nədir?
Cavab: Bunu soruşmaq sizə vacib deyildir. Amma ataya vacibdir ki, fürsət var ikən qəza etdiyi ibadətləri özü yerinə yetirsin və əgər bacarmasa, vəsiyyət etsin. Hər halda, atası vəfat etdikdən sonra oğulun vəzifəsidir ki, onun qəza namaz və oruclarının yəqinliklə bildiyi miqdarını yerinə yetirsin.

Əhli-sünnə məzhəbli atanın namaz və orucunun qəzası
301. Sünni məzhəbli atanın namaz və orucunun qəzası şiə məzhəbli böyük oğula vacibdirmi?
Cavab: Hətta sualda qeyd edildiyi kimi olsa belə, atasının namaz və orucunun qəzası ona vacibdir.

Atanın qəza orucunun qız övladına vacib olmaması
302. Əgər atanın təkcə qız övladı varsa, ata vəfat etdikdən sonra onun oruclarının qəzası böyük qıza vacibdirmi?
Cavab: Vacib deyil.

Azyaşlı övlada və ya irs aparması qadağan olan övlada atanın namaz və orucunun qəzasının vacib olması
304. Azyaşlı övlada və ya irs aparması qadağan olan övlada atanın qılmadığı namaz və tutmadığı orucun qəzasını yerinə yetirmək vacibdirmi?
Cavab: Atanın qılmadığı namaz və tutmadığı orucların qəzasını yerinə yetirmək onun vəlisinə (ata vəfat etdiyi vaxt həyatda olan böyük oğula) vacibdir. Ata vəfat etdiyi vaxt vəlinin büluğa çatmış fərd olması şərt deyildir. Odur ki, atasının qəza etdiyi ibadətləri böyüdükdən sonra yerinə yetirmək azyaşlı övlada vacibdir. Həmçinin atadan irs aparmaq da şərt deyildir. Odur ki, atasının qəza etdiyi ibadətləri yerinə yetirmək –qətl, küfr və başqa səbəblərə görə – irs aparması qadağan olan övlada da,vacibdir.

Orucun qəzasını tutmaqda səhlənkarlıq etmək və onu təxirə salmaq

Şəri məsələni bilməmək səbəbilə orucun qəzasını təxirə salmaq

305. Gələn ilin Ramazan ayınadək orucun qəzasını tutmağın vacib olduğunu bilməyən şəxs əgər orucunun qəzasını təxirə salsa, hökmü nədir?

Cavab: Gələn ilin Ramazan ayınadək orucun qəzasını tutmağın vacib olduğunu bilməmək, təxirə görə ödənilən fidyəninin mükəlləfin üzərindən götürülməsinə səbəb olmur.

Orucun qəzasını tutmaqda səhlənkarlıq göstərmək

306. Ramazan ayının orucunun qəzasını tutmaqda səhlənkarlıq göstərən və indi də xəstəliyinə görə qəza oruclarını tuta bilməyən şəxsin hökmü nədir?

Cavab: Əgər o, orucların qəzasını tutmaqda səhlənkarlıq göstəribsə və indi də gələn ilin Ramazan ayına qədər onları tuta bilmirsə, hər gün üçün bir müdd təam fəqirə verməlidir və qadir olduğu vaxt oruclarının qəzasını tutmalıdır.

Qəza orucunu batil etmək

307. Qəza orucu tutan şəxs hansısa bir səbəbə görə orucu batil edə bilərmi?

Cavab: Əgər zöhrdən qabaq qəza orucunu batil edərsə, maneəsi yoxdur. Amma zöhrdən sonra qəza orucunu yeməyə icazə verilmir. Əgər zöhrdən sonra qəza orucunu batil edərsə, kəffarə verməlidir. Kəffarənin miqdarı on müdd təam (hər nəfərə bir müdd təam) fəqirə verməkdir və əgər buna imkanı yoxdursa, üç gün – ehtiyat-vacibə görə ardıcıl olaraq – oruc tutmalıdır.

Əcir orucu

İnsan sağ ikən qəza orucunu onun əvəzindən tutmaq

308. Atamın müəyyən qədər qəza namazı vardır, amma onları qılmaq iqtidarında deyildir. Atam sağ ikən – ailənin böyük oğlu olaraq – onun qılmadığı namazlarının qəzasını qılmağıma və ya bu namazları qılmaq üçün bir nəfəri əcir tutmağıma icazə verilirmi?

Cavab: İnsan sağ ikən qəza namazını və orucunu onun əvəzindən yerinə yetirmək düzgün deyildir.

Atanın irsindən onun qəza orucları üçün əcir tumaq

309. Mərhumdan irs olaraq, yalnız övladlarının yaşadıqları ev qalmışdır. Digər tərəfdən mərhumun qəza namaz və orucu vardır və onun böyük oğlu da gündəlik işlər səbəbilə atasının boynunda olan ibadətləri qəza etməyə qadir deyildir. Bu evi satıb, evin pulu ilə atanın qəza namazlarını qıldırmaq və oruclarını tutdurmaq övladlara vacibdirmi?

Cavab: Sualda deyilənlərə əsasən, ev varislərin mülküdür və onu satmaq vacib deyildir. Atanın boynunda olan namaz və orucun qəzası hər bir halda böyük oğula vacibdir. Amma əgər mərhum qəza namazları və oruclarının yerinə yetirilməsi üçün irsinin üçdə biri ilə əcir tutulmasına vəsiyyət etsə və irsinin üçdə biri onun bütün qəza namaz və oruclarının yerinə yetirilməsi üçün kifayət etsə, bu təqdirdə irsin üçdə biri bu iş üçün sərf edilməlidir.

Böyük oğulun vəsiyyət edilən günlər baxımından vəzifəsi

310. Mən atamın böyük oğluyam və şəriətə görə, onun namaz və oruclarının qəzasını mən yerinə yetirməliyəm. Atamın boynunda bir neçə ilin namaz və orucunun qəzası olduğu halda, əgər o, təkcə bir ilin namaz və orucunun qəzasının yerinə yetirilməsini vəsiyyət etsə, mənim vəzifəm nədir?

Cavab: Əgər mərhum vəsiyyət etsə ki, onun namaz və oruclarının qəzası irsinin üçdə biri ilə yerinə yetirilsin, bu iş üçün irsin üçdə biri ilə bir şəxsi əcir tuta bilərsiniz. Əgər onun boynunda olan namaz və oruc vəsiyyət etdiyindən çox olsa, bu ibadətləri atanız üçün yerinə yetirməyiniz sizə vacibdir. Onları yerinə yetirmək üçün öz malınızla bir şəxsi əcir də tuta bilərsiniz.

Mərhumun irsinin onun orucunun qəzası üçün yetməməsi

311. Mərhumun boynunda namaz və mübarək Ramazan ayının orucunun qəzası vardır. Onun oğlan övladı da yoxdur. Ondan irs qalan mal isə namaz və orucun ikisindən birinin qəzasının yerinə yetirilməsi üçün yetərlidir. Bu təqdirdə namazın qəzası birinci yerinə yetirilməlidir, yoxsa orucun qəzası?

Cavab: Namaz və oruc arasında tərcih yoxdur. Mərhumun irsini onun namaz və orucunun qəzasının yerinə yetirilməsinə sərf etməkdə varislərə vacib deyildir. Amma əgər mərhum bu barədə vəsiyyət edibsə, bu təqdirdə əcir tutulmalı və irsin üçdə birinin yetdiyi qədər onun namaz və orucunun qəzası yerinə yetirilməlidir.

Atanın orucunun qəzası üçün böyük oğulun əcir tutması

312. Əgər dünyasını dəyişmiş atanın qəza orucu üçün böyük oğul bir şəxsi əcir tutmaq istəsə, mərhumun irsindən xərcləyə bilərmi?

Cavab: Xeyr, böyük oğul atanın oruclarının qəzasını özü yerinə yetirməli, yaxud bunun üçün öz malından əcir tutmalıdır. O, mərhumun irsindən bu iş üçün xərcləyə bilməz. Amma əgər ata vəsiyyət etsə, bu iş üçün onun irsindən (irsin üçdə birini) xərcləyə bilər.Cavab: Xeyr, böyük oğul atanın oruclarının qəzasını özü yerinə yetirməli, yaxud bunun üçün öz malından əcir tutmalıdır. O, mərhumun irsindən bu iş üçün xərcləyə bilməz. Amma əgər ata vəsiyyət etsə, bu iş üçün onun irsindən (irsin üçdə birini) xərcləyə bilərCavab: Maneəsi yoxdur.

Mükəlləfin boynunda nəzir və andın kəffarəsi olduğu halda əcir orucu tutması

313. Boynunda nəzir və andın kəffarəsi olan şəxs, başqasının qəza orucunu tutmağı qəbul edə bilərmi?

Cavab: Maneəsi yoxdur.

Mükəlləfin boynunda qəza və ya kəffarə orucu olduğu halda əcir olması
314. Boynunda qəza və ya kəffarə orucu olan şəxs başqa bir şəxs üçün(1) “niyabəti əcir oruc” (2) və ya “təbərrui oruc” tuta bilərmi?
Cavab: Əcir orucun maneəsi yoxdur, təbərrui oruc isə məhəlli-işkaldır(3) .

İbadətin yerinə yetirilməsində vəkilin və ya əcirin öz vəzifələrinə riayət etməməsi
315. Zeyd namaz və orucun qəzası üçün əcir tutmaqda bəzi fərdlər tərəfindən vəkil olmuşdur. Yəni o, əcir tutacağı fərdlərə vermək üçün bəzi şəxslərdən bir məbləğ pul almışdır. Lakin əmanətə xəyanət etmiş və bu iş üçün kimsəni əcir tutmamışdır. İndi isə əməlinə görə peşmandır və boynunda olan borcdan çıxmaq istəyir. O, bu iş üçün əcir tutmalıdırmı? Yoxsa bu iş üçün aldığı pulu indiki dəyərilə hesablayıb sahiblərinə qaytarmalıdır? Yoxsa o, aldığı pul qədər borcludur? Əgər namaz və orucun qəzasını yerinə yetirmək üçün onun özü əcir olubsa və bu işi yerinə yetirməmişdən qabaq vəfat edibsə, vəzifə nədir?
Cavab: Əgər əcir tutmaqda vəkil olan şəxs namaz və orucun qəzası üçün bir fərdi əcir tutmamışdan qabaq vəkillik müddəti başa çatsa, təkcə aldığı məbləğə zamindir. Qeyri halda isə (yəni əgər vəkillik müddəti başa çatmayıbsa), aldığı pula namaz və orucun qəzası üçün bir fərdi əcir tutmaq, ya da vəkaləti pozmaq və pulu sahibinə qaytarmaq arasında seçim edə bilər. Pulun dəyəri arasında fərq olduğu təqdirdə, ehtiyata görə onlar bir-biri ilə müsalihə etməlidirlər (razılaşmalıdırlar). Namaz və orucun qəzası üçün əcir olan şəxsə gəlincə, əgər bu işi onun özünün yerinə yetirməsi şərt olubsa, bu təqdirdə onun vəfat etməsilə əcirlik pozulur və aldığı pul onun irsindən ödənilməlidir. Amma əgər bu işi onun özünün yerinə yetirməsi şərt deyilsə, həmin işi yerinə yetirməkdə borcludur və onun varisi bu iş üçün onun irsi ilə – əgər ondan irs qalıbsa – bir fərdi əcir tutmalıdırlar. Əks təqdirdə, bu baxımdan varislərin öhdəsinə heç nə düşmür.

Əcir orucunu iftar etməyin kəffarəsi
316. Əgər bir şəxs Ramazan ayının qəza orucunu tutmaq üçün əcir olsa və zöhr azanından sonra iftar etsə, kəffarə ona vacibdirmi, yoxsa vacib deyildir?
Cavab: Kəffarə ona vacib deyildir.

Qəza orucunu varisdən qeyrisinə vəsiyyət etmək
317. Bir şəhid onun tərəfindən ehtiyat ünvanında bir neçə gün qəza orucu tutmasını dostlarından birinə vəsiyyət etmişdir. Şəhidin varisinin bu məsələlərə əhəmiyyət vermədiyini və həmçinin vəsiyyətin varisə deyilməsinin də mümkün olmadığını, digər tərəfdən isə şəhidin dostuna oruc tutmağın böyük əziyyət və çətinliyi olduğunu nəzərə alsaq bunun başqa bir həll yolu varmı?
Cavab: Əgər şəhid şəxsən dostunun onun üçün oruc tutmasını ona vəsiyyət edibsə, bu xüsusda onun varisinin üzərinə bir vəzifə gəlmir. Əgər şəhid tərəfindən oruc tutmağın onun dostuna böyük əziyyət və çətinliyi varsa, onun da üzərindən vəzifə götürülür.

(1) Əcir tutulan şəxsin mərhum üçün tutduğu oruc
(2) İnsanın qəsdi-qürbət ilə və heç bir təmənna və məcburiyyət olmadan mərhum üçün tutduğu oruc
(3) Yəni maneəsi vardır.

Kəffarənin vacib olduğu hallar

318. Əgər orucu batil edən işlər bilərəkdən və ixtiyari şəkildə yerinə yetirilsə, həmin günün orucunun qəzasından əlavə, kəffarə də vacib olur.

319. Əgər bir şəxs Ramazan ayının gecəsində cənabətli olsa və cənabətli olduqdan sonra sübh azanından qabaq oyanıb qüsl edəcəyi gümanı ilə yatsa, amma sübh azanına qədər oyanmasa, həmin günün orucunun qəzası ona vacib deyildir.

320. Əgər bir şəxs şəri hökmü bilmədiyinə görə orucu batil edən bir iş görsə – məsələn, dərman içməyin orucu batil etdiyini bilməsə və Ramazan ayının gündüzündə dərman içsə – orucu batildir və onun qəzasını tutmalıdır. Amma kəffarə ona vacib deyildir.

321. Əgər bir şəxsə hansısa bir səbəbə görə orucu batil etmək icazə verilsə və ya vacib olsa – məsələn, onu orucu batil edən bir işi görəməyə məcbur etsələr, yaxud suda boğulan bir insanın həyatını xilas etmək üçün suya atılsa – bu təqdirdə kəffarə ona vacib deyildir, amma həmin günün orucunun qəzasını tutmalıdır.

322. İslam şəriətində Ramazan ayının orucunun kəffarəsi bu üç şeydən biridir: bir qul azad etmək, iki ay oruc tutmaq, altmış fəqirə təam vermək. Hazırkı dövrdə azad etmək üçün qul mövcud olmadığına görə, mükəlləf digər iki işdən birini yerinə yetirməlidir.

323. Altmış fəqirə iki şəkildə təam vermək olar: hazır yemək verməklə onları doydurmaq və ya hər bir fəqirə 750 qram (bir müdd) buğda, un, çörək, düyü və bu kimi qida məhsulu vermək.

324. Əgər mükəlləf bu üç işdən heç birini – belə ki, mükəlləf bu üç işdən istədiyi birini seçə bilərdi – yerinə yetirə bilməsə, bu təqdirdə neçə fəqirə təam verməyə imkanı çatırsa, təam versin və ehtiyata görə bağışlanma da diləsin. Əgər heç bir yolla fəqirə təam vermək imkanı yoxdursa, bağışlanma diləməsi kifayət edir. Yəni qəlbində və dilində desin: “Əstəğfirullah (Allahdan bağışlanma diləyirəm)”.

325. Əgər oruc tuta və fəqirə təam verə bilmədiyinə görə bir şəxsin vəzifəsi bağışlanma diləmək olsa, amma sonralar oruc tutmaq və ya fəqirə təam vermək iqtidarında olsa, ehtiyata görə bu işi görməlidir. Baxmayaraq ki, istiğfarın (bağışlanma diləməyin) kifayət etməsi uzaq ehtimal deyildir(1) .

326. Ramazan ayının orucunun kəffarəsini tutmaq istəyən şəxs bir ayı bütünlüklə və ikinci aydan ən azı bir gün ardıcıl olaraq oruc tutmalıdır. Əgər ikinci ayın qalan günlərini ardıcıl oruc tutmasa, maneəsi yoxdur.

327. Altmış gün kəffarə orucu tutmaq istəyən qadın əgər oruc tutduğu günlərdə heyz olarsa və ya bu kimi bir vəziyyətlə qarşılaşarsa, heyz günləri tamamlandıqdan sonra kəffarə orucunun qalan günlərini tuta bilər və əvvəldən başlamaq lazım deyildir.

328. Əgər bir şəxs haram cinsi əlaqə ilə və ya haram bir şeyi yeyib-içməklə Ramazan ayında öz orucunu batil etsə, ehtiyata görə hər üç kəffarə (bir qul azad etmək, altmış gün oruc tutmaq və altmış fəqirə təam vermək) birlikdə ona vacib olur. Əgər hər üç kəffarəni birlikdə yerinə yetirmək iqtidarında deyilsə, mümkün olan qədərini yerinə yetirməlidir. Baxmayaraq ki, bu ehtiyatın vacib olmaması uzaq ehtimal deyildir.

329. Əgər oruc tutmuş şəxs orucu batil edən işi gün ərzində bir dəfədən çox (yəni bir neçə dəfə) görsə, ona təkcə bir kəffarə vacib olur. Lakin, əgər cinsi əlaqədə olmaq və ya istimna etməklə orucu batil edibsə, bu təqdirdə neçə dəfə cinsi əlaqədə olubsa və ya istimna edibsə, ehtiyat-vacibə görə o qədər kəffarə verməlidir.

330. Əgər oruc tutmuş şəxsin mədəsindən ağızına bir şey gəlsə, onu yenidən udmamalıdır. Əgər onu bilərəkdən udsa, orucun qəza və kəffarəsi ona vacib olur.

331. Əgər bir şəxs müəyyən bir gündə oruc tutmağı nəzir etsə, amma həmin gün bilərəkdən oruc tutmasa və ya orucunu batil etsə, kəffarə verməlidir. Nəzir orucunun kəffarəsi, andı pozmağın kəffarəsi* ilə eynidir.

332. Əgər sözünə etibar edilməyən bir şəxs məğrib vaxtı olduğunu desə və oruc tutmuş şəxs onun sözünə əsasən iftar etsə, amma sonradan həmin vaxt məğrib olmadığını başa düşsə, orucun qəza və kəffarəsi ona vacib olur.

333. Əgər orucunu bilərəkdən batil edən şəxs orucunu batil etdikdən sonra səfərə çıxsa, kəffarə onun boynundan götürülmür.

334. Mükəlləfə kəffarə vacib olduqda, onu dərhal verməsi lazım deyildir. Amma kəffarəni o qədər təxirə salmamalıdır ki, vacib əməlin yerinə yetirilməsində səhlənkarlıq hesab olunsun.

335. Əgər vacib kəffarənin üstündən bir neçə il ötsə və mükəlləf onu verməsə, kəffarənin üstünə heç nə əlavə olmur.

336. Kəffarə ünvanında altmış fəqirə (əvvəlki məsələlərdə bəyan edildiyi qaydada) təam vermək istəyən şəxs, əgər altmış fəqir tapa bilərsə, iki və ya daha artıq nəfərin payını bir nəfərə verə bilməz. Altmış nəfərin hər birinə bir nəfərin payı qədər təam verməlidir. Əlbəttə, fəqir şəxsin ailə üzvlərinin sayı qədər payı ona verə bilər və o da bunu ailəsinə sərf edə bilər. Həmçinin fəqirin uşaq və ya böyük, qadın və ya kişi olmasının fərqi yoxdur.

337. Əgər Ramazan ayının orucunun qəzasını tutmuş şəxs zöhrdən sonra orucunu bilərəkdən batil etsə, on fəqirə təam verməlidir. Əgər on fəqirə təam verə bilməsə, üç gün oruc tutmalıdır.

Orucu bilərəkdən iftar etməyin kəffarəsi ilə xəstənin kəffarəsi arasındakı fərq
338. Orucu (Ramazan ayının orucunu) bilərəkdən iftar etməyin kəffarəsi ilə xəstənin kəffarəsi arasında fərq varmı?
Cavab: Bəli, bunlar arasında iki baxımdan fərq vardır: 1- Miqdar baxımından; 2- İstifadə qaydası baxımından.
Orucu bilərəkdən iftar etməyin kəffarəsi – hər gün üçün altmış fəqiri yedirtmək (yaxud hərəsinə bir müdd təam vermək) və ya iki ay oruc tutmaqdır. Amma xəstənin kəffarəsi, xəstəlik gələn ilin Ramazan ayına qədər davam etdiyi təqdirdə, hər gün üçün fəqirə bir müdd təam verməkdir.
Mükəlləf orucu bilərəkdən iftar etməyin kəffarəsində, əgər altmış fəqir tapa bilərsə, onların hərəsinə bir müdd təamdan artıq verə bilməz. Amma xəstənin kəffarəsində, buna lüzum yoxdur.

Qəza orucunu bilərəkdən iftar etməyin kəffarəsi
339. Bir şəxsin boynunda on gün oruc vardır və o, Şaban ayının iyirmisindən etibarən oruc tutmağa başlayır. Bu təqdirdə o, orucunu zöhrdən qabaq və ya sonra bilərəkdən iftar edə bilərmi? Zöhrdən qabaq və ya sonra orucunu iftar etdiyi təqdirdə, kəffarə nə qədərdir?
Cavab: Sualda deyilənləri nəzərə alaraq, ehtiyata görə orucu bilərəkdən iftar etməsinə icazə verilmir. Orucunu bilərəkdən iftar etdiyi təqdirdə, əgər zöhrdən qabaq iftar etsə, “təxir kəffarəsi”ndən(2) başqa bir kəffarə ona vacib olmur. Əgər zöhrdən sonra iftar etsə, ona kəffarə vacib olur və bu kəffarə on fəqirə təam verməkdir. Buna maddi imkanı olmadığı təqdirdə üç gün oruc tutmalıdır.

Ramazan ayında oruc tutmamaq
340. Yüz iyirmi gün oruc tutmayan şəxsin vəzifəsi nədir? Hər gün üçün altmış gün oruc tutmalıdırmı? Kəffarə ona vacibdirmi?

Cavab: Əgər Ramazan ayının orucunu tutmayıbsa, orucların qəzasını tutmalıdır. Əgər bilərəkdən və heç bir şəri üzr olmadan iftar edibsə, qəzadan əlavə hər günün kəffarəsi də ona vacibdir. Bu kəffarə ya altmış gün oruc tutmaq, ya altmış fəqiri yedirtmək, ya da altmış müdd təamı altmış fəqirə – hər fəqirə bir müdd olaraq – verməkdir.

On gün qalmağı qərara aldığı yerdə müsafirin orucu batil edən iş görməsi

341. Bir müsafir bir yerdə on gün qalmağı qərara almışdı. Amma orada qalmaq fikrindən dönür və Ramazan ayı daxil olmamışdan qabaq öz şəhərinə qayıtmağı qərara alır. Nəqliyyat vasitəsi tapılmadığına görə, öz şəhərinə qayıda bilmir və səfərdə olduğu yerdə Ramazan ayı daxil olur. Əgər bu şəxs həmin yerdə orucu batil edən bir iş görsə, hökmü nədir?

Cavab: Onun “bir yerdə on gün qalma niyyəti” gerçəkləşdikdən sonra (yəni bir yerdə qalmağı qərara aldıqdan sonra bir dörd rəkətli namaz qıldıqda) oruc ona vacib olur və orucu batil edən bir iş görməsinə icazə verilmir. Əgər o, orucu batil edən bir iş görsə, kəffarə (altmış gün oruc tutmaq və ya altmış fəriqə təam vermək) ona vacib olur. Amma bir yerdə on gün qalma niyyəti və namazı tam qılma hökmü gerçəkləşməmişdən qabaq orada qalmaq fikrindən dönsə, onun öhdəsinə bir şey gəlmir.

Orucu haram işlə batil etmək

342. Ramazan ayında orucunu haram cinsi əlaqə ilə və ya haram yemək və içki ilə batil edən şəxsin hökmü nədir?

Cavab: Sualda deyilənlərə əsasən, o, altmış gün oruc tutmalı və ya altmış fəqirə təam verməlidir. Ehtiyat-müstəhəbə görə hər ikisini yerinə yetirsin.

343. Əgər mükəlləf istimnanın orucu batil etdiyini bilsə, amma bilərəkdən bu işi görsə, ona “cəm kəffarə” vacib olurmu?

Cavab: Ondan məni xaric olsa belə, cəm kəffarə ona vacib olmur. Amma ehtiyat-müstəhəb budur ki, cəm kəffarə versin.

Orucu batil edən işləri təkrar etmək

344. Oruc tutmuş şəxs orucu batil edən işi gün ərzində bir dəfədən çox (yəni bir neçə dəfə) görsə, vəzifəsi nədir?

Cavab: Ona bir kəffarə vacib olur. Lakin, əgər cinsi əlaqədə olmaq və ya istimna etməklə orucunu batil edibsə, bu təqdirdə neçə dəfə cinsi əlaqədə olubsa və ya istimna edibsə, ehtiyat-vacibə görə o qədər kəffarə verməlidir.

Bilərəkdən qusma

345. Bilərəkdən qusma kəffarəyə səbəb olurmu?

Cavab: Bilərəkdən qusma kəffarəyə səbəb olur.

---

(1) Uzaq ehtimal deyildir” ifadəsi – fətva hökmündədir.

* Andın kəffarəsi on fəqiri doydurmaq və ya onları geyindirməkdir.

(2) Təxirə salınan qəza orucunun kəffarəsi – hər gün üçün bir müdd təam fəqirə verməkdən ibarətdir.

Kəffarəni verməyin qaydası

Kəffarənin dərhal və təcili verilməsi

346. Orucun kəffarəsi dərhal və təcili verilməlidirmi, yoxsa zaman-zaman verilə bilər?

Cavab: Kəfarənin verilməsi – istər təam vermək, istərsə də oruc tutmaq olsun – təcili vacib deyildir. Onu vermək üçün – gələcəkdə belə – fürsət vardır. Amma eyni zamanda əhəmiyyətsiz də hesab edilməməlidir.

Kəffarə orucunda ardıcıllığın pozulması

347. Mənə altmış gün kəffarə orucu vacib olmuşdu. İlk 31 günün 29-cu günü Qurban bayramına təsadüf etdi və həmin gün oruc tutmaq haram idi. Sonra isə mən orucun davamını tutmadım. Tutduğum bu bir neçə gün orucu "ardıcıl tutulması şərt olmayan" günlər ünvanında hesablaya və daha sonra "ardıcıl tutulması şərt olan" otuz bir gün orucu tuta bilərəmmi?

Cavab: Əgər (həmin günlərin ardınca) otuzuncu və otuz birinci günü ardıcıl olaraq oruc tutmamısınızsa, əvvəlki oruclarınız düzgün deyildir. Tərtibə riayət olunmalıdır, yəni əvvəlcə ardıcıl tutulması şərt olan orucları tutmalı, sonra isə ardıcıl tutulması şərt olmayan orucları tutmalısınız.

Kəffarə orucunun ardıcıl tutulmasında şəkk etmək

348. Mən mübarək Ramazan ayında bir günün orucunu batil etdim və buna görə 30 günü ardıcıl olmaqla 61 gün kəffarə orucu tutmalıyam. Mən kəffarə orucunun hamısını tutmuşam, amma 30 gün, yoxsa 31 gün ardıcıl oruc tutduğuma əmin deyiləm? İndi mənim vəzifəm nədir?

Cavab: Əgər kəffarə orucunu tutmusunuzsa və bu orucu tutarkən onun 31 gününün ardıcıl olması nəzərinizdə olubsa, sizin indiki şəkk və tərəddüdünüzün heç bir əhəmiyyəti yoxdur.

Orucun qəzası və kəffarəsi arasında tərtibə riayət etmək

349. Orucun kəffarəsində qəza və kəffarə arasında tərtibə riayət etmək vacibdirmi, yoxsa vacib deyildir?

Cavab: Vacib deyildir.

350. Ramazan ayının orucunun qəzası və kəffarəsi ardıcıl tutulmalıdırmı?

Cavab: Orucların qəzasının ardıcıl tutulması lazım deyildir. Amma orucun kəffarəsi – əgər mükəlləf orucun kəffarəsi olaraq iki ay oruc tutmağı seçibsə – bir ay bütünlüklə və sonrakı aydan da bir gün ardıcıl tutulmalıdır.

Orucun kəffarəsi üçün bir ay müddətinin hesablanma qaydası

351. Orucun kəffarəsi üçün bir ay müddətini hesablamağın qaydası necədir?

Cavab: Əgər mükəlləf qəməri ayın əvvəlindən (birinci günündən) oruc tutmağa başlasa, iki qəməri ay – hətta otuz gündən az olsa da – kifayət edir. Həmçinin məsələn, qəməri ayın yeddisindən oruc tutmağa başlasa, üçüncü ayın altısında orucun tamamlanması kifayət edir. Əks təqdirdə, altmış gün oruc tutmalıdır.

Kəffarəni hissə-hissə vermək

352. Boynumda bir neçə il öncənin oruc kəffarəsi var. İl ərzində bir neçə dəfəyə onu verə bilərəmmi?

Cavab: Maneəsi yoxdur.

Kəffarəni verməyi yubatmaq

353. Orucun kəffarəsini bir neçə il yubatdıqda və təxirə saldıqda onun üstünə nə isə əlavə olunurmu?

Cavab: Xeyr, onun üstünə heç nə əlavə olunmur.

Kəffarəni vermək iqtidarında olmamaq

354. Bir şəxs cahillik ucbatından on il müddətində namaz qılmamış və oruc tutmamışdır. İndi isə tövbə edərək, Allaha tərəf qayıtmış və ibadətlərinin qəzasını yerinə yetirməyi qərara almışdır. Amma tutmadığı orucların hamısının qəzasını tutmaq iqtidarında deyildir və orucların kəffarəsini vermək üçün malı-pulu da yoxdur. Təkcə istiğfarla (bağışlanma diləməklə) kifayətlənə bilərmi?

Cavab: Tutmadığı orucların qəzası heç bir vəchlə onun boynundan götürülmür. Ramazan ayının orucunu bilərəkdən iftar etməyin kəffarəsinə gəlincə, əgər hər gün üçün iki ay oruc tutmaq və ya altmış fəqirə təam vermək iqtidarında deyilsə, neçə fəqirə təam verməyə imkanı çatırsa, təam versin. Ehtiyata görə istiğfar da etsin. Əgər fəqirə təam verməyə heç bir yolla imkanı yoxdursa, təkcə istiğfar etmək kifayət edir. Yəni qəlbində və dilində "əstəğfirullah (Allahdan bağışlanma diləyirəm)" desin.

355. Batil etdiyi orucların hər günü qarşılığında altmış gün qəza orucu tutmalı olan şəxs, xəstəlik və zəiflik səbəbindən onu tuta bilmirsə və orucun kəffarəsini vermək üçün özünün müstəqil olaraq bir gəliri də yoxdursa, onun vəzifəsi nədir?

Cavab: Orucun qəzası vacibdir. Orucu bilərəkdən iftar etməyin kəffarəsinə gəlincə, bunun hökmü 354-cü məsələnin cavabında açıqlandı.

Kəffarənin yerinə istiğfar etdikdən sonra onu vermək imkanına malik olmaq

356. Maddi imkanım olmadığına və bədənimin qüvvəsi çatmadığına görə, mənə vacib olan kəffarələri – oruc tutmaq və ya fəqiri yedirtmək – verə bilmədim. Nəticədə, Allahdan bağışlanma dilədim. Amma indi Allahın lütfü sayəsində oruc tutmaq və ya fəqirə təam vermək iqtidarındayam. Mənim vəzifəm nədir?

Cavab: Sualda deyilənlərə əsasən, kəffarəni vermək lazım deyildir. Amma ehtiyat-müstəhəb budur ki, kəffarəni versin.

Fidyə və təxir kəffarəsi

Fidyədə fəqirə təam verməyin meyarı

357. Alimlər qeyd edirlər ki, dörd dəstə fidyə verməlidir: qoca kişi, qoca qadın, zul-ətaş(1) , hamilə və süd verən qadın. Bəzi alimlər buyururlar:

لا يُجْزى ألإشْبَاعُ عَنِ الْمُدِّ فِى الْفِدْيَةِ.

Yəni: Fəqiri doydurmaq kifayət etmir və fəqirə bir müdd təam verilməlidir. Necə ki, “Bəqərə” surəsinin 184-cü ayəsində“يِنكِسمُامَعَطٌةَيْدِفِ” (fəqirə bir müdd təam) buyurulur.

Ayədə “يِنكِسِمُامَعْطِإِ” (fəqiri yedirtmək) – deyə buyurulmur. Sizin bu barədə nəzəriniz nədir?

Cavab: Ramazan ayında iftar etmələrinə icazə verilən, amma hər gün üçün fidyə verməli olan şəxslər fidyə verərkən fəqiri doydurmaları kifayər etmir. Onlar fəqirə hər gün üçün bir müdd təam verməlidirlər.

Hamilə və süd verən qadının fidyəsi və təxir kəffarəsi

358. Mən Mütəal Allahın lütfü sayəsində övlad sahibi olmuşam və hal-hazırda o, südəmər körpədir. İnşaallah, tezliklə mübarək Ramazan ayı daxil olacaqdır. Mən oruc tuta bilərəm, amma əgər oruc tutsam, südüm quruyacaqdır. Bədənimin zəif olduğunu və körpəmin də hər on dəqiqədən bir süd istədiyini nəzərə alaraq, mənim vəzifəm nədir?

Cavab: Əgər oruc tutmaq nəticəsində südünüz azalsa və ya qurusa və bunun körpənizə zərəri olacağından qorxsanız, orucunuzu iftar edin. Amma hər gün üçün bir müdd təam fəqirə verməlisiniz. Sonradan orucun qəzasını da tutmalısınız.

359. Əgər körpəyə süd verən qadına oruc tutmağın zərəri varsa və buna görə oruc tutmazsa, sonradan kəffarə də verməlidirmi, yoxsa verməli deyildir?

Cavab: Əgər körpə üçün zərər qorxusu olsa, orucunu iftar etdiyi günlərin sayı qədər bir müdd təam (təxminən 750 qram buğda, çörək, düyü və bu kimi məhsullardan birini) fəqirə verməlidir və orucun qəzasını da tutmalıdır. Amma əgər özü üçün zərər qorxusu olsa, xəstə şəxs hökmündədir.

360. Əgər hamilə və ya süd verən qadın özü üçün və ya körpəsi üçün zərər qorxusu olduğuna görə oruc tutmasa və onun üzrü gələn ilin Ramazan ayına qədər davam etsə, hər gün üçün iki fidyə vermək ona vacibdir, yoxsa bir fidyə kifayət edir?

Cavab: Gələn ilin Ramazan ayına qədər üzrü davam etdiyi təqdirdə, ona bir fidyədən artıq vacib deyildir.

361. Bir qadın iki il ardıcıl olaraq mübarək Ramazan ayında hamilə olmuşdur və həmin günlərdə oruc tutmaq iqtidarında olmamışdır. Amma indi oruc tutmağa qadirdir. Onun hökmü nədir? Ona cəm kəffarəsi vacibdir, yoxsa təkcə orucun qəzasını tutmalıdır? Orucun qəzasını təxirə salmasının hökmü nədir?

Cavab: Əgər şəri üzrə görə Ramazan ayının orucunu tutmayıbsa, təkcə orucun qəzası ona vacibdir. Əgər orucunu yemək üçün onun üzrü orucun bətnindəki uşağına və ya körpəsinə zərəri olacağı qorxusu olubsa, orucun qəzasından əlavə hər gün üçün bir müdd təam fidyə ünvanında verməlidir. Əgər Ramazan ayından sonra orucun qəzasını sonrakı ilin Ramazan ayına qədər şəri bir üzr olmadan təxirə salsa, başqa bir fidyə də ona vacibdir. Yəni hər gün üçün bir müdd təam fəqirə verməlidir.

Amma əgər orucunu yemək üçün onun üzrü orucun onun özünə zərəri olacağı qorxusu olubsa, zərər qorxusu olan başqa hallar hökmündədir. Bu qorxu sonrakı ilin Ramazan ayına qədər davam etdiyi təqdirdə, orucun qəzası onun boynundan götürülür və təkcə fidyə (bir müdd təam) ona vacibdir.

362. Hamilə bir qadının doğuş vaxtı yaxınlaşdığına görə oruc tuta bilmir. O, bu orucların qəzasını doğuşdan sonra və gələn ilin Ramazan ayına qədər tutmalı olduğunu bilir. Əgər bilərəkdən və ya bilmədən bu qəza oruclarını bir neçə il

tutmasa, təkcə həmin ilin kəffarəsi ona vacibdir, yoxsa orucu təxirə saldığı hər ilin kəffarəsi ona vacibdir?
Cavab: Ramazan ayının orucunun qəzası bir neçə il təxirə salınsa belə, təxir fidyəsi bir dəfə vacibdir və bu fidyə hər gün üçün bir müdd təamdan ibarətdir. Fidyə isə Ramazan ayının orucunun qəzası gələn ilin Ramazan ayına qədər səhlənkarlıq və şəri bir üzr olmadan təxirə salındığı təqdirdə vacib olur. Amma əgər orucun düzgünlüyünə manea olan şəri bir üzrə görə təxirə salınsa, fidyəsi yoxdur.

Bu ilin Ramazan ayından gələn ilin Ramazan ayına qədər səfər üzrünün davam etməsi
363. Dini vəzifəsini yerinə yetirməkdən ötrü Ramazan ayında səfərə gedən və buna görə oruc tuta bilməyən şəxslər əgər bir neçə il təxirdən sonra indi oruc tutmaq istəsələr, onlara kəffarə vacibdirmi?
Cavab: Əgər oruc tutmağa maneə olan bir üzrün davam etməsi səbəbilə Ramazan ayının orucunun qəzasını gələn ilin Ramazan ayına qədər təxirə salsalar, tutmadığı orucların qəzasını tutmaları kifayət edir. Hər gün üçün bir müdd təam fidyə vermələri vacib deyildir, baxmayaraq ki, həm orucun qəzasını tutmaq və həm də fidyə vermək ehtiyata müvafiqdir. Amma əgər səhlənkarlığa görə və heç bir üzr olmadan orucun qəzasını təxirə salsalar, həm orucun qəzasını tutmaq və həm də fidyə vermək onlara vacibdir.

Xəstənin orucunun kəffarəsi
364. Mən xəstə olduğuma və dərman qəbul etdiyimə görə, təxminən üç il müddətində oruc tutmaqdan azad idim. Xəstəliyimə görə orucun qəzasını da tuta bilmirdim. Fidyə də verməmişəm. Amma bu il Allaha həmd olsun ki, sağalmışam və fidyə vermək imkanım da vardır. Bilmək istəyirəm ki, ötən üç il xüsusunda mənim vəzifəm nədir? (Qeyd etməliyəm ki, əvvəllər atamın himayəsi altında idim, amma h.ş. 1384-cü ilin əvvəlindən bir şirkətə işə düzəlmişəm.)
Cavab: Xəstəliyiniz gələn ilin Ramazan ayına qədər davam etdiyi təqdirdə, xəstəliyinizə görə Ramazan ayında iftar etdiyiniz orucların hər günü üçün bir müdd təam (təxminən 750 qram) fidyə ünvanında fəqirə verin və bu orucların qəzası vacib deyildir. Amma axırıncı Ramazan ayı istisnadır. Belə ki, əgər axırıncı Ramazan ayından sonra sağalmısınızsa və bu ayın oruclarının qəzasını tutmağa qadirsinizsə, bu təqdirdə əgər gələn ilin Ramazan ayınadək orucların qəzasını tutmasanız, hər gün üçün bir müdd təam verməli və orucların qəzasını da tutmalısınız.

365. Anam təxminən on üç il xəstə olmuşdur və buna görə oruc tuta bilməmişdir. Mən dəqiqliklə bilirəm ki, anam dərman qəbul etmək məcburiyyətində olduğu üçün oruc tuta bilməmişdir. Xahiş edirəm bizi məlumatlandırasınız ki, orucların qəzası ona vacibdirmi?
Cavab: Əgər o, xəstəliyinə görə oruc tuta bilməmişdirsə, orucun qəzası yoxdur.

366. Xəstəliyi bir neçə il davam etdiyinə görə Ramazan ayının orucunu və orucun qəzasını tuta bilməyən şəxsin vəzifəsi nədir?
Cavab: Sağaldığı ildə qəza oruclarını tutmaq üçün kifayət qədər (gələn ilin Ramazan ayına qədər) vaxt olsa, axırıncı ilin Ramazan ayının orucunun qəzasını tutmalıdır. Amma ondan əvvəlki illərin orucunun qəzasını tutmaq lazım deyildir və təkcə hər gün üçün bir müdd təam fəqirə verməlidir.

Göz həkiminin oruc tutmağı qadağan etməsi
367. Mən tibbi eynəkdən istifadə edirəm və hal-hazırda da gözlərim çox zəif görür. Həkimə müraciət etdiyim vaxt o mənə dedi ki, əgər gözlərimin qüvvətlənməsi üçün səy göstərməsəm, daha da zəifləyəcəkdir. Beləliklə, əgər Ramazan ayının orucunu tutmamaqda üzrlüyəmsə, mənim vəzifəm nədir?
Cavab: Əgər oruc tutmağın sizin gözlərinizə zərəri varsa, oruc tutmağınız vacib deyildir, əksinə, iftar etməyiniz vacibdir. Əgər sizin xəstəliyiniz gələn ilin Ramazan ayına qədər davam etsə, orucun qəzası da sizə vacib deyildir. Amma hər gün üçün bir müdd təam fəqirə verməyiniz vacibdir.

Fidyəni verməyi təxirə salmaq
368. Əgər bir neçə il ötsə və fidyə verilməsə, bunun hökmü nədir? Onun üstünə nə isə əlavə olunurmu?
Cavab: Onun üstünə bir şey əlavə olunmur. Qeyd edək ki, fidyəni vermək təcili- vacib deyildir.

Xəstə qadının fidyəsini vermək kimin öhdəsinədir

369. Bir qadın xəstə olduğuna görə oruc tutmaqda üzrlüdür və gələn ilin Ramazan ayına qədər onların qəzasını da tutmağa qadir deyildir. Belə olduğu təqdirdə, kəffarə onun özünə vacibdir, yoxsa onun ərinə vacibdir?

Cavab: Əgər Ramazan ayının orucunu xəstəliyə görə iftar edibsə və xəstəliyi davam etdiyinə görə orucun qəzasını təxirə salıbsa, hər gün üçün bir müdd təam vermək qadının özünə vacibdir və ərinin öhdəsinə heç nə düşmür.

(1) Susuzluq xəstəliyi nəticəsində ağzı tez-tez quruyan şəxs

Orucun kəffarəsinin istifadəsi

Nəfəqəsi vacib olan şəxsə kəffarəni vermək
370. Nəfəqəsi vacib olan şəxsə orucun kəffarəsini vermək olarmı?
Cavab: Nəfəqəsi vacib olan şəxsə orucun kəffarəsini vermək olmaz. Amma kəffarəni fəqir qohumlara verməyin maneəsi yoxdur.

Kəffarəni seyidə vermək
371. Seyid olmayan şəxs orucun kəffarəsini seyidə verə bilərmi?
Cavab: Bəli, maneəsi yoxdur. Amma daha yaxşı olar ki, seyidə verməsin.

Kəffarəni mədəni işlərə xərcləmək
372. Orucun kəffarəsini mədəni işlərə, izdivac mərasiminə və bu kimi işlərə xərcləmək olarmı?
Cavab: Xeyr, orucun kəffarəsini bu işlərə xərcləməyə icazə verilmir və onunla fəqirlərə təam verilməlidir.

Kəffarə ünvanında fəqirlərə təam verməyin qaydası
373. Əgər kəffarə ünvanında altmış fəqirə təam verilməlidirsə, bir fəqirə altmış dəfə təam vermək olarmı? Yaxud təam əldə etməsi üçün kəffarənin pulunu bir fəqirə vermək olarmı?
Cavab: Bir fəqir bir dəfədən artıq doydurula bilməz və ya ona bir müdd təamdan artıq verilə bilməz.

374. Təam (yemək) əldə etməsi üçün bir müdd təamım pulunu fəqirə vermək kifayət edirmi?
Cavab: Əgər mükəlləf əmin olsa ki, fəqir onun tərəfindən təam alacaq və sonra onu kəffarə ünvanında qəbul edəcəkdir, maneəsi yoxdur.

Çörək əvəzinə makaron vermək
375. Çörəyin yerinə çörəklə eyni tərkibli olan makaronu kəffarə ünvanında fəqirə vermək olarmı?
Cavab: Maneəsi yoxdur.

Fəqirlərə təam verərkən, aşpazlıq haqqını kəffarədən götürmək
376. Əgər bir şəxs bir neçə fəqirə yemək vermək üçün vəkil olsa, o, işin və yemək bişirməyin zəhmət haqqını, ona kəffarə ünvanında verilən maldan götürə bilərmi?
Cavab: O, işin və yemək bişirməyin zəhmət haqqını tələb edə bilər, lakin o pulu kəffarədən hesablaya bilməz və ya kəffarə ünvanında fəqirlərə verilməli olan maldan zəhmət haqqı götürə bilməz.

Mükəlləfin qılmadığı namazlar və tutmadığı orucların qəzası və kəffarəsi
377. Təəssüflər olsun ki, mən səhlənkarlıq və s. ucbatından ötən illərin bəzi oruc və namazlarının qəzasını yerinə yetirə bilməmişəm. İndi mən oruc və namazların qəzasını necə yerinə yetirə bilərəm?
Cavab: Şəri üzrə görə yediyiniz orucların qəzası sizə vacibdir. Gələn ilin Ramazan ayına qədər bu orucların qəzasını tuta bilmədiyiniz təqdirdə, qəzadan əlavə hər gün üçün bir müdd təam (750 qram buğda, arpa, un və bu kimi qida məhsullarını) fəqirə verməyiniz vacibdir. Amma bilərəkdən tutmadığınız oruclara görə, orucun qəzasından əlavə hər gün üçün altmış gün oruc tutmaq və ya altmış fəqirə təam verməyiniz vacibdir. Əgər öz şəhərinizdə altmış fəqir tapa bilməsəniz, kəffarəni başqa şəhərə aparmağınız vacibdir. Əgər bu da mümkün olmasa, öz şəhərinizdə altmış fəqir tapana qədər gözləyin. Əgər qeyd edilən saydan az sayda fəqir tapa bilsəniz, sözükeçən say tamamlanana qədər onlara təkrar-təkrar təam verə bilərsiniz. Onlara təkrar təam vermək istədikdə, ehtiyata görə bunu müxtəlif günlərdə edin. Hər hansı bir səbəbə görə qılmadığınız namazlara gəlincə, onların qəzasını qılmağınız vacibdir və kəffarəsi

yoxdur.

Uşaqlıq dövrünün kəffarəsi

378. Əgər ata evində olarkən – uşaqlıq dövründə – orucun kəffarəsi bir fərdə şamil olsa, kəffarəni vermək kimin öhdəsinədir?

Cavab: Büluğa çatmayan fərdə kəffarə vacib deyildir. Büluğa çatmış fərdin öhdəsinə kəffarə gəldikdə isə, onu özü verməlidir. Amma onu vermək təcili deyildir.

Vəfat etmiş atanın orucunun kəffarəsi

379. Əgər bir şəxs vəfat etsə, onun orucunun kəffarəsini kim verməlidir? Onun kəffarəsini vermək oğullarına və qızlarına vacibdir, yoxsa başqa bir şəxs də onu verə bilər?

Cavab: Əgər ataya vacib olan oruc kəffarəsi “təxyiri” şəkildə olsa – yəni atanın həm oruc tutmaq və həm də təam vermək imkanı olubsa – bu məbləği onun irsindən götürmək mümkündürsə, irsdən götürülməlidir. Əks təqdirdə, ehtiyata görə kəffarə orucunu tutmaq böyük oğula vacibdir.